ICMPD
International Centre for
Migration Policy Development

MOBILAZE
Bringing Azerbaijani and EU citizens
closer together

# Azərbaycanda miqrasiya vəziyyətinə dair tədqiqat

Tədqiqat Aİ tərəfindən maliyyələşdirilən "Azərbaycanla Yerdəyişmə üzrə Tərəfdaşlığın həyata keçirilməsinə dəstək" (MOBILAZE) Layihəsi çərçivəsində aparılmışdır

This project is funded by
the European Union

# Azərbaycanda miqrasiya vəziyyətinə dair tədqiqat

Tədqiqat Aİ tərəfindən maliyyələşdirilən "Azərbaycanla Yerdəyişmə üzrə Tərəfdaşlığın həyata keçirilməsinə dəstək" (MOBILAZE) Layihəsi çərçivəsində aparılmışdır

**Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz (MSİBM)**
Avstriya Respublikası,
Vyana şəhəri  A-1010,
Gonzagagasse 1
www.icmpd.org

Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz, aprel 2018-ci il

Bütün hüquqlar qorunur. Bu hesabatın heç bir hissəsi müəllif hüquqları sahibinin razılığı olmadan yenidən dərc edilə, təkrarlana, digər informasiya sistemlərində saxlanıla, istənilən formada və ya elektron, mexaniki, surətçıxarma, yazma və ya digər vasitələrlə ötürülə bilməz.

Bu hesabat Aİ tərəfindən maliyyələşdirilən “Azərbaycanla Yerdəyişmə üzrə Tərəfdaşlığın həyata keçirilməsinə dəstək” (MOBILAZE) Layihəsi  çərçivəsində dərc edilmişdir.

Yalnız MSİBM bu hesabatın məzmununa məsuliyyət daşıyır və burada qeyd olunanlar heç bir halda donorlara məxsus mövqeyin ifadə edilməsi kimi qəbul olunmamalıdır.

# REDAKTORLAR

**Roland Hosner**

Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzin elmi işçisi, miqrasiya və inteqrasiya məsələlərinə aid statistik məlumatların təhlili üzrə məsul şəxs. O, Cənubi Qafqazda Aİ tərəfindən maliyyələşdirilən potensialların artırılmasına dair iki mövcud layihənin (Azərbaycanda "MOBILAZE", Gürcüstanda isə "ENIGMMA" Layihələrinin) tədqiqatlar komponentinin həyata keçirilməsində iştirak etmişdir.

**Məhəmməd Quluzadə**

İnsan hüquqları üzrə hüquqşünas 15 illik iş təcrübəsinə malikdir, Bakı Dövlət Universitetində (BDU) qaçqın hüququnu tədris edib və ekstradisiya hüququna aid bir neçə məqalənin müəllifidir.

**Violeta Vaqner**

Beynəlxalq hüquq üzrə mütəxəssis, "MOBILAZE" Layihəsinin rəhbəri, miqrasiya və sığınacaq sahəsində dövlət orqanları ilə onillik praktiki iş təcrübəsinə malikdir. 2011-ci ildən etibarən Şərqi Avropada və Cənubi Qafqazda MSİBM-in miqrasiya məsələlərinə dair layihələrinə rəhbərlik edir.

# MİNNƏTDARLIQ

"MOBILAZE" Layihəsi heyəti müzakirələr aparmaq üçün yaradılmış imkana görə burada qeyd olunan təşkilatlara və bu təşkilatların əməkdaşlarına öz dərin minnətdarlığını bildirir və təşəkkür edir: Dövlət Miqrasiya Xidmətinin Miqrasiya Siyasəti və Hüquqi Təminat Baş İdarəsinin rəisi cənab Vahid Qəhrəmanova, Dövlət Miqrasiya Xidmətinin əməkdaşları cənab Kəyan Hacıyevə və xanım Sevinc Məstiyevaya, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Məşğulluq Siyasəti və Demoqrafiya Şöbəsinin müdiri cənab Elnur Suleymanova, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək Miqrasiyası Sektorunun müdiri cənab Fuad Cabbarova, Diasporla İş üzrə Dövlət Komitəsinin Şöbə müdiri cənab Sürəddin Hümbətova, Dövlət Statistika Komitəsinin Əhali Statistikası Şöbəsinin müdiri cənab Rza Allahverdiyevə, Dövlət Statistika Komitəsinin Əmək Statistikası Şöbəsinin müdiri cənab Nemət Xuduzadəyə, Əmək və Sosial Problemlər üzrə Elmi Tədqiqat və Tədris Mərkəzinin direktoru cənab Mətləb Mahmudova, Birləşmiş Millətlər Təşkilatının Qaçqınların İşləri üzrə Ali Komissarlığının Azərbaycandakı Nümayəndəliyinin əməkdaşları cənab Aleks Novikauya və xanım Bela İsmayılovaya.

Eyni zamanda, biz bu hesabatın işlənib hazırlanmasına hərtərəfli dəstək vermiş BDU-nun müəllimi xanım Sara Hüseynovaya və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşı İlqar Alqayevə xüsusilə təşəkkür edirik.

Bu hesabatın hazırlanması, nəzərdən keçirilməsi və aidiyyəti tərəflər arasında paylanması işi "MOBILAZE" Layihəsi qrupunun Vyana və Bakı şəhərlərindəki əməkdaşları, xüsusən də Yekaterina Belukova, Ksenia Pilipenko, Elnur Nəsibov, Səltənət Məmmədova və Aida Həsənova tərəfindən təmin olunmuşdur.

# QISA XÜLASƏ

Son illər ərzində Azərbaycan Respublikasının miqrasiya siyasətində inkişafı təsdiqləyən böyük dəyişikliklər müşahidə olunmaqdadır ki, onların da arasında miqrasiyaya aid qanunvericilik aktlarının vahid Miqrasiya Məcəlləsində əks olunması xüsusilə qeyd edilməlidir. Bununla yanaşı, qaçqın statusunun müəyyənləşdirilməsi məsələlərində Birləşmiş Millətlər Təşkilatının Qaçqınların İşləri üzrə Ali Komissarlığı (BMT QAK) ilə sıx əməkdaşlıq nəticəsində (bəzi qruplarla bağlı) statusun tanınmasına dair ümumi göstəricilərin Aİ ölkələrindəki səviyyəyə qalxması müşahidə olunur.

Ermənistanla davam edən hərbi münaqişə səbəbindən Azərbaycanda çoxlu sayda məcburi köçkün yaşayır. Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən təqdim olunmuş rəsmi statistik məlumatlara əsasən ölkədəki məcburi köçkünlərin sayı 789.000 nəfər təşkil edir, lakin BMTQAK-ın 2016-cı il üçün məlumatlarında onların sayı təxminən 613.000 nəfərə bərabər idi. Bundan başqa, 2009-cu ildən etibarən ölkə ərazisində baş vermiş təbii fəlakətlər nəticəsində 68.000 nəfər insan öz daimi yaşayış yerindən köçürüldüyündən məcburi köçkün kateqoriyasına aid edilmişdir. Ölkəyə başqa dövlətlərdən gələn qaçqın axını artsa da, bu göstərici regionun digər ölkələri ilə müqayisədə nisbətən aşağıdır.

Bununla belə, Azərbaycana qısa müddətə gələn miqrantların sayı artmaqdadır və 2015-ci ildə ölkədə müvəqqəti yaşamaq üçün 54.000, 2016-cı ildə isə 48.500 icazə verilmişdir ki, onların da böyük əksəriyyəti Türkiyə, Rusiya və Gürcüstan vətəndaşlarının payına düşür. Daimi yaşayış icazəsi isə ölkədə ən azı iki il müvəqqəti yaşadıqdan sonra verilir və ümumi sayı 3.200-dən çox olan bu cür icazə 2016-cı ildə rəsmiləşdirilmişdir.

Ümumilikdə götürəndə, Azərbaycandan olan miqrantlar getdikcə daha çox Avropa ölkələrini və Avropa İttifaqının 28 üzv dövlətini cəlbedici təyinat yeri kimi seçirlər və hal-hazırda ən azı 42.000 azərbaycanlı Avropa İttifaqı ərazisində yaşayır, baxmayaraq ki, Rusiya Azərbaycandan gedən və Azərbaycana gələn miqrantların və geri qayıdanların əsas təyinat və mənşə ölkəsi olaraq qalmaqdadır. Bu hesabat üçün toplanmış məlumatlara əsasən Azərbaycandan xaricə istiqamətlənən ümumi xalis miqrasiya hələ də mənfi göstərici ilə ifadə olunur. Keçmiş SSRİ respublikaları arasında ən yüksək emiqrasiya göstəricilərindən biri Azərbaycana məxsus olsa da, 1990-cı illərin ortalarından etibarən bu tendensiya tədricən azalmaqdadır.

Azərbaycandan xaricə üz tutmuş emiqrantların sayı (1,1 milyon nəfər) növbəti illər ərzində Azərbaycanın iqtisadi inkişafı və stabilliyinə fayda verə biləcək transmilli, iqtisadi və sosial əlaqələrin dərinləşməsi üçün əlavə potensialın mövcud olmasına işarə edir.

Azərbaycana göndərilən pul köçürmələrinin həcmi 2012-ci ildə ən yüksək göstəriciyə qalxsa da, 2015-2016-cı illərdə kəskin şəkildə azalmışdır və bunun səbəblərindən biri Azərbaycan manatının ABŞ dollarına nisbətdə devalvasiyası ilə əlaqədardır. Bununla yanaşı, Azərbaycandan xaricə göndərilən pul köçürmələri 2012-ci ildə ən yüksək səviyyəyə çatdıqdan sonra həmin ildən etibarən bu ölkəyə daxil olan pul köçürmələrinin həcmini üstələyir (miqrantların gəlirləri nəzərə alındığı təqdirdə).

Mövcud miqrasiya siyasətinin əsas məqsədlərindən biri ölkə iqtisadiyyatının stimullaşdırılması üçün yüksək ixtisaslı miqrantları ölkəyə cəlb etməkdən ibarətdir. 2016-cı ildə baş vermiş iqtisadi böhran və əhəmiyyətli sayda qısamüddətli yerdəyişmələr, habelə ölkəyə miqrasiya edən əcnəbilərin sayının az olması fonunda ixtisaslı miqrantların cəlb edilməsi üçün əlavə stimullaşdırıcı tədbirlər həyata keçirilməlidir, məsələn, ölkədə yaşamaq üçün icazələrin daha uzun müddətə verilməsi məsələsinə baxılmalıdır. Eyni zamanda, xaricdə yaşayan azərbaycanlı miqrantların və diaspor üzvlərinin sosial, təhsil və iqtisadi potensiallarından mövcud iqtisadi məqsədlər üçün mümkün qədər geniş istifadə imkanları da mütləq nəzərə alınmalıdır.

# MÜNDƏRİCAT


1. Giriş 09
2. Azərbaycanın müasir miqrasiya tarixinin qısa icmalı 11
3. Mövcud miqrasiya siyasəti 15
    **3.1 Miqrasiya idarəçiliyi** 15
    **3.2 Siyasət çərçivələri və qanunvericilik aktları** 17
        3.2.1 Beynəlxalq qanunvericilik 18
    **3.3 Sektorlar üzrə siyasətlər** 19
        3.3.1 Ölkə istiqamətində axınların və əcnəbilərin yerdəyişmə proseslərinin idarə olunması 19
        3.3.2 Geri qaytarılma və readmissiya siyasətləri 20
        3.3.3 Məlumatların idarə olunması sistemləri 21
        3.3.4 Maarifləndirmə 21
4. Azərbaycan Respublikası və Avropa İttifaqı 23
5. İmmiqrasiya 25
    **5.1 İmmiqrantlar** 25
    **5.2 Vətəndaşlığın əldə edilməsi** 27
    **5.3 Qanuni immiqrasiya** 29
        5.3.1 Ölkə ərazisində yaşamaq üçün icazələr 30
        5.3.2 Əməkçi immiqrantlar 32
        5.3.3 Təhsil məqsədilə gələn immiqrantlar 33
    **5.4 Azərbaycanda sığınacaq məsələləri** 35
        5.4.1 Qanunvericilik bazası 35
        5.4.2 Sığınacaq prosedurunun xülasəsi 36
        5.4.3 Sığınacaq statistikası 36
    **5.5 Qanunsuz miqrasiya** 42
6. Emiqrasiya 43
    **6.1 Giriş** 43
    **6.2 Azərbaycanlı emiqrantlar** 44
    **6.3 Yeni emiqrasiya axınları və metodoloji çətinliklər** 46
        6.3.1 Tələbələrin yerdəyişmələri 48
    **6.4 Azərbaycandan olan sığınacaq axtaranlar və qaçqınlar** 49

7. Miqrasiya və inkişaf 51

7.1 Giriş 51

7.2 Pul köçürmələri 53

7.3 Davamlı investisiyalar 55

7.4 Diaspor təşkilatlarının iştirakı 55

8. Ölkədaxili miqrasiya 57

8.1 Giriş 57

8.2 Məcburi köçkünlər 57

8.2.1 Azərbaycanda məcburi köçkünlərlə bağlı normativ hüquqi sənədlər 58

8.3 Ekoloji miqrantlar 59

8.3.1 Azərbaycanda ekoloji miqrantlarla bağlı normativ hüquqi sənədlər 60

9. Yekun və tövsiyələr 61

Tövsiyələr 62

10. Ədəbiyyat 65

11. Əlavə 73

11.1 Cədvəllər 73

11.2 Miqrasiya terminlərinin beynəlxalq tərifləri 80

# İXTİSARLAR

| | |
|---|---|
| **Aİ** | Avropa İttifaqı |
| **Aİ-28** | Avropa İttifaqının 28 üzv dövləti |
| **AQP** | Alıcılıq qabiliyyəti pariteti |
| **AQS** | Avropa Qonşuluq Siyasəti |
| **ARRA** | Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentlik |
| **ASAN** | Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi |
| **AVROSTAT** | Avropa İttifaqının Statistika İdarəsi |
| **AZSTAT** | Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi |
| **BQXK** | Beynəlxalq Qırmızı Xaç Komitəsi |
| **BMT** | Birləşmiş Millətlər Təşkilatı |
| **BMTİSMD** | Birləşmiş Millətlər Təşkilatının İqitsadi və Sosial Məsələlər üzrə Departamenti |
| **BMTİP** | Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı |
| **BMT QAK** | Birləşmiş Millətlər Təşkilatının Qaçqınların İşləri üzrə Ali Komissarlığı |
| **BMqT** | Beynəlxalq Miqrasiya Təşkilatı |
| **BPM** | Beynəlxalq Valyuta Fondunun Tədiyə Balansına dair Təlimatları |
| **BVF** | Beynəlxalq Valyuta Fondu |
| **DİN** | Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi |
| **DMX** | Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti |
| **ENIGMMA** | “Gürcüstanda miqrasiya idarəçiliyinin inkişaf etdirilməsi” Layihəsi |
| **ƏƏSMN** | Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi |
| **XİN** | Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi |
| **QHT** | Qeyri-hökumət təşkilatı |
| **MDB** | Müstəqil Dövlətlər Birliyi |
| **MK** | Ölkə daxilində köçürülmüş şəxs/məcburi köçkün |
| **MOBILAZE** | “Azərbaycanla Yerdəyişmə üzrə Tərəfdaşlığın həyata keçirilməsinə dəstək” Layihəsi |
| **MSİBM** | Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz |
| **TƏS** | Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi |
| **YUNESKO** | Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı |
| **UNFCC** | BMT-nin “İqlim dəyişikliyi üzrə” Çərçivə Konvensiyası |
| **USAID** | Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyi |
| **ÜDM** | Ümumi daxili məhsul |
| **ÜMG** | Ümumi milli gəlir |
| **VCT** | Vətəndaş cəmiyyəti təşkilatı |
| **VMMS** | Vahid Miqrasiya Məlumat Sistemi |

# 1. GİRİŞ

Bu hesabat Aİ tərəfindən maliyyələşdirilən “Azərbaycanla Yerdəyişmə üzrə Tərəfdaşlığın həyata keçirilməsinə dəstək (MOBILAZE)” Layihəsi çərçivəsində işlənib hazırlanmışdır. Həmin layihə 2013-cü ildə imzalanmış “Aİ, Aİ-nin iştirakçı dövlətləri və Azərbaycan Respublikası arasında Yerdəyişmə üzrə Tərəfdaşlıq barədə” Birgə Bəyannamədə müəyyən edilmiş vacib prioritet sahələrə əsaslanır. Layihənin əsas məqsədi milli miqrasiya siyasətinin hazırlanması və tətbiq edilməsi sahəsində hökumətin potensialının artırılmasına xüsusi diqqət verməklə Aİ ilə Azərbaycan Respublikası arasında yerdəyişmə üzrə tərəfdaşlığın həyata keçirilməsini dəstəkləməkdən ibarətdir. Bu layihə Aİ-nın yeddi üzv dövlətini, konkret olaraq Bolqarıstanı, Çexiyanı, Latviyanı, Litvanı, Hollandiyanı, Polşanı və Slovakiyanı təmsil edən doqquz icraçı tərəfdaşla birgə MSİBM tərəfindən yerinə yetirilir.

Layihə aşağıda sadalanan beş komponentdən ibarətdir:

- Komponent 1: Məlumatlı miqrasiya siyasətinin işlənib hazırlanması üçün analitik potensialların artırılması;
- Komponent 2: Azərbaycandan və Azərbaycana qanuni miqrasiya;
- Komponent 3: Sənədlərin təhlükəsizliyi;
- Komponent 4: Sığınacaqla bağlı qərar qəbuletmə prosedurunun təkmilləşdirilməsi;
- Komponent 5: Qayıdış və reinteqrasiya.

Komponent 1-in xüsusi məqsədi Azərbaycan hökumətinin monitorinq etmə, təhlil aparma və proqnozlaşdırma potensiallarını, habelə miqrasiya siyasətinin işlənib hazırlanması sahəsindəki fəaliyyətini təkmilləşdirməkdən ibarətdir. Bu məqsəddən irəli gələn vəzifələr isə, Azərbaycanda miqrasiya vəziyyətinin müfəssəl təhlilini aparmaqdan, məlumatların toplanması və təhlil edilməsi və miqrasiya araşdırmalarının metodologiyası sahələrində potensialların artırılması işini dəstəkləməkdən, habelə tədqiq və təhlil etmə potensiallarını gücləndirməkdən ibarətdir.

Bizim hesabata gəldikdə isə, onun əsas məqsədi mövcud məlumatları və informasiyanı əsas götürərək Azərbaycanda miqrasiya vəziyyətinin müfəssəl icmalını təqdim etməkdən və miqrasiyaya dair empirik tədqiqatın nəticələrini müzakirə etməkdən ibarətdir.

Hesabat MSİBM-in “MOBILAZE” Layihəsindən olan əməkdaşları və bu layihəyə cəlb olunmuş Azərbaycan tədqiqatçıları tərəfindən işlənib hazırlanmışdır. Hesabatın hazırlanması prosesi BDU-nun İqtisadiyyat və Beynəlxalq Hüquq Fakültələrində işləyən iki mütəxəssisin və ƏƏSMN-in bir əməkdaşının 2016-cı ilin yay aylarında MSİBM-ə bir aylıq təcrübə səfəri zamanı başlamışdır. Bundan sonra, 2016-cı ilin oktyabr ayında Bakı şəhərinə araşdırma missiyası zamanı əlaqədar tərəflərlə məşvərət görüşləri keçirilmişdir və hesabatın hazırlanması üçün zəruri olan əlavə məlumatlar əldə olunaraq təhlil edilmişdir.

Bu hesabatda Azərbaycanın müasir miqrasiya tarixinin (Fəsil 2), mövcud miqrasiya siyasətinin (Fəsil 3) və Aİ ilə Azərbaycan Respublikası arasındakı əlaqələrin (Fəsil 4) qısa icmalından sonra Azərbaycana immiqrasiya məsələləri, xüsusilə də bu ölkədə yaşayan immiqrantlar, vətəndaşlığın əldə olunması, mövcud immiqrasiya proseslərinin növləri (əmək, təhsil və sığınacaq məqsədli immiqrasiya) və qanunsuz miqrasiya məsələləri (Fəsil 5) barədə məlumatlar müzakirə olunur.

Miqrasiya dinamikasının hərtərəfli perspektivləri baxımından emiqrasiya proseslərinin və xalis miqrasiya göstəricisinin qiymətləndirilməsi ilə əlaqədar mövcud olan metodoloji çətinliklər də mütləq nəzərə alınmalıdır (emiqrasiya məsələlərinə aid Fəsil 6-ya baxın). Artıq hamıya məlumdur ki, bir qayda

olaraq təkanverici amillər, habelə göndərən və qəbul edən ölkələrə təsiri nöqteyi-nəzərindən miqrasiya sosial-iqtisadi inkişafla çox sıx əlaqəlidir (miqrasiya və inkişaf məsələləri ilə bağlı Fəsil 7-yə diqqət yetirmək olar). Hesabatın Azərbaycan üçün böyük əhəmiyyət kəsb edən daxili miqrasiya məsələlərinə aid bölməsində məcburi köçkünlərin vəziyyətinə də xüsusi diqqət yetirilir (Fəsil 8).

Hesabatın yekun hissəsi (Fəsil 9) siyasətlə və tədqiqatların aparılması/məlumatların təhlil edilməsi ilə bağlı tövsiyələri, həmçinin burada nəzərdən keçirilən hər bir mövzuya uyğun zəruri təkmilləşdirmə işlərinə aid təklifləri özündə əks etdirir.

# 2. AZƏRBAYCANIN MÜASİR MİQRASİYA TARİXİNİN QISA İCMALI

1988-ci ildən başlayaraq azərbaycanlıların məcburi miqrasiyası, 1992-ci ildən etibarən Ermənistanla davam edən müharibə və əhalinin bununla əlaqədar məcburi yerdəyişmələri nəticəsində (Nəcəfzadə, 2013) bu gün Azərbaycanda yüz minlərlə insan məcburi köçkün vəziyyətində yaşayır.

Eyni zamanda, Dağlıq Qarabağla yanaşı yeddi həmsərhəd inzibati rayon (Kəlbəcər, Laçın, Qubadlı, Cəbrayıl, Zəngilan, Ağdam və Füzuli rayonları) Ermənistan Respublikası silahlı qüvvələri tərəfindən qismən və ya bütövlükdə işğal olunub (DMX, 2017a).

1993-cü ildə BMT Təhlükəsizlik Şurası Ermənistanla Azərbaycan arasında baş verən hərbi münaqişə ilə əlaqədar dörd Qətnamə (822, 853, 874 və 884 nömrəli qətnamələr) qəbul edərək tərəfləri düşmənçiliyə son qoymağa, Azərbaycan Respublikasının dövlət suverenliyini və ərazi bütövlüyünü tanımağa və silahlı qüvvələrin işğal edilmiş ərazilərdən çıxarılmasına çağırmışdır. Münaqişənin sülh yolu ilə həlli istiqamətində müvafiq işlərin aparılması məqsədilə 1994-cü ildə ATƏT-in Minsk Qrupu yaradılmışdır (ATƏT, 2017).

2005-ci ildə Avropa Şurası Parlament Assambleyası tərəfindən qəbul edilmiş 1416 nömrəli Qətnamədə də həll edilməmiş münaqişələrə istinad edilərək bəyan olunur ki, münaqişənin başlamasından etibarən on ildən çox bir müddətin keçməsinə baxmayaraq, "Azərbaycan Respublikası ərazisinin əhəmiyyətli bir hissəsi hələ də Ermənistan Respublikası silahlı qüvvələrinin işğalı altındadır." Bu Qətnamədə etnik zəmində münaqişlər və deportasiyalar etnik tənzimləmə siyasətinə bərabər tutularaq "münaqişə bölgəsindən olan məcburi köçkünlərin öz evlərinə təhlükəsiz şəkildə və ləyaqətlə qayıtmaq hüququna malik olmaları" bir daha təsdiq olunur. Bundan başqa, sözügedən Qətnamə Avropa Şurasına üzv olan dövlətləri, habelə müşahidəçi ölkələri "silahlı qarşıdurmalar və etnik ermənilərin Azərbaycandan, etnik azərbaycanlıların isə Ermənistandan çıxarılması nəticəsində yüz minlərlə qaçqın və məcburi köçkün üçün" humanitar yardımın göstərilməsinə təkidlə çağırır.

Qarşıdurmaların 2008-ci ildə qızışması səbəbindən BMT Baş Assambleyası Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasına çağıran 243 nömrəli Qətnaməni qəbul etmişdir. 39 ölkəni təmsil edən nümayəndə Qətnamənin qəbul olunmasına səs vermişdir, 7 dövlət sənədin əleyhinə olmuşdur, 100 ölkə isə bitərəf qalmışdır.

Avropa Parlamenti 2010-cu ildə qəbul etdiyi OJ C 161E nömrəli Qətnaməsində daimi yaşadığı ərazilərdən didərgin düşmüş yüz minlərlə məcburi köçkünə və qaçqına birmənalı şəkildə istinad edərək onların hüquqlarını (o cümlədən geri qayıtmaq hüququnu) təsdiqləmişdir və Azərbaycan Respublikasının işğal olunmuş bütün ərazilərindən silahlı qüvvələrin çıxarılmasını tələb etmişdir.

Adətən bu qarşıdurma "dondurulmuş münaqişə" kimi qələmə verilsə də, döyüşlər 2016-cı ilin aprel ayında, habelə 2017-ci ilin fevral və iyul aylarında yenidən intensivləşmişdir (eurasianet.org, 2017a, b).

Uzunsürən münaqişə vəziyyətində olmasına baxmayaraq, Azərbaycan Respublikası 1991-ci ildə öz müstəqilliyini bərpa etdikdən sonra Cənubi Qafqaz regionunda əhalisinin sayı daima artan yeganə dövlətdir (BMTİSMD, 2015a). Xüsusilə, müstəqilliyin ilk illərində əhali yerdəyişmələri və xalis emiqrasiya prosesləri Azərbaycan üçün təsirsiz ötüşməsə də, ölkə əhalisinin təbii artımı mənfi miqrasiya balansı üzərində ardıcıl olaraq üstünlük təşkil edir (AZSTAT, 2016a). Konkret olaraq 1990-cı ildən əvvəl və sonra immiqrasiya və emiqrasiya prosesləri intensiv olsa da, 1990-cı illərin ortalarında sürətlə azalmağa başlamışdır (Cədvəl 1-ə baxın).

Bütün bunlarla yanaşı, 1991-ci ildən əvvəl və sonra Azərbaycan Respublikası Özbəkistandan gələn məshəti/axıska türkləri və Ermənistandan qaçqın düşən azərbaycanlılar üçün təyinat ölkəsi idi. 1998-ci ildə həmin qaçqınlar naturalizasiya olunmuşdur (Bölmə 5.2-yə baxın). Emiqrasiya prosesləri əsasən milli azlıqların nümayəndələrini əhatə etmişdir (Muradov, 2001). Son illər ərzində beynəlxalq miqrasiya (həm emiqrasiya, həm də immiqrasiya) proseslərinin əhəmiyyətli dərəcədə azalması (lakin yetərincə qiymətləndirilməməsi/Fəsil 9-da verilmiş yekunlara baxın) xüsusilə qeyd edilməlidir.

**CƏDVƏL 1. Azərbaycan Respublikası əhalisinin sayının 1989-2017-ci illər üzrə dəyişməsi**

| İl | Yanvarın 1-i üçün olan əhalinin sayı | Doğulan-ların sayı | Ölənlərin sayı | Təbii artım göstəricisi | İmmiqrant-lar | Emiqrant-lar | Xalis miqrasiya göstəricisi |
|---|---|---|---|---|---|---|---|
| 2017 | 9.810.000 | - | - | - | - | - | - |
| 2016 | 9.705.600 | 159.464 | 56.648 | 102.816 | 3.200 | 1.700 | 1.500 |
| 2015 | 9.593.000 | 166.210 | 54.697 | 111.513 | 2.700 | 1.600 | 1.100 |
| 2014 | 9.477.100 | 170.503 | 55.648 | 114.855 | 1.900 | 800 | 1.100 |
| 2013 | 9.356.500 | 172.671 | 54.383 | 118.288 | 3.100 | 800 | 2.300 |
| 2012 | 9.235.100 | 174.469 | 55.017 | 119.452 | 2.200 | 200 | 2.000 |
| 2011 | 9.111.100 | 176.072 | 53.762 | 122.310 | 2.200 | 500 | 1.700 |
| 2010 | 8.997.600 | 165.643 | 53.580 | 112.063 | 2.200 | 800 | 1.400 |
| 2009 | 8.897.000 | 152.139 | 52.514 | 99.625 | 2.300 | 1.400 | 900 |
| 2008 | 8.779.900 | 152.086 | 52.710 | 99.376 | 3.600 | 2.500 | 1.100 |
| 2007 | 8.666.100 | 151.963 | 53.655 | 98.308 | 2.000 | 3.100 | -1.100 |
| 2006 | 8.553.100 | 148.946 | 52.248 | 96.698 | 2.200 | 2.600 | -400 |
| 2005 | 8.447.400 | 141.901 | 51.962 | 89.939 | 2.000 | 2.900 | -900 |
| 2004 | 8.349.100 | 131.609 | 49.568 | 82.041 | 2.400 | 2.800 | -400 |
| 2003 | 8.269.200 | 113.467 | 49.001 | 64.466 | 2.500 | 3.800 | -1.300 |
| 2002 | 8.191.400 | 110.715 | 46.522 | 64.193 | 1.200 | 4.300 | -3.100 |
| 2001 | 8.114.300 | 110.356 | 45.284 | 65.072 | 2.600 | 7.300 | -4.700 |
| 2000 | 8.032.800 | 116.994 | 46.701 | 70.293 | 4.400 | 9.900 | -5.500 |
| 1999 | 7.953.400 | 117.539 | 46.295 | 71.244 | 4.800 | 9.100 | -4.300 |
| 1998 | 7.876.700 | 123.996 | 46.299 | 77.697 | 5.400 | 10.500 | -5.100 |
| 1997 | 7.799.800 | 132.052 | 46.962 | 85.090 | 7.500 | 15.700 | -8.200 |
| 1996 | 7.726.200 | 129.247 | 48.242 | 81.005 | 5.800 | 13.200 | -7.400 |
| 1995 | 7.643.500 | 143.315 | 50.828 | 92.487 | 6.200 | 16.000 | -9.800 |
| 1994 | 7.549.600 | 159.761 | 54.921 | 104.840 | 8.600 | 19.600 | -11.000 |
| 1993 | 7.440.000 | 174.618 | 52.809 | 121.809 | 16.300 | 28.500 | -12.200 |
| 1992 | 7.324.100 | 181.364 | 51.258 | 130.106 | 35.700 | 49.900 | -14.200 |
| 1991 | 7.218.500 | 190.353 | 44.659 | 145.694 | 66.300 | 106.400 | -40.100 |
| 1990 | 7.131.900 | 182.989 | 42.819 | 140.170 | 84.300 | 137.900 | -53.600 |
| 1989 | 7.021.200 | 181.631 | 44.016 | 137.615 | - | - | -40.200 |

Rəqəmlər geri qayıtmış Azərbaycan Respublikası vətəndaşlarının, habelə ölkə ərazisində müvəqqəti yaşamaq üçün icazə əldə etmiş şəxslərin sayını özündə əks etdirmir.
"-" = məlumat mövcud deyil.

*Mənbə: AZSTAT, 2016a, 2017a, b, c.*

20-ci əsrdə Azərbaycan əhalisinin sayı altı milyon nəfərdən/dörd dəfədən çox artmışdır (Muradov, 2001). Bu artımın təxminən 70%-i 1959-1999-cu illəri əhatə edən dövrə təsadüf edir ki, həmin zaman əhalinin sayı hər on il 900.000 nəfərdən çox artırdı. Bu artım 21-ci əsrdə də davam edərək 2000-2017-ci illərdə əhalinin sayının 1,8 milyon nəfər (22%) çoxalmasına gətirib çıxarmışdır. 2017-ci ilin yanvar ayı üçün Dövlət Statistika Komitəsinin hesablamalarına əsasən işğal olunmuş əraziləri[1] nəzərə almaqla Azərbaycan Respublikası əhalisinin sayı 9,8 milyon nəfər təşkil edir (AZSTAT, 2017b).

Azərbaycanda əhalinin sayına aid statistik informasiya siyahıyaalma məlumatlarından irəli gəlir. Dövlət müstəqilliyi bərpa edildikdən sonra, 1999 və 2009-cu illərdə Azərbaycanda iki siyahıyaalma keçirilmişdir. Növbəti siyahıyaalmanın 2019-cu ildə keçirilməsi nəzərdə tutulur. Siyahıyaalmalar arasındakı dövrlərdə doğulanların, ölənlərin, immiqrantların və emiqrantların sayına aid statistik informasiya əhalinin sayının hesablanması üçün istifadə olunur. Miqrasiya məsələlərinə aid statistik informasiya Azərbaycana gələn və Azərbaycandan gedənlər üçün nəzərdə tutulmuş qeydiyyat formalarına əsasən toplanır. Miqrasiya statistikasının aparılması üçün immiqrant ölkəyə daimi yaşamaq məqsədilə gəlmiş əcnəbi, emiqrant isə xaricdə daimi yaşamaq məqsədilə ölkəni tərk etmək üçün qeydiyyatdan çıxmış şəxs kimi müəyyən olunub (AZSTAT, 2016a).

**Azərbaycanda miqrasiya statistikasının aparılması üçün immiqrant ölkəyə daimi yaşamaq məqsədilə gəlmiş əcnəbi (ölkədə iki il müvəqqəti yaşadıqdan sonra daimi yaşamaq icazəsi verilir), emiqrant isə xaricdə daimi yaşamaq məqsədilə ölkəni tərk etmək üçün qeydiyyatdan çıxmış şəxs kimi müəyyən olunub.**

20-ci əsrdə baş vermiş sənayeləşmə prosesi nəticəsində Azərbaycanda, xüsusilə ölkənin şərq hissəsində əhalinin şəhərlərə kütləvi axını müşahidə olunurdu. 1990-cı illərin əvvəllərində ölkənin siyasi, iqtisadi və sosial həyatında baş vermiş köklü dəyişikliklər bu axını əhəmiyyətli dərəcədə intensivləşdirmişdir. Azərbaycanda əhalinin kənd yerlərindən inkişaf etməkdə olan şəhərlərə köçməsi baş verən urbanizasiya prosesini daha da sürətləndirmişdir. 2017-ci ildə şəhər əhalisinin nisbəti təxminən 53% təşkil edirdi (Cədvəl 2-yə baxın).

**CƏDVƏL 2. 1989-2017-ci illərdə Azərbaycanda şəhər və kənd əhalisinin sayı və nisbəti**

| Əhali | 1989 | 1999 | 2009 | 2017 | 1989 | 1999 | 2009 | 2017 |
|---|---|---|---|---|---|---|---|---|
| | sayı | sayı | sayı | sayı | % nisbəti | % nisbəti | % nisbəti | % nisbəti |
| Şəhər | 3.805.900 | 4.064.300 | 4.727.800 | 5.199.000 | 54,2 | 51,1 | 53,1 | 53,0 |
| Kənd | 3.215.300 | 3.889.100 | 4.169.200 | 4.611.000 | 45,8 | 48,9 | 46,9 | 47,04 |
| Cəmi | 7.021.200 | 7.953.400 | 8.897.000 | 9.810.000 | 100,0 | 100,0 | 100,0 | 100,0 |

*Mənbə: AZSTAT, 2016a, 2017b*

Tarixən ölkə əhalisinin etnik müxtəlifliyi kifayət qədər yüksək idi, məsələn, 20-ci əsrin birinci yarısında əhalinin təxminən 40%-ni milli azlıqlar təşkil edirdi. Ötən əsrin ikinci yarısında, konkret olaraq 1989-cu ildən sonra ölkədə yaşayan rusların və ermənilərin sayı və nisbəti əhəmiyyətli dərəcədə azalmışdır. 1999-ci ildə bu iki qrupun hər biri ölkə əhalisinin təxminən 2%-ni təşkil edirdi. 2009-cu ildə keçirilmiş əhalinin siyahıya alınmasına əsasən Azərbaycanda yaşayan əsas milli azlıqlar ləzgilərdən (əhalinin ümumi sayının 2%-i), ermənilərdən (1%), ruslardan (1%), talışlardan (1%), habelə avarlardan (1%-dən bir qədər az) və türklərdən (1%-dən bir qədər az) ibarətdir. Ölkə əhalisinin 92%-ni milliyətcə azərbaycanlılar təşkil edirlər (Cədvəl 3-ə baxın). Ümumiyyətlə, ləzgilər və talışlar da Azərbaycanın köklü əhalisi hesab olunur (Rumyansev, 2009).

[1] "İşğal olunmuş ərazilər" Avropa Şurası Parlament Assambleyasının 2005-ci il tarixli, 1416 nömrəli Qətnaməsində və BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli, 822, 853, 874 və 884 nömrəli Qətnamələrində göstərildiyi kimi nəzərə alınır.

**CƏDVƏL 3. 1939-2009-cu illərdə Azərbaycanda yaşamış etnik qruplar (2009-cu il üçün ən çoxsaylı 10 qrup)**

| Etnik qruplar | 1939 | 1979 | 1999 | 2009 | 1939 | 1979 | 1999 | 2009 |
|---|---|---|---|---|---|---|---|---|
| | sayı | sayı | sayı | sayı | % nisbəti | % nisbəti | % nisbəti | % nisbəti |
| Azərbaycanlılar | 1.870.500 | 4.708.800 | 7.205.500 | 8.172.800 | 58,4 | 78,1 | 90,6 | 91,6 |
| Ləzgilər | 111.700 | 158.100 | 178.000 | 180.300 | 3,5 | 2,6 | 2,2 | 2,0 |
| Ermənilər | 388.000 | 475.500 | 120.700 | 120.300 | 12,1 | 7,9 | 1,5 | 1,3 |
| Ruslar | 528.300 | 475.300 | 141.700 | 119.300 | 16,5 | 7,9 | 1,8 | 1,3 |
| Talışlar | 87.500 | - | 76.800 | 112.000 | 2,7 | - | 1,0 | 1,3 |
| Avarlar | 15.700 | 36.000 | 50.900 | 49.800 | 0,5 | 0,6 | 0,6 | 0,6 |
| Türklər | - | 7.900 | 43.400 | 38.000 | - | 0,1 | 0,5 | 0,4 |
| Tatarlar | 27.600 | 31.400 | 30.000 | 25.900 | 0,9 | 0,5 | 0,4 | 0,3 |
| Tatlar | - | 8.900 | 10.900 | 25.200 | - | 0,1 | 0,1 | 0,3 |
| Ukraynalılar | 23.600 | 26.400 | 29.000 | 21.500 | 0,7 | 0,4 | 0,4 | 0,2 |
| Digərləri | 152.300 | 98.200 | 66.500 | 57.300 | 4,8 | 1,6 | 0,8 | 0,6 |
| Ümumi sayı | 3.205.200 | 6.026.500 | 7.953.400 | 8.922.400 | 100,0 | 100,0 | 100,0 | 100,0 |

“-“ = məlumat mövcud deyil.
Qeyd: Əhalinin siyahıya alınmasına dair məlumatlara əsasən milli mənsubiyyət özünü eyniləşdirmə meyarı əsasında müəyyən olunmuşdur; “Ümumi sayı” adlı sətirdə verilmiş nisbətlər 100%-dək yuvarlaqlaşdırıldığından təxmini xarakter daşıyırlar.

*Mənbə: AZSTAT, 2016a: 54*

# 3. MÖVCUD MİQRASİYA SİYASƏTİ

Post-sovet respublikalarının hamısında olduğu kimi Azərbaycanda da müstəqillik bərpa edildikdən sonra, 1991-ci ildən etibarən miqrasiya siyasəti və institusional idarəçilik sistemi sürətlə inkişaf etməyə başlamışdır: 2007-ci ildə Dövlət Miqrasiya Xidmətinin (DMX) yaradılması və 2013-cü ildə Miqrasiya Məcəlləsinin qəbul edilməsi bu inkişafın inqilabi mərhələləri kimi qeyd olunmalıdır.

Hal-hazırda Azərbaycanda mövcud olan miqrasiya siyasətinə və institusional idarəçiliyə aid üç əsas məsələ, habelə bununla bağlı miqrasiya siyasəti hazırlayanların iş gündəliyində vacib yer tutan mümkün təkmilləşdirmə işləri bu fəsildə nəzərdən keçirilir. Həmin təkmilləşdirmə işləri bunları nəzərdə tutur: 1) miqrasiya idarəçiliyinin təkmilləşdirilməsi üçün institusional sistemin gücləndirilməsi, 2) siyasət çərçivəsinə aid strategiyalar və fəaliyyət planları kimi sənədlərin təkmilləşdirilməsi və 3) sektor yönümlü siyasətlərin, məsələn viza, əmək miqrasiyası, məlumat idarəetmə sistemləri, qayıdış və reinteqrasiya siyasətlərinin və digər əlaqədar sahələr üzrə siyasətlərin inkişaf etdirilməsi və gücləndirilməsi. Bu fəslin məqsədi mövcud siyasət istiqamətlərini və perspektivlərini izah etmək üçün miqrasiya idarəçiliyi və siyasət sahələrini nəzərdən keçirməkdən ibarətdir. Qeyd olunmuş siyasətlərə aid konkret normativ hüquqi aktlara və ya inzibati aspektlərə isə, növbəti fəsillərdə bu və ya digər dərəcədə baxılır.

## 3.1 Miqrasiya idarəçiliyi

DMX Azərbaycan Respublikasında miqrasiya proseslərinin idarə olunmasına məsuliyyət daşıyan əsas dövlət orqanıdır. Bu Xidmət miqrasiya idarəetmə prosesləri üzrə nəzarəti gücləndirmək, qanunsuz miqrasiyanın qarşısının alınması istiqamətində tədbirlər görmək, miqrasiya proseslərini təhlil etmək, tənzimləmək və bu proseslərə dair proqnozlar vermək, habelə bu proseslərdən ölkənin siyasi və iqtisadi maraqları üçün istifadə etmək məqsədilə yaradılıb.

Azərbaycanda miqrasiya idarəçiliyi sahəsində fəaliyyət göstərən müxtəlif dövlət orqanlarının rolu aşağıda qısa şəkildə təsvir olunur:

- **Azərbaycan Respublikasının Prezidenti** miqrasiya siyasətinin formalaşdırılmasında əsas rola malikdir (o, bu sahədə qanunvericilik təşəbbüsləri ilə çıxış edir, qanunları imzalamaqla təsdiqləyir, veto hüququna malikdir, xarici işlərin həyata keçirilməsi üçün göstərişlər verir). Ölkə Konstitusiyasında nəzərdə tutulduğu kimi dövlət başçısı Azərbaycan Respublikasında vətəndaşlığın və siyasi sığınacağın verilməsinə dair qərarların qəbul edilməsində müstəsna səlahiyyətlərə malikdir.

- **Dövlət Miqrasiya Xidməti** miqrasiya siyasəti sahəsində nəzarəti həyata keçirən və əlaqələndirən əsas dövlət orqanı kimi miqrasiya məlumat bazasının - VMMS-nin fəaliyyətini təmin edir (aşağıda verilən Bölmə 3.3.3-ə baxın), əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti və daimi yaşamaq üçün icazələr və müvafiq vəsiqələr verir, Azərbaycan Respublikasına gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədə müvəqqəti olma müddətini uzadır, iş icazələri verir, qaçqın statusunu müəyyənləşdirir və Azərbaycan Respublikası vətəndaşlığının əldə olunması ilə əlaqədar prosedurları tətbiq edir və readmissiya məsələləri ilə məşğul olur. Bu məqsədlər üçün DMX, Dövlət Təhlükəsizliyi Xidməti, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Daxili İşlər Nazirliyi, Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Xarici İşlər Nazirliyi və Xarici Kəşfiyyat Xidməti ilə yaxından əməkdaşlıq edir.

- **Xarici İşlər Nazirliyi (XİN)** viza siyasətinin həyata keçirilməsinə, o cümlədən giriş vizalarının verilməsinə, xüsusi kateqoriyalara aid şəxslərin (diplomatik nümayəndəliklərin, konsulluqların və

beynəlxalq təşkilatların əməkdaşlarının və onların ailə üzvlərinin Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş diplomatik və ya xüsusi məqsədlər üçün Azərbaycan Respublikasına gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin) Azərbaycan Respublikası ərazisində müvəqqəti qalma müddətinin uzadılmasına, xaricdə yaşayan Azərbaycan Respublikası vətəndaşları üçün konsulluq xidmətlərinin göstərilməsinə, xarici ölkələrdə daimi və ya müvəqqəti yaşayan Azərbaycan Respublikası vətəndaşlarının qeydiyyatının aparılmasına, habelə miqrasiya sahəsində beynəlxalq təşkilatlarla və tərəfdaş ölkələrlə əməkdaşlığın təşviq və inkişaf etdirilməsinə məsuliyyət daşıyır (XİN, 2016a).

- **Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN)** milli əmək bazarının idarə olunmasına məsuliyyət daşıyan əsas hökumət təşkilatıdır. Nazirliyin Məşğulluq Siyasəti və Demoqrafiya Şöbəsi konkret olaraq əmək miqrasiyası məsələləri ilə, Nazirlik nəzdində fəaliyyət göstərən Dövlət Məşğulluq Xidməti isə immiqrantların peşə inteqrasiyası üçün müvafiq şəraitin yaradılması ilə məşğul olurlar. ƏƏSMN əmək miqrasiyası sahəsində ikitərəfli beynəlxalq sazişlərin bağlanması üçün əsas əlaqəli hökumət təşkilatı kimi çıxış edir. Eyni zamanda, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri əcnəbilərin hər təqvim ili üzrə əmək kvotasına aid təklifləri təsdiq etmək üçün Nazirlər Kabinetinə təqdim edən **Əcnəbilər üçün əmək kvotasının müəyyən edilməsi üzrə Komissiyaya** sədrlik edir.

- **Daxili İşlər Nazirliyi (DİN)** vətəndaşlığı olmayan şəxslərə müvafiq qeydiyyat vəsiqələrinin və vətəndaşlığın DMX ilə birgə verilməsi məsələlərinə, habelə digər vəzifələrlə yanaşı mütəşəkkil cinayətkarlığa və insan alverinə qarşı tədbirlərin həyata keçirilməsinə məsuliyyət daşıyır. 2007-ci ildə DMX yaradıldıqdan və 2009-cu ildə “bir pəncərə” prinsipi tətbiq edildikdən sonra, 2013-cü ildə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin qeydiyyata alınması səlahiyyəti bu Xidmətə verilmişdir. Hal-hazırda qanuni miqrasiya və əmək miqrasiyası məsələləri ilə məşğul olan əsas dövlət təşkilatı DMX-dır. Bununla belə, DİN “Giriş-çıxış və qeydiyyat” İdarələrarası Avtomatlaşdırılmış Məlumat Axtarış Sisteminə (İAMAS) rəhbərlik etməkdən ibarət vacib bir funksiyanı yerinə yetirir. Fəaliyyəti bu Nazirlik tərəfindən təmin olunan sistemi əlaqədar nazirliklərin və dövlət orqanlarının əməkdaşlarından ibarət birgə Komissiya idarə edir.

- **Dövlət Sərhəd Xidməti** sərhəd nəzarətinin həyata keçirilməsinə məsuliyyət daşıyan əsas dövlət orqanıdır. Bu Xidmət əcnəbilərin sərhəd-buraxılış məntəqələrində qeydiyyatını aparır, qanunsuz miqrasiyaya qarşı tədbirlər görür və əcnəbilərin ölkəyə buraxılması üçün tələb olunan sənədləri yoxlayır (Miqrasiya Siyasəti Mərkəzi, 2013). Qüvvədə olan qanunvericiliyə əsasən Dövlət Sərhəd Xidmətinin əsas vəzifələri dövlət sərhədinin mühafizəsini və toxunulmazlığını təmin etməkdən, beynəlxalq terrorçuluğun qarşısını almaqdan, qanunsuz miqrasiyaya, narkotik maddələrin qanunsuz dövriyyəsinə, silah-sürsat qaçaqmalçılığına qarşı mübarizə aparmaqdan, kütləvi qırğın silahlarının və əlaqədar komponentlərin yayılmasına qarşı tədbirlər görməkdən, karbohidrogen ehtiyatlarının, habelə neft və qaz infrastrukturunun mühafizəsini təmin etməkdən ibarətdir (Azərbaycan Respublikası Dövlət Sərhət Xidməti, 2017).

- **Diasporla İş üzrə Dövlət Komitəsi** Azərbaycan diaspor təşkilatlarının fəaliyyətini dəstəkləyir və əlaqələndirir. Komitənin əsas vəzifələri xaricdə yaşayan azərbaycanlılar haqqında məlumatları toplamaqdan və təhlil etməkdən, Azərbaycanda və xaricdə diaspor üzvlərinin iştirakı ilə tədbirlər təşkil etməkdən və diaspor üzvlərini diaspor təşkilatları vasitəsilə dəstəkləməkdən ibarətdir (Bölmə 7.4-ə baxın).

Azərbaycanda miqrasiya proseslərini asanlaşdırmaq və qanunsuz miqrasiyanın qarşısını almaq məqsədilə biometrik ölçülərin tətbiq edilməsi istiqamətində vacib addımlar atılmışdır. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 13 fevral tarixli, 1963 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında biometrik eyniləşdirmə sisteminin yaradılması üzrə” Dövlət Proqramı aidiyyəti dövlət orqanlarının nümayəndələrindən təşkil olunmuş İşçi Qrup tərəfindən işlənib hazırlanmışdır (XİN, 2016a).

Bununla əlaqədar olaraq "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Qanuna edilmiş və 2014-cü il yanvarın 1-də qüvvəyə minmiş düzəlişlər şəxsi məlumatları özündə əks etdirən elektron daşıyıcının yeni şəxsiyyəti təsdiq edən sənədlərə əlavə edilməsini nəzərdə tutur.

2015-ci ildə DMX yanında vətəndaş cəmiyyəti təşkilatlarının (VCT) nümayəndələrindən təşkil olunmuş İctimai Şura yaradılmışdır. 2017-ci il iyununda isə, İctimai Şuraya yeni seçki keçirilmiş və Şura yeddi VCT ("Həyat" Beynəlxalq Humanitar Təşkilatının, Turizmə və Milli Mətbəxin İnkişafına dəstək İctimai Birlyinin, Təkamül və İnteqrasiya Beynəlxalq İctimai Birliyinin, Regional Gender Mərkəzi İctimai Birliyinin, Azərbaycan Uşaq və Gənclərin Sülh Şəbəkəsi Liderlik Məktəbinin, Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası qeyri-hökumət təşkilatının İcraiyyə Komitəsinin, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin) nümayəndələrindən ibarət tərkibdə fəaliyyətə başlamışdır (DMX, 2018a). İctimai Şuranın əsas məqsədi DMX-nın fəaliyyətində ictimai iştirakı təmin etməkdən və bu fəaliyyətin şəffaflığını artırmaqdan ibarətdir. 2015-ci ilin noyabr ayında sözügedən Şura Azərbaycanda miqrasiya idarəçiliyinin təkmilləşdirilməsi məqsədilə DMX-ya 27 tovsiyədən ibarət siyahı təqdim etmişdir və bu tövsiyələrdən 22-i Xidmət tərəfindən nəzərə alınmışdır (DMX, 2016b).

Miqrantlar üçün daha səmərəli və şəffaf xidmətlərin göstərilməsi məqsədilə DMX tərəfindən Azərbaycan Respublikası ərazisində müvəqqəti və daimi yaşama icazələrinin, iş icazələrinin verilməsi, şəxsin Azərbaycan Respublikası vətəndaşlığına mənsubiyyətinin müəyyənləşdirilməsi və s. kimi bir neçə xidmət növü son vaxtlar "ASAN Xidmət" ("bir pəncərə") mərkəzlərində də təqdim olunur.

## 3.2 Siyasət çərçivələri və qanunvericilik aktları

Azərbaycanda Miqrasiya Məcəlləsinin 2013-cü ildə qəbul edilməsindən əvvəl miqrasiya proseslərinin müxtəlif aspektlərini tənzimləyən 20-dək qanunvericilik aktı mövcud idi, məsələn: "İmmiqrasiya haqqında" Qanun, "Əmək miqrasiyası haqqında" Qanun və s. Sonradan həmin qanunvericilik aktları Miqrasiya Məcəlləsinə bu və ya digər dərəcədə əlavə edilmişdir. Eyni zamanda, 2004-cü ildə qəbul edilmiş "Azərbaycan Respublikasının Dövlət Miqrasiya İdarəetmə Siyasəti Konsepsiyası", habelə Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramı (2006-2008-ci illər) Azərbaycanda miqrasiya qanunvericiliyinin Məcəllə formasında tərtib edilməsinə zəmin yaratmışdır.

Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi Azərbaycan Respublikasında miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, miqrasiya proseslərinin və bu sahədə yaranan münasibətlərin tənzimlənməsi, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin bu ölkədə hüquqi vəziyyəti ilə bağlı normaları müəyyənləşdirir. 6 bölməni təşkil edən 15 fəsildə verilmiş 95 maddədən ibarət müfəssəl qanunvericilik aktı hesab olunan Miqrasiya Məcəlləsi əsas miqrasiya anlayışlarını müəyyən edərək bu kimi məsələləri tənzimləyir:

- Azərbaycan Respublikası vətəndaşlarının ölkədən getməsi və ölkəyə gəlməsi;
- Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına gəlməsi və Azərbaycan Respublikasından getməsi;
- Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olması, onlara müvəqqəti və daimi yaşamaq üçün icazələrin verilməsi, onların qeydiyyata alınması;
- Miqrasiya prosesi iştirakçılarının hüquq və vəzifələri;
- Əmək miqrasiyası;
- Miqrasiyaya dövlət nəzarəti və qanunsuz miqrasiyanın qarşısının alınması.

Miqrasiya Məcəlləsi nisbətən yaxın keçmişdə qəbul olunsa da, bu sənədə artıq bir sıra dəyişikliklər edilib, məsələn, 2014-cü ildə "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin qanunsuz miqrantların saxlanılması mərkəzlərində yerləşdirilməsi və saxlanılması qaydası" adlı yeni fəsil əlavə olunub. Belə bir vacib fəsil əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin qanunsuz miqrantların saxlanılması mərkəzlərində yerləşdirilməsi üçün əsasları və müddətləri, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin mərkəzdə yerləşdirilməsi prosedurunu, mərkəzdə yerləşdirilən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və vəzifələrini, mərkəzdə fiziki qüvvənin və xüsusi vasitələrin tətbiqini və s. məsələləri əhatə edir. Hal-hazırda bu cür mərkəzlər ölkənin Bakı, Yevlax və Naxçıvan şəhərlərində fəaliyyət göstərir.

Miqrasiya məsələləri “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında (Azərbaycan Respublikası Hökuməti, 2012) və Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində (İnsan hüquqlarına dair) Milli Fəaliyyət Proqramında da (Azərbaycan Respublikası Hökuməti, 2011) nəzərdən keçirilir.

“Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında əmək miqrasiyası proseslərinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi istiqamətində beynəlxalq əməkdaşlığın davam etdiriləcəyi vurğulanır. Eyni zamanda, “başqa ölkələrdən gələn qaçqınların sosial təminatlardan yararlanmasını tənzimləyən işlək mexanizmin yaradılması, xaricdən işçi qüvvəsinin ölkəyə qanunsuz axınının qarşısının alınması, xarici ölkələrdə çalışan Azərbaycan Respublikası vətəndaşlarının sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı müvafiq işlər görüləcəkdir” (səh. 26).

2011-ci ildə qəbul olunmuş “İnsan hüquqlarına dair” Milli Fəaliyyət Proqramında bu kimi məsələlər öz əksini tapıb:

- Xarici ölkələrdə Azərbaycan Respublikası vətəndaşlarının hüquqi vəziyyətini yaxşılaşdıran və onların hüquqlarının müdafiəsini tənzimləyən müqavilə-hüquq bazasının genişləndirilməsi üzrə tədbirlərin həyata keçirilməsi;

- Saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərdə şəraitin və rejimin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində tədbirlərin davam etdirilməsi;

- YUNESKO-nun «Təhsil hamı üçün» prinsipinin təbliği, insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsi məqsədilə əhalinin müxtəlif qrupları (qadınlar, uşaqlar, gənclər, əlillər, ahıllar, qaçqın və məcburi köçkünlər, məhkumlar, hərbi qulluqçular, narkomaniyaya və HİV/AİDS-ə yoluxmuş insanlar) üçün hüquqi maarifləndirmə sahəsində təlimçilərin hazırlanması;

- Birləşmiş Millətlər Təşkilatının ixtisaslaşmış təsisatları və beynəlxalq regional təşkilatlar ilə birgə layihələrin hazırlanması və həyata keçirilməsi.

Bütün bunlarla yanaşı, bir neçə qanunvericilik aktı və siyasət sənədi könkret olaraq xaricdə yaşayan azərbaycanlılarla bağlı məsələləri əhatə edir. Bu cür sənədlər sırasına Azərbaycan Respublikasının “Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında” 2002-ci il tarixli Qanununu və Azərbaycan Respublikası Prezidentinin “Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında” 2002-ci il tarixli Sərəncamını aid etmək olar. Qeyd etmək yerinə düşər ki, 2008-ci ildən etibarən bu Komitə Diasporla İş üzrə Dövlət Komitəsi adlanır.

### 3.2.1 Beynəlxalq qanunvericilik

Azərbaycan Respublikasının “Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının qorunması haqqında” Beynəlxalq Konvensiyaya qoşulması faktı da mövcud miqrasiya siyasətinə aid çərçivə sənədlərinə müsbət təsir göstərmişdir. Eyni zamanda, Azərbaycan Respublikası insan alverinə və miqrantların sərhəddən qanunsuz keçirilməsinə qarşı Palermo Protokollarını da imzalamışdır.

Bundan başqa, Azərbaycan Respublikası ilə Gürcüstan, Ukrayna, İtaliya, Rusiya, Moldova, Belarus, Türkiyə və Qazaxıstan arasında miqrantların sosial təminatı məsələlərinə dair ikitərəli sazişlər imzalanıb. Bu sazişlər digər məsələlərlə yanaşı ölkələr arasında yerdəyişmələr edən dövri miqrantların sosial müdafiəsi və azərbaycanlı miqrantların miqrasiya etməzdən əvvəl əldə etdikləri iş stajının tanınması məsələlərini əhatə edir (Allahverənov və Hüseynov, 2013; “Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında işçi qüvvəsinin qarşılıqlı əmək fəaliyyətinə dair” Saziş, 2014; “Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında əmək, sosial müdafiə və məşğulluq sahələrində əməkdaşlığa dair” Saziş, 2013).

Rusiyada işləyən azərbaycanlıların sayının çox olmasını nəzərə alaraq bu ölkənin hakimiyyət orqanları ilə tərəfdaşlıq sazişinin imzalanması ilə bağlı müzakirələr aparılır.

MSİBM tərəfindən yenicə hazırlanmış “Azərbaycan Respublikasında qanuni və əmək miqrasiyası mexanizmlərinin təhlili” adlı qiymətləndirmə hesabatında əmək miqrasiyasına dair qanunvericilik bazasına və siyasətə, o cümlədən əcnəbilər üçün əmək kvotasına aid təfərrüatlı məlumatlarla yaxından tanış olmaq mümkündür (MSİBM, 2016).

## 3.3 Sektorlar üzrə siyasətlər

### 3.3.1 Ölkə istiqamətində axınların və əcnəbilərin yerdəyişmə proseslərinin idarə olunması

Xarici ölkə vətəndaşı etibarlı pasporta, müvafiq icazə-vizaya və ya ölkə ərazisində yaşamaq üçün müvafiq icazəyə malik olduqda və sərhəd nəzarətini həyata keçirən dövlət orqanının icazəsi əsasında Azərbaycan Respublikasına gələ bilər, əgər Azərbaycan Respublikasının qanunları və tərəfdar çıxdığı müqavilələri ilə başqa qayda nəzərdə tutulmayıbsa.

Azərbaycan Respublikası ilə vizasız gediş-gəliş haqqında müqaviləsi olan dövlətlərin (hal-hazırda doqquz post-sovet respublikasının) vətəndaşları Azərbaycan Respublikası ərazisində il ərzində 90 günədək (Türkiyə vətəndaşları – 1 ay, İran vətəndaşları – 15 gün) vizasız qala bilərlər, əgər Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri ilə başqa hal nəzərdə tutulmayıbsa (XİN, 2016b).

Azərbaycan Respublikasında 10 gündən artıq müvəqqəti olan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər olduğu yer üzrə qeydiyyata alınmalıdırlar. Azərbaycan Respublikasına viza əsasında gələnlər vizada göstərilən qalma müddətinə, viza tələb olunmayan qaydada gələnlər 90 gün müddətinə olduğu yer üzrə qeydiyyata alınırlar (DMX, 2018a).

Azərbaycan Respublikasına gəlmək üçün vizalar bu ölkənin diplomatik nümayəndəlikləri və konsulluqları tərəfindən verilir. Qətər, Oman, Səudiyyə Ərəbistanı, Bəhreyn, Küveyt, Yaponiya, İndoneziya, Çin, Cənubi Koreya, Malayziya, Sinqapur, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, İsrail və (yalnız birbaşa Nyu York-Bakı təyyarə reysindən istifadə etmiş) ABŞ vətəndaşları gəldikləri Azərbaycan Respublikasının bütün beynəlxalq statuslu hava limanlarında viza üçün müraciət edə bilərlər (XİN, 2017; DMX, 2018). Azərbaycan Respublikasına gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə aşağıda qeyd olunmuş növlərdə vizalar verilir (Miqrasiya Məcəlləsi 2013; XİN, 2016c):

a) Adi kateqoriyalı giriş vizası şəxsi səfər, turizm, mədəniyyət və idman tədbirlərində iştirak, təhsil, işgüzar, elm, məşğulluq, müalicə və ya başqa humanitar məqsədlərlə verilir. Giriş vizasının etibarlılıq müddəti birdəfəlik giriş-çıxış üçün 90 günədək, çoxdəfəli giriş-çıxış üçün isə 2 ilədək müəyyən olunur;

b) Diplomatik və xidməti kateqoriyalı giriş vizaları rəsmi səfər məqsədilə Azərbaycan Respublikasına gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilir.

c) Tranzit vizası üçüncü ölkələrə getmək məqsədilə Azərbaycan Respublikasının ərazisindən keçmək üçün verilir.

Azərbaycan Respublikasında yaşamaq niyyəti olan xarici investorlara, daşınmaz əmlak sahiblərinə, yüksək ixtisaslı mütəxəssislərə, əməkçi miqrantlara, əyani təhsil alan tələbələrə, Azərbaycan Respublikası vətəndaşlarının yaxın qohumlarına, Azərbaycan Respublikasında yaşamaq icazəsi olan miqrantların ailə üzvlərinə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə 1 (investorlar üçün 3) ildən artıq olmayan müddətə verilir və hər dəfə 2 (investorlar üçün 3) ildən çox olmayan müddətə uzadıla bilər (Miqrasiya Məcəlləsinin 49-cu maddəsi).

Azərbaycan Respublikasında ən azı 2 il müvəqqəti yaşamış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər bu ölkədə yaşamaq məqsədilə 5 il müddətinə verilən icazə üçün müraciət edə bilərlər. Bütün müvafiq sənədlər təqdim olunduğu halda daimi yaşamaq üçün verilmiş icazə yenidən 5 il müddətinə uzadıla bilər (Miqrasiya Məcəlləsinin 54-cü maddəsi).

Qüvvədə olan qanunvericiliyə əsasən əcnəbilərdən və vətəndaşlığı olmayan şəxslərdən Azərbaycan Respublikasına gəldikləri gündən etibarən on gün ərzində qeydiyyata düşmələri tələb olunur. Bu tələbə əməl etməyənlərə qarşı cərimə tətbiq edilə bilər və ya onlar Azərbaycan Respublikasına yenidən gəlişinə qadağa qoymaqla ölkə hüdudlarından kənara çıxarıla bilər.

### 3.3.2 Geri qaytarılma və readmissiya siyasətləri

Aİ ilə Azərbaycan Respublikası arasında imzalanmış Readmissiya Sazişi 2014-cü ilin sentyabr ayında qüvvəyə minib. DMX, bu Sazişin Azərbaycan Respublikası tərəfindən yerinə yetirilməsinə məsuliyyət daşıyan əsas dövlət orqanıdır. 2014-cü ildə Aİ-nin üzv dövlətlərindən 15 nəfərin readmissiyası ilə əlaqədar müraciətlər DMX-ya daxil olmuşdur ki, onlardan səkkiz şəxs barəsində müraciətlər təmin olunmuşdur və üç şəxsin readmissiya proseduru yerinə yetirilmişdir (DMX, 2017c). 2015-ci ildə DMX-ya barələrində readmissiya müraciətləri daxil olmuş şəxslərin (ümumilikdə 506 nəfər) və təmin olunmuş işlərin (301 iş) sayı həddindən artıq çox idi. Daxil olmuş müraciətlərin üçdə ikisi Almaniyadan readmissiyaları nəzərdə tutulan şəxslərlə əlaqədar idi. Bütün bunların nəticəsində 70 şəxsin readmissiya proseduru yerinə yetirilmişdir. 2016-cı ilə aid rəqəmlər təxminən eyni sayda müraciətlərin və şəxslərin olmasına (491), lakin yerinə yetirilmiş readmissiya prosedurlarının sayının artmasına işarə edir (123; Cədvəl 4-ə baxın). Əvvəlki ildə olduğu kimi readmissiya müraciətlərinin və readmissiya olunmuş şəxslərin əksəriyyəti Almaniyadan, habelə İsveç və Hollandiyadan idi.

**CƏDVƏL 4. 2016-cı ildə DMX tərəfindən qəbul edilmiş və baxılmış readmissiya müraciətlərinin nəticələri**

| Müraciət edən ölkə | Daxil olmuş müraciətlərin sayı | Təmin olunmuş müraciətlərin sayı | Rədd cavabı verilmiş müraciətlərin sayı | Baxılmaqda olan müraciətlərin sayı | Readmissiya edilmiş şəxslərin sayı |
|---|---|---|---|---|---|
| Almaniya | 360 | 173 | 180 | 7 | 72 |
| Hollandiya | 37 | 19 | 18 | 0 | 6 |
| İsveç | 34 | 29 | 5 | 0 | 22 |
| Avstriya | 25 | 10 | 15 | 0 | 7 |
| Belçika | 12 | 12 | 0 | 0 | 4 |
| Fransa | 11 | 3 | 8 | 0 | 3 |
| Norveç | 6 | 5 | 1 | 0 | 3 |
| Polşa | 5 | 5 | 0 | 0 | 1 |
| Litva | 1 | 1 | 0 | 0 | 1 |
| Finlyandiya | 0 | 0 | 0 | 0 | 0 |
| Latviya | 0 | 0 | 0 | 0 | 1 |
| Cəmi | 491 | 257 | 227 | 7 | 120 |

*Mənbə: DMX, 2017c.*

Hal-hazırda Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında ikitərəfli readmissiya sazişlərinin layihələri müzakirə olunur (DMX, 2015). Digər readmissiya sazişlərinin Moldova, Pakistan, Türkiyə, Ukrayna və Gürcüstanla bağlanması üçün danışıqlar aparılır (DMX, 2018a).

2013-cü il dekabrın 5-də "Azərbaycan Respublikası, Aİ və onun iştirakçı üzv dövlətləri arasında Yerdəyişmə üzrə Tərəfdaşlıq barədə" Birgə Bəyannamə Azərbaycanda əməkçi miqrantların sosial müdafiəsi və inteqrasiyası məsələlərinin, həmçinin geri qayıdan (qanuni) və qaytarılan (qeyri-qanuni) miqrantların ixtisasını artırmaqla, sahibkarlıqla məşğul olmaq imkanlarını inkişaf etdirməklə və həssas miqrant qruplarını dəstəkləməklə reinteqrasiyasının dəstəklənməsi tədbirlərinin əhəmiyyətini vurğulayır (13-cü paraqraf, Əlavələr II-IV).

Bununla belə, Azərbaycanda məcburi köçkünlərin ehtiyaclarını təmin edən proqramlar yerinə yetirilsə də (Fəsil 8-ə baxın), geri qaytarılan vətəndaşlar üçün dövlət yardım proqramları mövcud deyil. Buna baxmayaraq, Azərbaycana readmissiya edilmiş vətəndaşların cəmiyyətə səmərəli reinteqrasiyasının aidiyyəti dövlət qurumları ilə birgə operativ şəkildə həll edilməsi məqsədilə müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının nümayəndələrindən ibarət İşçi qrup yaradılmışdır (DMX, 2018a).

### 3.3.3 Məlumatların idarə olunması sistemləri

DMX-nın **Vahid Miqrasiya Məlumat Sistemi (VMMS)** Azərbaycan Respublikasında yaşayan və ya olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin qeydiyyata alınmasını, zəruri informasiyanın miqrasiya idarəçiliyi ilə məşğul olan müxtəlif dövlət orqanlarına ötürülməsini, sənədlərin, yoxlama nəticələrinin və reyestrlərin avtomatlaşdırılmış formada saxlanmasını təmin edir (DMX, 2014).

### 3.3.4 Maarifləndirmə

2015-ci ildə DMX yanında İctimai Şura Azərbaycan Respublikasından olan 94 nəfər sığınacaq axtaran şəxs və qaçqın üçün dil kursları təşkil etmişdir və təxminən 200 miqranta müxtəlif məsələlərlə bağlı məsləhətlər vermişdir. Bununla yanaşı, Mədəniyyət və Turizm Nazirliyi təxminən 60 mehmanxananın əməkdaşlarını əcnəbilərin Azərbaycanda qeydiyyata alınması məsələlərinə dair qanunvericiliklə tanış etmək üçün informasiya sessiyaları keçirmişdir.

Eyni zamanda, Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər onların hüquqlarına aid informasiya bukletləri ilə rus, ingilis, ərəb, fars, urdu dillərində və başqa dillərdə tanış olmaq imkanına malikdirlər. Bundan başqa, miqrantlara dil kursları ilə yanaşı müxtəlif mövzularda təlimlər və kurslar təklif edən təlim mərkəzi DMX nəzdində fəaliyyət göstərir. ASAN mərkəzləri də miqrasiya məsələləri ilə bağlı maarifləndirmə tədbirlərinin keçirilməsində vacib rol oynayırlar. Bu mərkəzlərdə miqrasiya məsələlərinə aid informasiya əldə edən əcnəbilərin və ölkə vətəndaşlarının sayı tədricən artmaqdadır.

Bu kontekstdə DMX mütəmadi olaraq KİV-in iştirakı ilə ali məktəblərdə, regionlarda ictimaiyyətlə çoxsaylı görüşlər, “Açıq qapı günü” tədbirləri keçirmiş, maarifləndirmə xarakterli hədəf qruplarına yönəlmiş layihələri reallaşdırmışdır.

# 4. AZƏRBAYCAN RESPUBLİKASI VƏ AVROPA İTTİFAQI

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Avropa İttifaqı ilə əməkdaşlığı “xarici siyasətin prioritetlərindən biri” hesab edir (XİN, 2016d). 1991-ci ildən etibarən müxtəlif humanitar və texniki layihələr, habelə ərzaq və fövqəladə hallarda yardım layihələri çərçivəsində Aİ tərəfindən Azərbaycan Respublikası üçün təxminən 333 milyon Avro maddi vəsait ayrılmışdır (XİN, 2016d). Məhz bu səbəbə görə Aİ-nin texniki yardım proqramları əsasında layihələrin həyata keçirilməsi ilə bağlı Milli Koordinator vəzifəsinə Azərbaycan Respublikasının İqtisadiyyat naziri təyin olunmuşdur.

1999-cu ildə qüvvəyə minmiş Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi (TƏS) hal-hazırda Azərbaycan Respublikası ilə Aİ arasında münasibətləri tənzimləyən əsas hüquqi çərçivə sənədi hesab olunur. Bununla yanaşı, 2003-cü ildən etibarən Aİ ilə Azərbaycan Respublikası Avropa Qonşuluq Siyasətinin (AQS) iştirakçılarıdır.

2006-cı ilin noyabr ayında Aİ ilə Azərbaycan Respublikası arasında Əməkdaşlıq Şurası bütün əsas islahatlar sahələri üzrə müfəssəl və iddialı çərçivələr nəzərdə tutan Aİ-Azərbaycan Birgə Fəaliyyət Planını qəbul etmişdir (Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyi, 2016).

Tərəfdaşlıq və Əməkdaşlıq Sazişində nəzərdə tutulduğu kimi Əməkdaşlıq Şurası əməkdaşlıq üçün əsas istiqamətləri müəyyən edir. İllik iclaslar keçirən Əməkdaşlıq Komitəsi tövsiyələr verməklə sözügedən Şuranın fəaliyyətinə kömək edir. Əməkdaşlıq Komitəsi nəzdində fəaliyyət göstərən Ticarət və İqtisadiyyat Məsələləri üzrə Alt-komitə TƏS çərçivəsində ticarət, investisiya və digər iqtisadi əməkdaşlıq məsələlərini müzakirə edir (Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyi, 2016).

2009-cu ilin may ayında Azərbaycan Respublikasının iştirakı ilə Şərq Tərəfdaşlığı (ŞT) adlı növbəti təşəbbüsə start verilmişdir. ŞT beynəlxalq hüquq prinsiplərinə və fundamental dəyərlərə - demokratiyaya, qanunun aliliyinə, insan hüquqları və əsas azadlıqlarına əsaslanan öhdəliklərdən irəli gəlir. Bu cür tərəfdaşlıq çərçivəsində bazar iqtisadiyyatı, davamlı inkişaf və səmərəli idarəçilik sahələrinin də dəstəklənməsi nəzərdə tutulur (Aİ Xarici Fəaliyyəti, 2016).

2009-cu ildən etibarən insan hüquqları, demokratikləşmə və qeyri-dövlət təşkilatları üçün büdcə xəttləri vasitəsilə nisbətən kiçik həcmli QHT layihələri də Aİ tərəfindən dəstəklənir.[2] Azərbaycanda miqrasiya siyasətinin inkişafına beynəlxalq dəstəyin bir hissəsi kimi hal-hazırda bu ölkədə yerinə yetirilən “Şərqi Avropada və Cənubi Qafqazda sığınacaq sistemlərinin keyfiyyətinin artırılmasına dair təşəbbüs” Layihəsi Avropa Komissiyası və BMT QAK tərəfindən birgə maliyyələşdirilir (BMT QAK, 2017a).

TƏS və 2006-cı il tarixli Fəaliyyət Planı ilə yanaşı, Azərbaycan Respublikası ilə Aİ arasında münasibətləri tənzimləyən iki hüquqi sənəd mövcuddur: 1) Azərbaycan Respublikası Hökuməti ilə Avropa Komissiyası arasında imzalanmış 2008-ci il tarixli Çərçivə Sazişi və 2) 2014-2017-ci illər üçün Vahid Strateji Çərçivə (hazırlanmaqdadır) (Şərq Tərəfdaşlığı Ölkələrinin Ərazi Əməkdaşlığı Proqramı/ŞƏƏP, 2014).

Aİ ilə bağlanmış ən son müqavilələr 2013-cü ildə imzalanmış “Yerdəyişmə üzrə Tərəfdaşlıq barədə” Birgə Bəyannamədən, habelə 2014-cü ildə imzalanmış Readmissiya Sazişindən (Aİ, 2014a) və 2013-cü ildə imzalanmış Viza Rejiminin Sadələşdirilməsi Sazişindən (Aİ, 2014b) ibarətdir. Böyük Britaniyaya, İrlandiyaya və Danimarkaya şamil edilməyən bu sazişlər 2014-cü ilin sentyabr ayında qüvvəyə minib.

Readmissiya Sazişi istər Azərbaycan Respublikasının, istərsə də Aİ-yə üzv olan əlaqədar dövlətin ərazisində qanunsuz yaşayan insanların nə vaxt və nə cür geri qaytarılması ilə bağlı tərəflərin müvafiq

[2] Aİ tərəfindən Azərbaycan Respublikasında maliyyələşdirilən layihələrin tam siyahısı ilə tanış olmaq üçün “http://eeas.europa.eu/delegations/azerbaijan/projects/list_of_projects/projects_en.htm” veb-səhifəsinə baxın.

hakimiyyət orqanları üçün nəzərdə tutulmuş öhdəlikləri və prosedurları birmənalı şəkildə müəyyən edir (Aİ, 2014). Bundan başqa, Aİ-yə üzv olmayan, lakin Şengenə daxil olan iki ölkə, 2014-cü ildə Norveçlə (Baş İmmiqrasiya İdarəsi ilə) və 2016-cı ildə İsveçrə ilə (XİN-lə) ikitrəfli readmissiya sazişləri bağlanmışdır. 2017-ci ilin aprel ayında isə Monteneqro Respublikası və Azərbaycan Respublikası arasında readmissiya sazişi imzalanmışdır (DMX, 2017i).

“Yerdəyişmə üzrə Tərəfdaşlıq barədə” Birgə Bəyannamə qanuni miqrasiya və əmək miqrasiyası proseslərini daha yaxşı idarə etmək, qanunsuz miqrasiyanın qarşısını almaq və bu cür miqrasiyaya qarşı mübarizə aparmaq, miqrantların beynəlxalq müdafiə məsələlərini təşviq etmək və miqrasiya ilə yerdəyişmə proseslərinin inkişafa müsbət təsirini optimallaşdırmaq niyyəti daşıyır[3] (Yerdəyişmə üzrə Tərəfdaşlıq, 2016).

Viza Rejiminin Sadələşdirilməsi Sazişi Şengen zonası ölkələrinə getmək üçün qısamüddətli vizanı Azərbaycan Respublikası vətəndaşları tərəfindən daha tez bir vaxtda və çox az məbləğdə dövlət rüsumu ödəməklə əldə etmək məqsədi daşıyır. Bundan başqa, tələbələr, jurnalistlər, vətəndaş cəmiyyəti nümayəndələri, mədəniyyət, incəsənət və ya idman tədbirlərində iştirak edəcək şəxslər dövlət rüsumu ödəmədən viza əldə etmək imkanına malikdirlər. Eyni zamanda, bu Saziş vətəndaşların böyük bir kateqoriyası üçün beşillik çoxgedişli vizanın verilməsi meyarlarını sadələşdirir (Avropa Komissiyası, 2013).

[3] Sənədin tam mətni ilə tanış olmaq üçün “https://ec.europa.eu/home-affairs/sites/homeaffairs/files/what-we-do/policies/international-affairs/global-approach-to-migration/specific-tools/docs/mobility_partnership_of_azerbaijan_en.pdf” veb-səhifəsinə baxın.

# 5. İMMİQRASİYA

Dövlət Statistika Komitəsi tərəfindən dərc edilmiş miqrasiya statistikasına əsasən son illər ərzində Azərbaycan istiqamətində immiqrasiya proseslərinin səviyyəsi azalmaqdadır. Emiqrasiya prosesləri ilə əlaqədar eyni tendensiya müşahidə edildiyindən 2008-ci ildən bu günədək xalis miqrasiya göstəricisi müsbətdir (Cədvəl 1-ə baxın). DMX və DİN tərəfindən təqdim olunmuş məlumatlara əsasən 2016-ci ildə 3.233 immiqrant Azərbaycanda daimi yaşamaq üçün bu ölkəyə gəlmişdir (aşağıda verilmiş Cədvəl 8-ə baxın). Həmin il 1.711 emiqrant xaricdə daimi yaşamaq üçün Azərbaycanı tərk etmişdir (AZSTAT, 2017c).

Miqrantların tərkibi və miqrasiya axınları əsasən regional xarakter daşımaqla yanaşı tarixi əlaqələr və mövcud imkanlar əsasında formalaşır. Azərbaycanda yerli əmək bazarını müdafiə etməklə əmək miqrasiyası proseslərinin idarə olunması məqsədilə əmək miqrasiya kvotası tətbiq edilir.

İlk növbədə immiqrantlardan ölkədə yaşamaq məqsədilə 1 ildən artıq olmayan müddətə verilən və müəyyən müddətə uzadılması mümkün olan icazə üçün müraciət etmələri tələb olunur. Azərbaycanda ən azı iki il müvəqqəti yaşadıqdan sonra daimi yaşamaq üçün icazə beş il müddətinə verilə bilər.

Ölkədə beş il qanuni yaşadıqdan sonra qanuni gəlir mənbəyinin və Azərbaycan Respublikasının dövlət dilini bilməsi haqqında sənədin olmasından asılı olaraq vətəndaşlıq üçün müraciət etmək mümkündür. Azərbaycan Respublikasında bir sıra hallar istisna olmaqla ikili vətəndaşlıq tanınmır ("Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" 1998-ci il tarixli Qanuna baxın).

## 5.1 İmmiqrantlar

2009-cu ildə keçirilmiş sonuncu siyahıyaalmanın mövcud məlumatlarına əsasən Azərbaycan Respublikasında yaşayan 250.000 nəfərdən çox insan xaricdə doğulub (Cədvəl 5-ə baxın). Keçmiş SSRİ respublikaları/müstəqil post-sovet ölkələri arasında irimiqyaslı əhali yerdəyişmələri dövrü hesab olunan 1980-ci illərin sonu, 90-cı illərin əvvəlində Azərbaycana köçmüş etnik azərbaycanlılar həmin insanların böyük bir hissəsini təşkil edirlər.[4]

**Ötən əsrin 80-ci illərinin sonunda, 90-cı illərinin əvvəlində Azərbaycan Respublikasına köçmüş etnik azərbaycanlılar 2015-ci ildə bu ölkədə yaşamış 250.000-dən çox (xarici mənşəli) miqrantın böyük bir hissəsini təşkil edirdilər. 2009-cu ildə keçirilmiş siyahıyaalmanın nəticələri yalnız 15.000 nəfər insanın və ya ölkə əhalisinin təxminən 0,2%-nin xarici vətəndaş olduğunu göstərir ki, bu da 2015-ci ildə istənilən Aİ ölkəsində qeydə alınmış rəqəmlərlə müqayisədə aşağı göstəricidir.**

Əhalinin sayına aid məlumatlarla əlaqədar olaraq BMTİSMD-nin Əhali Şöbəsi 2015-ci ildə beynəlxalq miqrantların tərkibi ilə bağlı təxmini hesablamalar aparmışdır ki, onların da bir hissəsi burada öz əksini tapıb (BMTİSMD, 2015b). 2009-cu ildə keçirilmiş siyahıyaalmadan sonra Azərbaycan Respublikasında yaşayan miqrantların sayı bir qədər artaraq 2015-ci ildə 264.000 nəfər təşkil etmişdir (Cədvəl 5-ə baxın). Bu cür ümumi artım aşağıda göstərilən bütün əsas qruplar üzrə rəqəmlərdə də müşahidə olunur. Burada yeganə müstəsna hal kimi Qazaxıstanı göstərmək olar, çünki 2009-2015-ci illərdə Qazaxıstanla Azərbaycan arasında xalis miqrasiya göstəricisi mənfi idi (AZSTAT, 2016b).

[4] O zaman istər milli səviyyədə, istərsə də BMT səviyyəsində toplanmış məlumatlarda ölkəyə gələn immiqrantların illər üzrə bölgüsü aparılmadığından bu cür yerdəyişmələrin dəqiq tarixini izləmək mümkün deyil.

Yuxarıda qeyd olunan insanların böyük bir hissəsi Ermənistanda doğulmuşlar kateqoriyasına aid edilsə də (2015-ci il üçün təxminən 149.000 nəfər), bu miqrantların əksəriyyəti 1993-cü ildə və bu tarixdən əvvəl Ermənistandan qovularaq Azərbaycana pənah gətirmiş azərbaycanlılardır. Ümumilikdə götürəndə, bu qrupa aid insanların vətəndaşlıq mənsubiyyəti ilə bağlı məlumatlar mövcud olmasa da, sözügedən azərbaycanlıların artıq Azərbaycan Respublikası vətəndaşı olduğunu qeyd etmək olar.

Gürcüstanda və Rusiyada doğulmuş müvafiq olaraq təxminən 51.000 və 29.000 miqrantın böyük əksəriyyətinin artıq Azərbaycan Respublikası vətəndaşlığını əldə etdiyini hesab etmək olar (bu ehtimal 2009-cu ildə keçirilmiş siyahıyaalmanın məlumatları ilə müqayisədən irəli gəlir)

Bu qrupa aid digər immiqrantlar Özbəkistanda (17.000 nəfər), Qazaxıstanda (3.600 nəfər) və Ukraynada (2.800 nəfər) anadan olsalar da, onların arasında Azərbaycan Respublikası vətəndaşları çoxluq təşkil edir. Bu cür immiqrantların az bir hissəsi Qırğızıstanda (2.600 nəfər) və Türkiyədə (2.100 nəfər), Türkmənistanda (1.700 nəfər) və İranda (1.500 nəfər) doğulub və onların çoxu doğulduqları ölkələrin vətəndaşıdır.

Sözügedən immiqrantlar arasında bir qədər üstünlük təşkil edən qadınların (52%; Cədvəl 5-ə baxın) doğulmuş ölkələrdən asılı olaraq nisbəti əhəmiyyətli dərəcədə dəyişir. Bu göstərici Ukraynada (73%), Rusiyada (67%) və Türkmənistanda (56%) doğulmuş immiqrantlar arasında nisbətən yüksəkdir, İranda (37%) və Türkiyədə (26%) doğulmuş immiqrantlar arasında isə bir qədər aşağıdır.

**CƏDVƏL 5. 2015-ci ildə Azərbaycan Respublikasında yaşayan beynəlxalq miqrantların doğulduqları 10 əsas ölkə üzrə sayı (xaricdə doğulanlar - xd, qaçqınlar - q və xarici vətəndaşlar - xv)**

| Doğulduğu ölkə/ Vətəndaşı olduğu ölkə | Təxmini hesablamalar (2015, xd + q) | Siyahıyaalmanın məlumatları (2009, xd) | Siyahıyaalmanın məlumatları (2009, xv) | Qadınların % nisbəti (2015, xd) |
|---|---|---|---|---|
| Ermənistan | 148.503 | 143.726 | - | 49,2% |
| Gürcüstan | 51.141 | 49.496 | 4.088 | 51,6% |
| Rusiya | 28.760 | 27.835 | 3.417 | 67,3% |
| Özbəkistan | 17.030 | 16.482 | 420 | 51,7% |
| Qazaxıstan | 3.621 | 3.505 | 138 | 58,2% |
| Ukrayna | 2.817 | 2.726 | 252 | 72,9% |
| Qırğızıstan | 2.556 | 2.474 | - | 51,5% |
| Türkiyə | 2.121 | 2.053 | 1.484 | 25,6% |
| Türkmənistan | 1.724 | 1.669 | 117 | 55,9% |
| İran | 1.530 | 1.481 | 518 | 36,6% |
| Digər ölkələr | 4.438 | 3.546 | 4.388 | 54,7% |
| Cəmi | 264.241 | 254.993 | 14.822 | 52,1% |

“-“ = məlumat mövcud deyil.

*Mənbə: BMTİSMD, 2015b, 2017; Miqrasiya Siyasəti Mərkəzi, 2013.*

Ümumilikdə götürəndə, (xaricdə doğulmuş kimi müəyyən edilmiş) Azərbaycan Respublikasında yaşayan miqrantlarla (255.000 nəfər) 2009-cu ildə keçirilmiş siyahıyaalma nəticəsində müəyyən edilmiş xarici vətəndaşların (15.000 nəfər) sayı arasında bu cür nəzərəçarpan fərqin mövcud olmasını birincilərin çoxunun etnik azərbaycanlı olması ilə və 1998-ci ildə naturalizasiya edilməsi ilə izah etmək olar. Bir çox kontekstdə həmin etnik azərbaycanlılar miqrant hesab olunmur. Bununla belə, 2009-cu ildə ölkə əhalisinin 0,2%-dən də az bir hissəsini xarici vətəndaşlar təşkil edirdi və bu 2015-ci ildə istənilən Aİ ölkəsində qeydə alınmış müvafiq rəqəmlərlə müqayisədə aşağı göstəricidir (AVROSTAT, 2017a).

Təxmini hesablamalardan irəli gələn rəqəmləri 2009-cu ildə keçirilmiş siyahıyaalmanın etnik qruplara aid empirik məlumatları ilə müqayisə etdikdə yaranan başqa bir əhəmiyyətli fərqin nəzərə alınması vacibdir. Yuxarıdakı Cədvəl 3-də göstərilmiş 120.000 etnik erməninin böyük bir hissəsi Dağlıq Qarabağ əhalisidir ki (DMX, 2017a), onların da xarici vətəndaş olması və ya xaricdə doğulması az ehtimal olunandır, çünki onlar artıq bir neçə nəsil bu bölgədə yaşadığından bölgənin tarixi əhalisi hesab edilə bilər.

Bununla belə, Ermənistanda doğularaq Azərbaycana miqrasiya etmiş və sonradan naturalizasiya edilmiş 149.000 nəfəri etnik azərbaycanlılardan ibarət başqa bir böyüksaylı müstəqil qrup hesab etmək olar (aşağıda verilmiş Bölmə 5.2-yə baxın). Bütün bu təfsirlər ilkin xarakter daşıdığından siyahıyaalma nəticəsində əldə olunmuş məlumatlar təfərrüatlı, çoxşaxəli və regionlar üzrə təhlil əsasında daha da inkişaf etdirilməlidir.

## 5.2 Vətəndaşlığın əldə edilməsi

Azərbaycan Respublikasının vətəndaşlığına aid məsələlər ölkə Konstitusiyasında ümumi şəkildə təsbit edilərək "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Qanunda təfərrüatı ilə nəzərdə tutulub. Sözügedən qanuna əsasən Azərbaycan Respublikasının vətəndaşlığı bu ölkənin ərazisində və ya vətəndaşından doğulmuş və yaxud vətəndaşlığına qəbul edilmiş/naturalizasiya edilmiş şəxs tərəfindən əldə oluna bilər (11-ci maddə). Qeyd etmək lazımdır ki, 2014-cü ilin may ayında Azərbaycan Respublikasının qanunvericiliyində ikili vətəndaşlıq hallarını məhdudlaşdıran müddəalar öz əksini tapmışdır. Həmin dəyişikliyə əsasən xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikasının vətəndaşı bir ay müddətində bu barədə XİN-ə və ya DMX-ya məlumat verməlidir (əgər xarici dövlətin vətəndaşlığı bu dəyişiklik qüvvəyə minməzdən əvvəl qəbul edilməmişdirsə) və adətən bu, Azərbaycan Respublikası vətəndaşlığının itirilməsi ilə nəticələnir. Belə məlumatı verməyən şəxslər Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

Qanunun 14-cü maddəsinə əsasən Azərbaycan Respublikasının ərazisində son 5 il ərzində fasiləsiz olaraq qanuni əsaslarla daimi yaşayan, qanuni gəlir mənbəyi olan, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına riayət olunması barədə öhdəlik götürən, habelə Azərbaycan Respublikasının dövlət dilini bilməsi haqqında sənəd təqdim edən əcnəbi və vətəndaşlığı olmayan şəxs […] Azərbaycan Respublikasının vətəndaşlığına qəbul edilə bilər." Naturalizasiya üçün vəsatət elektron müraciət formasında da təqdim edilə bilər (DMX, 2017b).

Azərbaycan Respublikasının vətəndaşlığı verildiyi zaman "jus sanguinis" (qan qohumluğu) prinsipindən istifadə olunur və bu o deməkdir ki, Azərbaycan Respublikasının ərazisində doğulmuş və hər iki valideyni əcnəbi olan uşaq Azərbaycan Respublikasının vətəndaşı hesab edilmir və yalnız sonradan naturalizasiya edilməklə Azərbaycan Respublikasının vətəndaşı ola bilər (Qanunun 12-ci maddəsi). Valideynlərindən biri Azərbaycan Respublikası vətəndaşı olan uşağa Azərbaycan Respublikası vətəndaşlığı verilir (Qanunun 11 və 12-ci maddələri). Valideynlərin vətəndaşlığı dəyişdikdə və bunun nəticəsində hər ikisi Azərbaycan Respublikasının vətəndaşlığını əldə etdikdə, onların 14 yaşına çatmamış uşaqları da Azərbaycan Respublikasının vətəndaşlığını əldə etmiş olurlar (Qanunun 19-cu maddəsi). Valideynlərdən biri Azərbaycan Respublikasının vətəndaşlığını əldə etmiş şəxsdirsə, digəri isə əcnəbidirsə, uşaq Azərbaycan Respublikasının vətəndaşlığını əldə etmiş valideynin vəsatəti və əcnəbi valideynin razılığı ilə Azərbaycan Respublikasının vətəndaşlığını əldə edə bilər (21-ci maddə). 14 yaşından 18 yaşınadək uşaqların vətəndaşlığı yalnız onların razılığı ilə dəyişə bilər (25-ci maddə). Azərbaycan Respublikasının ərazisində doğulmuş və hər iki valideyni vətəndaşlığı olmayan şəxs olan uşaq Azərbaycan Respublikasının vətəndaşıdır (12-ci maddə).

1996-cı ildən etibarən Azərbaycan Respublikası vətəndaşlıq və miqrasiya məsələlərini tənzimləyən bir neçə beynəlxalq hüquqi sənədə qoşulub, o cümlədən:

- "Ərdə olan qadının vətəndaşlığı haqqında" 1957-ci il tarixli Konvensiyaya;
- "Vətəndaşlığı olmayan şəxsin statusuna dair" 1954-cü il tarixli Konvensiyaya; və
- "Vətəndaşsızlıq hallarının azaldılması haqqında" 1961-ci il tarixli Konvensiyaya.

Son illər ərzində naturalizasiya Azərbaycanda geniş şəkildə tətbiq olunmurdu. 2016-cı ildə yalnız 192 naturalizasiya halı qeydə alınmışdır ki, hər on haldan altısı Azərbaycan Respublikasının vətəndaşlığına qəbul edilmiş vətəndaşlığı olmayan şəxslərlə əlaqədar idi (Cədvəl 6-ya baxın). Əvvəlki illərdə də ölkədə naturalizasiya edilmiş şəxslərin yarısından çoxunu, 85%-dək bir hissəsini vətəndaşlığı olmayan şəxslər təşkil edirdi. 2007-2016-cı illərdə ümumilikdə 1.118 nəfər vətəndaşlığı olmayan şəxs və 181 nəfər əvvəllər Rusiya vətəndaşı olmuş şəxs naturalizasiya edilmişdir. Başqa ölkələrin (məsələn, Gürcüstanın və Türkmənistanın) naturalizasiya edilmiş keçmiş vətəndaşlarından ibarət qruplar çox azsaylıdır və hər il bu cür ölkələrin 10 nəfərdən az vətəndaşının naturalizasiyası halı qeydə alınmaqdadır.

Naturalizasiya məqsədilə təqdim olunmuş vəsatətlərə rədd cavabının verilməsi ilə bağlı statistik məlumatlar mövcud deyil.

**CƏDVƏL 6. 2007-2016-cı illərdə Azərbaycan Respublikasında naturalizasiya edilmiş şəxslərin əvvəllər vətəndaşı olduğu on əsas ölkə üzrə sayı**

| Keçmiş vətəndaşlıq mənsubiyyəti | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Vətəndaşlığı olmayan şəxslər | 4 | 44 | 62 | 63 | 104 | 161 | 196 | 186 | 181 | 117 |
| Rusiya | 2 | 4 | 17 | 3 | 17 | 11 | 19 | 19 | 56 | 33 |
| Gürcüstan | 4 | 19 | 1 | 10 | 4 | 8 | 7 | 3 | 3 | 21 |
| Türkmənistan | 1 | 3 | 3 | 2 | 5 | 2 | 4 | 19 | 9 | 11 |
| Qırğızıstan | 0 | 0 | 1 | 0 | 3 | 2 | 2 | 0 | 4 | 3 |
| Ukrayna | 0 | 1 | 6 | 1 | 1 | 6 | 1 | 22 | 2 | 2 |
| Özbəkistan | 1 | 3 | 7 | 2 | 2 | 1 | 2 | 5 | 6 | 1 |
| Fransa | 0 | 0 | 0 | 1 | 0 | 0 | 0 | 0 | 5 | 1 |
| İran | 4 | 14 | 5 | 14 | 6 | 13 | 0 | 0 | 0 | 0 |
| Qazaxıstan | 4 | 2 | 6 | 1 | 2 | 1 | 0 | 1 | 2 | 0 |
| Digər ölkələr | 5 | 7 | 7 | 3 | 2 | 8 | 0 | 6 | 2 | 3 |
| Cəmi | 25 | 97 | 115 | 100 | 146 | 213 | 231 | 261 | 270 | 192 |

*Mənbə: DMX, 2017h; DİN, 2017.*

1998-ci ildə "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Qanun qəbul edildikdən sonra bu ölkədə ən çoxsaylı naturalizasiya halı qeydə alınmışdır ki, bu da Ermənistandan qaçqın düşmüş 188.000 nəfər azərbaycanlının, Özbəkistandan olan 33.000 nəfər məshəti türkünün və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının vətəndaşlığına qəbul edilməsi ilə əlaqədar idi. Bunu qaçqınların illər üzrə sayından müşahidə etmək mümkündür (Cədvəl 7-yə baxın; BMT QAK, 2018a; "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Qanun, 1998). Ermənistandan olan qaçqınlar isə Qarabağ münaqişəsi nəticəsində 1988-1991-ci illərdə Ermənistandan qovulmuş azərbaycanlılardır.

**CƏDVƏL 7. 1992-2000-ci illərdə Azərbaycanda yaşamış qaçqınların mənşə ölkələri üzrə bölgüsü**

| Qaçqınlar (o cümlədən qaçqın vəziyyətində olan şəxslər) | 1992 | 1993 | 1994 | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Ermənistan | 195.000 | 200.000 | 201.440 | 200.000 | 198.000 | 198.000 | 188.400 | 188.400 | - |
| Özbəkistan | - | - | 29.015 | - | 35.682 | 35.682 | 33.216 | 33.216 | - |
| Müxtəlif/naməlum | 51.000 | 28.840 | 1.025 | 33.682 | - | - | - | - | - |
| Digər ölkələr | 0 | 0 | 155 | 0 | 10 | 33 | 19 | 27 | 287 |
| Cəmi | 246.000 | 228.840 | 231.635 | 233.682 | 233.692 | 233.715 | 221.635 | 221.643 | 287 |

*Mənbə: BMT QAK, 2018*

Bütün bunlarla yanaşı, 2016-cı ildə Azərbaycanda təxminən 3.600 nəfər vətəndaşlığı olmayan şəxs qeydiyyatda idi (aşağıda, Bölmə 5.4-də verilmiş Cədvəl 14-ə baxın).

## 5.3 Qanuni immiqrasiya

Yuxarıda qeyd olunduğu kimi, 1998-ci ildən etibarən Avropanın başqa ölkələri ilə müqayisədə[5] Azərbaycan Respublikasına gələn immiqrantların sayı çox az idi və ildə 5.000 nəfərdən çox olmurdu (AZSTAT, 2016b). Lakin immiqrantların sayına aid olan statistik məlumatlar Azərbaycan Respublikasının vətəndaşı olan geri qayıtmış miqrantları əhatə etmədiyindən (AZSTAT, 2016c) beynəlxalq miqrasiya statisitkası ilə birbaşa müqayisə edilə bilməz.

2012-ci ilədək Azərbaycan Respublikasına gəlmiş immiqrantların çoxu MDB ölkələrindən, xüsusilə Rusiyadan idi. 2013-cü ildə statistik məlumatlarla bağlı tətbiq edilən yanaşmada baş vermiş dəyişikliklər müvafiq rəqəmlərin xarakterinə təsirsiz ötüşməmişdir – həmin ildən etibarən immiqrasiya statistikası ölkədə daimi yaşamaq üçün verilmiş icazələrin (vətəndaşlıq mənsubiyyəti üzrə) sayına əsaslanır. Başqa sözlə, 2013-cü ildən əvvəl əldə olunmuş məlumatlar həmin ildən sonra toplanmış məlumatlarla müqayisə edilə bilməz.

2013-cü ildən etibarən toplanan yeni məlumatlar Azərbaycana Türkiyədən, İrandan və digər ölkələrdən gələn immiqrantların sayının artdığını göstərir (Cədvəl 8-ə baxın). 2016-cı ildə Azərbaycana gəlmiş immiqrantların böyük əksəriyyəti Gürcüstandan (1.134 nəfər) və Rusiyadan idi (910 nəfər). Son illər ərzində Azərbaycana immiqrant göndərən əsas ölkələr arasında Türkiyə və İran yer almaqdadır: müvafiq olaraq 214 və 145 nəfər. Bu rəqəmlərə əsasən belə bir qənaətə gəlmək olar ki, başqa ölkədə daimi yaşamaq üçün immiqrasiya birmənalı şəkildə regional və əsasən qonşu ölkələrlə əlaqəli fenomendir.[6]

Bu rəqəmləri AVROSTAT tərəfindən toplanmış məlumatlarla müqayisə etdikdə Azərbaycana daha çoxsaylı axınların istiqamətləndiyini görmək olar. Miqrant göndərən (emiqrantların növbəti təyinat yerinin qeydiyyatını aparan) ölkələrin 2015-ci il üçün məlumatları göstərir ki, əsasən Rusiyanı (təqribən 13.700 nəfər) və Almaniyanı (təqribən 1.100 nəfər) tərk etmiş təxminən 15.000 miqrant Azərbaycana üz tutmuşdur (Əlavədə verilmiş Cədvəl 30-a baxın).

[5] Cənubi Qafqaz ölkələrinin də üzv olduğu Avropa Şurasının təsnifatına əsasən bu hesabatda Azərbaycan Respublikası Avropa ölkəsi hesab olunur.
[6] Hər il gələn immiqrantların doğulduqları ölkələr üzrə sayına aid statistik məlumatlar 2013-2016-cı illər üçün mövcud deyil.

**CƏDVƏL 8. 2016-cı ildə Azərbaycan Respublikasına daimi yaşamaq üçün gəlmiş immiqrantların 10 əsas mənşə ölkəsi üzrə vətəndaşlığı və sayı**

| Mənşə ölkəsi | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013[1)] | 2014[1)] | 2015[1)] | 2016[1)] |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Gürcüstan | 238 | 158 | 403 | 68 | 35 | 48 | 7 | 696b | 490 | 782 | 1.134 |
| Rusiya | 1.394 | 1.269 | 2.024 | 1.580 | 1.706 | 1.655 | 1.628 | 1.098b | 623 | 930 | 910 |
| Türkiyə | 7 | 8 | 267 | 38 | 4 | 3 | 4 | 398b | 160 | 164 | 214 |
| İran | 4 | 7 | 32 | 6 | 5 | - | - | 120b | 106 | 144 | 145 |
| Qazaxıstan | 94 | 92 | 196 | 157 | 177 | 183 | 229 | 130b | 81 | 103 | 132 |
| Ukrayna | 127 | 105 | 174 | 130 | 97 | 103 | 73 | 173b | 72 | 99 | 126 |
| Türkmənistan | 171 | 159 | 204 | 154 | 62 | 37 | 36 | 91b | 48 | 50 | 124 |
| Özbəkistan | 111 | 77 | 96 | 70 | 53 | 58 | 62 | 93b | 68 | 95 | 116 |
| Qırğızıstan | 12 | 10 | 11 | 18 | 4 | 13 | 33 | 42b | 16 | 33 | 46 |
| Pakistan | - | - | 22 | - | - | - | - | 45b | 22 | 30 | 19 |
| Digər ölkələr | 74 | 69 | 168 | 71 | 85 | 81 | 100 | 243b | 173 | 219 | 267 |
| MDB ölkələri | 1.956 | 1.749 | 2.781 | 2.155 | 2.166 | 2.111 | 2.134 | 1.668b | 926 | 1.336 | 1.493 |
| Digər ölkələr | 276 | 205 | 816 | 137 | 62 | 70 | 38 | 1.461b | 933 | 1.313 | 1.740 |
| Cəmi | 2.232 | 1.954 | 3.597 | 2.292 | 2.228 | 2.181 | 2.172 | 3.129b | 1.859 | 2.649 | 3.233 |

[1)] DMX-nın və DİN-in məlumatlarına əsasən.
b - dəyişiklikdən sonra.
"-" = məlumat mövcud deyil.
Azərbaycan Respublikasının geri qayıtmış vətəndaşları daxil deyil. Ölkədə müvəqqəti yaşamaq üçün verilmiş icazələrin sayı nəzərə alınmayıb.

*Mənbə: AZSTAT, 2016b, 2017c.*

## 5.3.1 Ölkə ərazisində yaşamaq üçün icazələr

BMT-nin beynəlxalq miqrasiya statistikasına aid tövsiyələrinə uyğun olaraq qısamüddətli miqrantlar ölkə ərazisində yaşamaq üçün etibarlılıq müddəti 3-12 aydan artıq olmayan icazələrə malik olan şəxslərdən ibarətdir (Əlavə 11.2-yə baxın). Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə əsasən Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə 1 ildən artıq olmayan müddətə verilir və onun müddəti uzadıla bilər; Azərbaycan Respublikasının ərazisində azı 2 il müvəqqəti yaşadıqdan sonra əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazə 5 ildən artıq olmayan müddətə verilə bilər (49 və 52-ci maddələr). 2016-cı ildə Azərbaycan Respublikası ərazisində müvəqqəti yaşamaq üçün 48.000-dən çox icazə verilmişdirsə, həmin il ölkə ərazisində daimi yaşamaq üçün rəsmiləşdirilmiş icazələrin sayı çox az idi və təxminən 3.200-ə bərabər idi (Cədvəl 9-a baxın).

Sözügedən iki növ vəsiqələrin hansı ölkələrin vətəndaşlarına verildiyinə diqqət yetirdikdə Azərbaycana gəlmiş miqrantların çoxunun Türkiyə vətəndaşı olduğunu görmək olar (24%). Rusiya (18%) və Gürcüstan vətəndaşları (17%) da Azərbaycan Respublikası ərazisində yaşayan miqrantların çoxsaylı qruplarını təşkil edirlər. Avropa ölkələrinə gəldikdə isə, yalnız Böyük Britaniya (6%) və Ukrayna (3%) vətəndaşları Azərbaycan Respublikası ərazisində müvəqqəti və ya daimi qalmaq üçün icazələrə malik olan şəxslərdən ibarət 10 əsas ölkənin vətəndaşları arasında yer alırlar. Bununla əlaqədar olaraq müvəqqəti miqrasiyanı da regional fenomen hesab etmək olar.

Ölkə ərazisində daimi yaşamaq üçün verilmiş icazələrin əvvəlki illər üzrə sayı təxminən 1.900-3.200 arasında dəyişsə də (2.950 icazə 2012-ci ildə, 3.125 icazə 2013-cü ildə, 1.859 icazə 2014-cü ildə və 2.649 icazə 2015-ci ildə verilmişdir; Cədvəl 10-a baxın), ölkə ərazisində müvəqqəti yaşamaq üçün verilmiş icazələrin həmin illər üzrə sayı daha çox idi və nəzərəçarpan dərəcədə artırdı: 38.417 icazə 2012-ci ildə, 46.123 icazə 2013-cü ildə, 51.366 icazə 2014-cü ildə və 53.954 icazə 2015-ci ildə verlmişdir. Bu cür icazə növü ilə əlaqədar müşahidə olunan artım əsasən Gürcüstan (2012-2015-ci illər ərzində +5.000 icazə verilmişdir), Rusiya (+3.200 icazə), Özbəkistan (+2.300 icazə), Ukrayna (+1.000 icazə) və Banqladeş (+800 icazə) vətəndaşlarına verilmiş icazələrin sayında əhəmiyyətli artımın baş verməsi ilə izah olunurdu (DMX, 2016c).

Mövcud məlumatlara əsasən 2012-ci ildən başlayaraq ilk dəfə 2016-cı ildə ölkə ərazisində müvəqqəti yaşamaq üçün verilmiş icazələrin ümumi sayında nisbətən azalma tendensiyası müşahidə olunurdu. Bu cür dəyişiklik mənşə ölkələrinin əksəriyyətindən gələn miqrantların sayının azalması ilə əlaqədar olsa da, İran və Hindistana xas deyil, çünki bu ölkələrin vətəndaşları üçün verilmiş müvəqqəti icazələrin sayı 2016-cı ildə də artmışdır (Cədvəl 9 və 10-a baxın).

**CƏDVƏL 9. 2016-cı ildə Azərbaycan Respublikası ərazisində yaşamaq üçün icazə almış şəxslərin vətəndaşı olduğu 10 əsas ölkə üzrə bölgüsü**

| Vətəndaşlıq | Ölkə ərazisində daimi yaşamaq üçün verilmiş icazələrin sayı | Ölkə ərazisində müvəqqəti (3-12 ay ərzində) yaşamaq üçün verilmiş icazələrin sayı | Cəmi |
|---|---|---|---|
| Türkiyə | 214 | 12.055 | 12.269 |
| Rusiya | 910 | 8.594 | 9.504 |
| Gürcüstan | 1.134 | 7.894 | 9.028 |
| Böyük Britaniya | - | 2.906 | 2.906 |
| İran | 145 | 2.088 | 2.233 |
| Hindistan | - | 1.740 | 1.740 |
| Ukrayna | 126 | 1.523 | 1.649 |
| Özbəkistan | 116 | 1.106 | 1.222 |
| Qazaxıstan | 132 | 941 | 1.073 |
| Türkmənistan | 124 | 891 | 1.015 |
| Digər ölkələr | 332 | 8.739 | 9.071 |
| Cəmi | 3.233 | 48.477 | 51.710 |

*“-“ = məlumat mövcud deyil.*

*Mənbə: DMX, 2017e.*

**CƏDVƏL 10. 2015-ci ildə Azərbaycan Respublikası ərazisində yaşamaq üçün icazə almış şəxslərin 10 əsas ölkə üzrə vətəndaşlığı və sayı**

| Vətəndaşlıq | Ölkə ərazisində daimi yaşamaq üçün verilmiş icazələrin sayı | Ölkə ərazisində müvəqqəti (3-12 ay ərzində) yaşamaq üçün verilmiş icazələrin sayı | Cəmi |
|---|---|---|---|
| Türkiyə | 164 | 14.178 | 14.342 |
| Rusiya | 930 | 9.019 | 9.949 |
| Gürcüstan | 782 | 8.263 | 9.045 |
| Böyük Britaniya | 4 | 3.015 | 3.019 |
| Özbəkistan | 95 | 2.749 | 2.844 |
| İran | 144 | 1.786 | 1.930 |
| Ukrayna | 99 | 1.783 | 1.882 |
| Hindistan | 4 | 1.508 | 1.512 |
| Banqladeş | 2 | 1.050 | 1.052 |
| Qazaxıstan | 103 | 944 | 1.047 |
| Digər ölkələr | 322 | 9.659 | 9.981 |
| Cəmi | 2.649 | 53.954 | 56.603 |

*“-“ = məlumat mövcud deyil.*

*Mənbə: DMX, 2016c, d.*

Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə hər dəfə 2 ildən çox olmayan (investorlar üçün 3 ildən artıq olmayan) müddətə uzadıla bilər (Miqrasiya Məcəlləsinin 49-cu maddəsi).

2013-2015-ci illər üzrə rəsmi immiqrasiya statistikası ölkə ərazisində daimi yaşamaq üçün verilmiş icazələrin sayına əsaslanır (Cədvəl 8-10-a baxın). Lakin öz müvəqqəti icazələrinin müddətini uzadan və ölkə ərazisində ümumilikdə 12 ay və ya daha uzun bir müddət ərzində yaşayan immiqrantlara da “beynəlxalq immiqrant” anlayışı şamil olunur (Əlavə 11.2-ə baxın). Həmin immiqrantları miqrasiya statistikasına daxil etmək məqsədilə ölkə ərazisində müvəqqəti yaşamaq üçün icazələrə aid məlumatları dərindən təhlil etmək lazımdır.

Ən vacib məqamlardan biri ondan ibarətdir ki, BMT tövsiyələrinə əsasən yaşadığı ölkələri ən azı bir ilə tərk etdiyindən immiqrant kimi müəyyən edilən şəxslərin böyük bir hissəsini geri qayıdan miqrantlar təşkil edirlər (bizim kontekstdə bu Azərbaycan Respublikası vətəndaşlarıdır). 2016-cı ildə yalnız Rusiyadan 11.686 nəfər Azərbaycan Respublikası vətəndaşı emiqrasiya etmişdir. Həmin il ümumilikdə 13.670 emiqrant Azərbaycanda yaşamaq məqsədilə Rusiyanı tərk etmişdir (Rusiyanın Federal Dövlət Statistika Xidməti; Əlavədə verilmiş Cədvəl 33 və 30-a baxın). Buna oxşar misalı Almaniya ilə (Azərbaycan Respublikasının 1.194 vətəndaşı Almaniyadan emiqrasiya etmişdir/1.117 emiqrant Azərbaycanda yaşamaq üçün Almaniyanı tərk etmişdir) və başqa Avropa ölkələri ilə də əlaqədar gətirmək olar – emiqrantların vətəndaşı olduğu ölkələr və təyinat ölkələri demək olar ki, eynidir. 2016-cı ildə Azərbaycana gəlmiş immiqrantlar xarici ölkə və Azərbaycan Respublikası vətəndaşlarından ibarət olduğundan və əsasən Rusiyadan gəldiyindən onların sayı ən azı 15.000 nəfər təşkil etməli idi (Əlavədə verilmiş Cədvəl 30-a baxın). İmmiqrasiya proseslərini daha müfəssəl şəkildə təhlil etmək üçün başqa göndərən ölkələri (məsələn, Türkiyəni, MDB ölkələrini, İranı, Hindistanı və ya Banqladeşi) əhatə etməklə əlavə işlər aparılmalıdır.

### 5.3.2 Əməkçi immiqrantlar

Əcnəbilərin immiqrasiyası əsasən iş tapmaq niyyətindən irəli gəlir – təhsil almaq və sığınacaqla təmin olunmaq üçün yerdəyişmələr immiqrasiya prosesinin yalnız çox az bir hissəsini təşkil edir. Xüsusilə də qısamüddətli miqrantlar üçün Azərbaycan tədricən əmək immiqrasiyası ölkəsinə çevrilməkdədir. İnşaat və neft sektorlarında müşahidə olunan inkişaf sayı artmaqda olan xarici işçiləri bu ölkəyə cəlb etməkdədir.

Konkret olaraq iqtisadi artımı və inkişaf prosesini dəstəkləmək məqsədilə dövlət təşkilatları yüksək ixtisaslı əməkçi miqrantların ölkəyə cəlb edilməsində maraqlıdır. İxtisaslı işçilərə olan ehtiyac 2010-cu ildən etibarən əcnəbilər üçün əmək kvotasının tətbiq edilməsində öz əksini tapıb.

2016-cı ilin mart ayından etibarən həyata keçirilən “Milli iqtisadyyat və iqtisadiyyatın əsas sektorları üzrə” Strateji Yol Xəritəsi əmək bazarı siyasətinə də aidiyyəti olan 11 sektorun inkişaf ilə bağlı müəyyən işlərin həyata keçirilməsini nəzərdə tutur. Bununla bağlı aşağıda sadalanan səkkiz prioritet sektor müəyyən edilib (abc.az, 2016):

1. Neft və qaz sektoru, o cümlədən kimya sənayesi;
2. Kənd təsərrüfatı;
3. İstehlak malları istehsalı;
4. Ağır sənaye və maşınqayırma sənayesi;
5. Turizmin xüsusi növləri;
6. Ticarət loqistikası;
7. Sosial evlərin inşası;
8. Peşə hazırlığı.

Əlavə olaraq üç dəstəkverici sektor bunlardan ibarətdir:

9. Maliyyə xidmətləri;
10. Telekommunikasiyalar;
11. Kommunal xidmətlər.

Yuxarıda qeyd olunan əcnəbilər üçün əmək kvotası digər məsələlərlə yanaşı yerli əmək qüvvəsinin müdafiə olunması üçün bir vasitə kimi istifadə edilir. Miqrasiya Məcəlləsinin 61.2-ci maddəsində belə bir müddəa nəzərdə tutulub ki, xarici əmək qüvvəsinin Azərbaycan Respublikasında haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olması üçün əsas şərtlərdən biri iş yerinin tələblərinə cavab verən peşə hazırlığına və ya ixtisasa malik Azərbaycan Respublikası vətəndaşının iddia etmədiyi boş iş yerlərinin mövcudluğundan ibarətdir (əmək bazarı testi). Ümumiyyətlə, əcnəbini işə götürmək niyyətində olan tərəf onun ölkə ərazisində yaşaması üçün müvafiq icazə ilə təmin olunması məqsədilə aidiyyəti orqanlara müraciət etməlidir. Əmək miqrasiyasına aid qanunvericiliklə və siyasətlə tanış olmaq üçün "Azərbaycan Respublikasında qanuni və əmək miqrasiyası mexanizmlərinin təhlili" Qiymətləndirmə Hesabatına baxın (MSİBM, 2016a).

### 5.3.3 Təhsil məqsədilə gələn immiqrantlar

İnsan kapitalının inkişafı "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının əsas elementlərindən biri hesab olunur. Konsepsiyanın müasir təhsil sisteminin formalaşdırılmasına dair 7.2-ci bölməsi təhsil sahəsinə ayrılan vəsaitlərin ümumi həcminin ümumi daxili məhsuldakı (ÜDM) payının ilbəil artırılmasını və təhsildə keyfiyyətin yüksəldilməsini nəzərdə tutur.

Xaricdə təhsil alan azərbaycanlı tələbələrin hədəfləri birmənalı şəkildə müəyyən edilsə də, Azərbaycanda təhsil alan əcnəbi tələbələr üçün müvafiq hədəflər hələlik mövcud deyil. Bununla belə, ali təhsil müəssisələri arasında beynəlxalq əlaqələrin əhəmiyyətinə xüsusi diqqət ayrılır. 2005-ci ildə Azərbaycan Respublikası Avropa Ali Təhsil Məkanı yaratmaq məqsədi daşıyan Bolonya Sisteminə qoşulub və "Erasmus +" Proqramının iştirakçısıdır (Erasmus + Azərbaycan, 2017).

Azərbaycanda təhsil alan əcnəbi tələbələr əsasən tibb və iqtisadiyyat sahələrinə, habelə humanitar və texniki sahələrə maraq göstərirlər (Təhsil Nazirliyi, 2017).

Təhsil Nazirliyinə əsasən 2016-cı ildə Azərbaycanın ali təhsil müəssisələrində ümumilikdə 75 ölkədən 5.007 nəfər əcnəbi tələbə təhsil alırdı (Cədvəl 11-ə baxın). 2014-cü il ilə müqayisədə 2015-ci ildə 5% aşağı enmiş göstərici keçən il 16% artıb. Azərbaycanda təhsil almış əcnəbi tələbələrin ümumi sayının 7.137 nəfər təşkil etdiyi 2008-ci ildən sonra müşahidə olunan azalma tendensiyasını nəzərə aldıqda keçən ili artıma doğru dönüş nöqtəsi hesab etmək olar (Təhsil Nazirliyi, 2017). Qeyd etmək yerinə düşər ki, 2009-cu ildən başlayaraq 2013-cü ilədək və sonra 2015-ci ildə ölkədə təhsil alan əcnəbi tələbələrin sayında azalma tendensiyası müşahidə olunurdu.

2016-cı ildə Azərbaycanda təhsil almış əcnəbi tələbələrin onundan dördü Türkiyədən gəlmişdir ki, onların da ümumi sayı 2.100 nəfərə bərabər idi. Bu səpkidən olan digər çoxsaylı qrupları İrandan (615 nəfər), Gürcüstandan (468 nəfər), Rusiyadan (458 nəfər), İraqdan (400 nəfər), və Türkmənistandan (201 nəfər) gəlmiş tələbələr təşkil edirdi. Bəzi digər ölkələri çıxmaq şərtilə, əsasən Asiya ölkələrindən olan tələbələr Azərbaycana maraq göstərirlər ki, bu da coğrafi və tarixi yaxınlıqla, habelə dil əlaqələrinin və etnik əlaqələrin sıx olması ilə əlaqədardır.

Ali təhsil müəssisələrində əcnəbi tələbələrin sayına dair YUNESKO-nun statistik məlumatları göstərir ki, milli məlumatlarla müqayisədə 2006-2009-cu illərdə Azərbaycanda bu cür tələbələrin sayında oxşar tendensiyalı artım müşahidə olunsa da, onların ümumi sayı nisbətən aşağı idi (Cədvəl 12-ə baxın). Milli məlumatlar və YUNESKO-nun məlumatları arasındakı fərq bu məsələyə yanaşmada hansısa uyğunsuzluqlarla əlaqəli ola bilsə də, bunun köklü səbəbləri qeyri-müəyyəndir.

**CƏDVƏL 11. 2009-2016-cı illərdə Azərbaycan Respublikasının ali təhsil müəssisələrində (hər ilin sonunda) təhsil almış əcnəbi tələbələrin 10 əsas mənşə ölkəsi üzrə sayı**

| Mənşə ölkəsi | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|---|
| Türkiyə | 4.073 | 3.459 | 3.170 | 3.093 | 2.720 | 2.624 | 2.217 | 2.115 |
| İran | 1.484 | 1.332 | 1.140 | 801 | 606 | 484 | 381 | 615 |
| Gürcüstan | 87 | 83 | 112 | 255 | 281 | 380 | 353 | 468 |
| Rusiya | 217 | 209 | 221 | 252 | 273 | 346 | 316 | 458 |
| İraq | 104 | 130 | 124 | 174 | 160 | 161 | 132 | 400 |
| Türkmənistan | 157 | 179 | 207 | 249 | 271 | 239 | 218 | 201 |
| Çin | 248 | 255 | 207 | 193 | 174 | 155 | 144 | 109 |
| Qazaxıstan | 13 | 10 | 27 | 42 | 40 | 92 | 55 | 69 |
| Pakistan | 124 | 140 | 46 | 45 | 41 | 70 | 62 | 64 |
| Nigeriya | 22 | 25 | 28 | 25 | 29 | 39 | 72 | 61 |
| Digər ölkələr | 280 | 314 | 311 | 361 | 396 | 432 | 376 | 447 |
| Cəmi | 6.809 | 6.136 | 5.593 | 5.490 | 4.991 | 5.022 | 4.326 | 5.007 |

*Mənbə: Təhsil Nazirliyi, 2017.*

**CƏDVƏL 12. 2009-2015-ci illərdə Azərbaycan Respublikasının ali təhsil müəssisələrində təhsil almış əcnəbi tələbələrin 10 əsas mənşə ölkəsi üzrə sayı**

| Ölkə | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|---|
| Türkiyə | 4.010 | 3.445 | 3.052 | 2.854 | 2.583 | 2.480 | 2.402 |
| İran | 1.284 | 1.051 | 898 | 783 | 608 | 560 | 372 |
| Rusiya | 224 | 263 | 221 | 177 | 232 | 213 | 270 |
| Türkmənistan | 110 | 170 | 127 | 165 | 197 | 177 | 236 |
| Gürcüstan | 113 | 144 | 124 | 117 | 126 | 242 | 223 |
| İraq | 86 | 88 | 117 | 112 | 147 | 155 | 141 |
| Çin | 185 | 189 | 152 | 155 | 110 | 161 | 131 |
| Pakistan | 31 | 65 | 86 | 23 | 31 | 46 | 58 |
| Qazaxıstan | 22 | 34 | 25 | 17 | 21 | 45 | 51 |
| Suriya | 14 | 16 | 17 | 23 | 26 | 32 | 32 |
| Digər ölkələr | 237 | 261 | 255 | 202 | 360 | 295 | 273 |
| Cəmi | 6.316 | 5.726 | 5.074 | 4.628 | 4.441 | 4.406 | 4.189 |

*Mənbə: YUNESKO, 2017*

## 5.4 Azərbaycanda sığınacaq məsələləri

Azərbaycan Respublikasının sığınacaq məsələlərinə dair qanunvericiliyi aparıcı beynəlxalq sənədlər, o cümlədən BMT-nin "Qaçqınların statusu haqqında" 1951-cil tarixli Konvensiyası əsasında hazırlanıb. Müxtəlif vaxtlarda Azərbaycan Respublikası bu ölkəyə Rusiya Federasiyasından (Çeçenistandan), İrandan, Əfqanıstandan və əsasən hərbi münaqişələrin baş verdiyi digər ölkələrdən gəlmiş sığınacaq axtaranları qəbul edib.

Dövlət tərəfindən öz üzərinə götürülmüş beynəlxalq öhdəliklərin təmin olunmasına kömək göstərmək məqsədilə BMT QAK digər beynəlxalq təşkilatlarla və milli agentliklərlə (məsələn, MSİBM, BQXK, BMqT, Aİ, USAID və s.) birgə Azərbaycan Respublikasının əlaqədar nazirlikləri ilə yaxından əməkdaşlıq edir.

### 5.4.1 Qanunvericilik bazası

Dövlət müstəqilliyi bərpa edildikdən sonra, 1991-ci ildən etibarən Azərbaycanda sığınacaq axtaranların hüquqi vəziyyətini və bu cür şəxslərlə rəftar məsələlərini tənzimləyən milli qanunvericilik bazasının inkişaf etdirilməsinə diqqət yetirilir. Himayə məsələsinə aid əsas müddəalar hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycan Respublikası tərəfindən əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə siyasi sığınacağın verilməsini bəyan edən Azərbaycan Respublikası Konstitusiyasının 70-ci maddəsində öz əksini tapıb. Əcnəbilərə sığınacağın verilməsinə dair ilk müddəalar 2000-ci ildə ölkə prezidenti tərəfindən imzalanmış 419 nömrəli Fərman əsasında təsdiq edilmişdir.[7] 1993-cü ildə Azərbaycan Respublikası BMT-nin "Qaçqınların statusu haqqında" 1951-cil tarixli Konvensiyasını və bu Konvensiyanın müvafiq Protokolunu ratifikasiya etmişdir, 1999-cu ildə isə bu ölkədə "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Qanun qəbul olunmuşdur.[8] Bu qanunda müvafiq beynəlxalq anlayışlar nəzərə alınmaqla "qaçqın" və "məcburi köçkün (ölkə daxilində köçürülmüş şəxs)" anlayışlarının mənaları, habelə Azərbaycan Respublikasının müvafiq hakimiyyət orqanına müraciət etdiyi andan onun barəsində qərar qəbul edilənədək sığınacaq axtaran şəxslə rəftar məsələlərinə aid təfərrüatlı müddəalar öz əksini tapıb. Bu qanunda digər məsələlərlə yanaşı qaçqın statusunun verilmədiyi hallar, qaçqınların və sığınacaq axtaranların hüquq və vəzifələri, onların gəldikləri ölkələrə göndərilməməsi və məcburi qaytarılmaması, qaçqın və ya məcburi köçkün (ölkə daxilində köçürülmüş şəxs) statusunun itirilməsi halları nəzərdə tutulub.

"Qaçqınların və məcburi köçkünlərin statusu haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə əsasən milliyyətinə, irqi və vətəndaşlıq əlamətinə, dini etiqadına, dilinə, habelə siyasi əqidəsinə, müəyyən sosial qrupa mənsubiyyətinə görə təqibə məruz qalması, həyatına, ailəsinə, əmlakına real təhlükə yaranması ilə əlaqədar daimi yaşadığı dövlətin onu müdafiə etməsindən istifadə edə bilməməsi, yaxud təhlükəyə görə bu müdafiədən istifadə etmək istəməməsi üzündən yaşadığı ölkənin hüdudlarından kənarda olan, Azərbaycan Respublikasının vətəndaşı olmayan şəxslər Azərbaycan Respublikası ərazisində "qaçqın" sayılır. Qeyd etmək yerinə düşər ki, Avropada verilən əlavə himayə statusu kimi "humanitar status" "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında" Qanunda öz əksini tapmasa da, "siyası sığınacaq" anlayışı ölkə Konstitusiyasında nəzərdə tutulub.

Keçmişdə Azərbaycan "məcburi geri qaytarılmama" prinsipinin pozulması ilə əlaqədar bir sıra məsələlərlə üzləşmişdir. Rusiya keçmiş çeçen yaraqlılarının Azərbaycanda sığınacaq tapmasını iddia etdiyi zaman hökumət etnik çeçenlərin BMT QAK-a məlumat vermədən ölkə ərazisindən çıxarılması barədə göstəriş vermişdir (ABŞ-ın Qaçqınlar və İmmiqrantlar üzrə Komitəsi, 2005). Həmin dövrdə "məcburi geri qaytarılmama" prinsipi ilə əlaqədar iki iş üzrə qərar beynəlxalq səviyyədə qəbul olunmuşdur: i) Elif Pelitin Azərbaycana qarşı şikayət ərizəsi əsasında BMT-nin İşgəncələrə qarşı Komitəsi BMT-nin "İşgəncələr və digər qəddar, qeyri-insani və alçaldıcı rəftar və ya cəza əleyhinə" Konvensiyasının 3-cü maddəsinin (geri qaytarılmama) pozulduğunu təsdiq etmişdir (Quluzadə, 2009; Elif Pelit [2005]) və ii) Qarayevin Azərbaycana qarşı şikayət ərizəsi əsasında İnsan Hüquqları üzrə Avropa Məhkəməsi Avropa İnsan Hüquqları Konvensiyasının 3-cü maddəsinin (işgəncələrin qadağan olunması) pozulduğunu təsdiq etmişdir (Quluzadə, 2012; Qarayev [2010]).

[7] ""Qaçqın" statusu verilməsi haqqında vəsatətə baxılması Qaydasının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin Fərmanı "http://e-qanun.az/framework/380" veb-səhifəsində mövcuddur. Fərmanın ingilis dilinə qeyri-rəsmi tərcüməsi ilə "https://www.ecoi.net/file_upload/1504_1217254712_rules-to-examine-applications-for-refugee-status.pdf" veb-səhifəsində tanış olmaq mümkündür.
[8] Bu qanun 1992-ci ildə qəbul edilərək qaçqınların statusuna dair əvvəlki qanunu əvəz etmişdir.

## 5.4.2 Sığınacaq prosedurunun xülasəsi

Azərbaycanda qaçqın statusu almaq niyyətində olan sığınacaq axtaran şəxs sərhəd-nəzarət buraxılış məntəqələrində, habelə ölkə ərazisində müvafiq vəsatətlə DMX-ya müraciət edir. Vəsatətə baxıldığı (üç aylıq) müddət ərzində şəxs qanunsuz miqrantlar üçün mərkəzə könüllü yerləşdirilir. Sığınacaq axtaranlar (haqqını ödəmədən) tibbi baxışdan və vaksinasiyadan keçməlidirlər.

Fərdi vəsatətlərə DMX tərəfindən baxılır. Vəsatətin aşağıda təsvir olunan iki mərhələdə təmin edilməməsi mümkündür:

1. Əlaqədar şəxs tərəfindən təqdim olunan vəsatətin birinci instansiyada qəbul olunmaması mümkündür ki, belə olan təqdirdə o, ümumiyyətlə sığınacaq axtaran kimi qeydiyyata alınmır. Vəsatətin qəbul edilməməsi üçün səbəblər saxta sənədlərin təqdim edilməsi, tələb olunan informasiyanı təqdim etməkdən imtina, vəsatətin təqdim edilməsi üçün nəzərdə tutulmuş müddətlərə əməl etməmə, Azərbaycan Respublikasında cinayət məsuliyyətinə cəlb olunma, mənşə ölkəsində ağır cinayətin törədilməsinə görə məhkum olunma və s. ilə əlaqədar ola bilər (“Qaçqınların və məcburi köçkünlərin statusu haqqında” Qanunun 2-ci maddəsi və “Qaçqın statusu verilməsi haqqında vəsatətə baxılması” Qaydası).

2. Vəsatət təqdim edən şəxs sığınacaq axtaran kimi qeydiyyata alındıqdan və ona müvafiq hüquq və vəzifələr şamil edildikdən sonra DMX statusun verilməsi və ya bundan imtina edilməsi barədə qərarı üç ay ərzində qəbul edir.

Əlaqədar şəxs vəsatətlə bağlı imtina haqqında qərardan məhkəmə qaydasında şikayət vermək hüququna malikdir. Şikayət ərizəsi əsasında məhkəmə tərəfindən qəbul edilmiş yekun qərar qüvvəyə minməyənədək ərizəçi sığınacaq axtaran şəxs hesab olunur. Rədd cavabı almış sığınacaq axtaran şəxs sığınacaq üçün BMT QAK-a müraciət etmək imkanından istifadə edə bilər.

Statusun verilməsi ilə bağlı imtina haqqında qərar qəbul edildikdə əlaqədar şəxs bir həftə ərzində Azərbaycan Respublikası ərazisini tərk etməlidir. Əlaqədar şəxs göstərilmiş müddətədək ölkə ərazisini tərk etmədiyi təqdirdə ona qarşı ölkə hüdudlarından kənara çıxarılma prosedurları tətbiq edilir. Ölkənin hüdudlarından kənara inzibati qaydada çıxarma haqqında qərar qəbuletmə prosesi və müvafiq prosedurlar Miqrasiya Məcəlləsində nəzərdə tutulub.

Müvafiq status almamış əcnəbinin ölkə hüdudlarından kənara çıxarılması barədə qərar DİN, DMX və ya məhkəmə tərəfindən qəbul oluna bilər. Əcnəbilərin hüquqi vəziyyətinə aid qanunvericilik aktlarını ciddi şəkildə pozmuş əcnəbilərə ölkə ərazisini könüllü şəkildə tərk etmək üçün 48 saat vaxt verilir və bu müddət əsaslandırılmış hallarda uzadıla bilər. Təyin edilmiş müddət ərzində ölkəni tərk etməyən şəxs məhkəmə tərəfindən qəbul edilmiş qərar əsasında saxlanılaraq məcburi qaydada ölkə hüdudlarından kənara çıxarılır (Miqrasiya Siyasəti Mərkəzi, 2013).

Azərbaycanda qaçqın statusuna malik olan şəxsdən iş icazəsi əldə etmək tələb olunmur (Miqrasiya Məcəlləsi 2013-cü ildə qəbul edilənədək bu cür şəxslərin əmək fəaliyyəti ilə məşğul olmaları problemli bir məsələ hesab olunurdu). Eyni zamanda, qaçqın statusu almış şəxsə müvafiq sərhədkeçmə sənədləri verilir.

2013-cü ildən etibarən DMX “Şərqi Avropada və Cənubi Qafqazda sığınacaq sistemlərinin keyfiyyətinin artırılması təşəbbüsü” Layihəsini BMT QAK-la əməkdaşlıq şəraitində həyata keçirməkdədir. Eyni zamanda, 2016-cı ildən başlayaraq MSİBM-lə birgə həyata keçirilən “Azərbaycanla Yerdəyişmə üzrə Tərəfdaşlığın həyata keçirilməsinə dəstək” Layihəsinin 4-cü komponenti də sığınacaq prosedurlarına həsr olunub.

### 5.4.3 Sığınacaq statistikası

BMT QAK tərəfindən təqdim olunmuş məlumatlara əsasən 2005-2015-ci illər ərzində Azərbaycanda 2.277 əcnəbi sığınacaq üçün dövlət orqanlarına müraciət etmişdir. Həmin dövrdə hər il ilk dəfə müraciət edənlərin sayı 69-399 nəfər arasında dəyişirdi (BMT QAK, 2018).

2016-cı ildə sığınacaq üçün DMX-ya müraciət etmiş bütün ərizəçilərin (ailə üzvləri ilə birlikdə 209 nəfər) ən çoxsaylı yeddi qrupunu Əfqanıstan (141 nəfər və ya ərizəçilərin 67%-ni), Pakistan (25 nəfər və ya 12%-ni), İraq (18 nəfər və ya 9%-ni) və İran (9 nəfər və ya 4%-ni) vətəndaşları təşkil etmişdir (Cədvəl 15-ə baxın).

BMT QAK-ın rəqəmlərinə əsasən 2016-cı ilin sonuna yaxın Azərbaycanda təxminən 1.200 nəfər statusu tanınmış qaçqın qeydə alınmışdır ki, onların da çoxu Əfqanıstandan (562 nəfər) və Rusiyadan (501 nəfər) gələnlər idi (Cədvəl 14-ə baxın). DMX tərəfindən müqayisə üçün təqdim olunmuş statistik məlumatlar nisbətən aşağı rəqəmləri özündə əks etdirir, çünki burada yalnız milli qanunvericiliyə uyğun qaçqın statusu almış şəxslər göstərilib (bundan əvvəl verilmiş rəqəmlərə baxın). BMT QAK-ın məlumatlarına görə son illər ərzində xüsusilə Rusiyadan gələn qaçqınların sayının azalması səbəbindən bu cür şəxslərin ümumi sayında da daimi azalma tendensiyası müşahidə olunur.

2016-cı ildə sığınacaq axtaranlarla bağlı tamamlanmamış işlərin sayı 221-ə bərabər idi və burada da əfqanıstanlılar və rusiyalılar iki ən böyük qrupu təşkil edirdi. 2015-ci ili azalmaya doğru bir dönüş nöqtəsi hesab etmək mümkündür, çünki bundan əvvəlki illərdə bu cür tamamlanmamış işlərin sayı daima artaraq 2014-cü ildə ən yüksək göstəriciyə (394 iş) çatmışdır.

Sığınacaq axtaran şəxs qaçqın statusu almaq üçün vəsatətlə bağlı imtina haqqında qərardan məhkəmə qaydasında şikayət vermək hüququna malik olsa da, bu günədək həmin şikayət ərizələrinin heç biri məhkəmə tərəfindən təmin olunmamışdır (BMT QAK, 2012, 2017b).

Hal-hazırda Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi ölkədəki məcburi köçkünlərin sayının 789.000 nəfərə bərabər olduğunu göstərir (Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, 2017a), lakin BMT QAK onların sayının 613.000 nəfərdən bir qədər çox olduğunu qeyd edir (BMT QAK, 2018a). Bu cür uyğunsuzluğu tərəflərin tətbiq etdyi anlayışlardakı fərqlə izah etmək olar – dövlət orqanları məcburi köçkünlərin uşaqlarını da bu statistikaya daxil edirlər.

Məcburi köçkünlərin sayının illər üzrə bölgüsünə aid rəqəmlər Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən təqdim olunmasa da, BMT QAK-ın statistik məlumatları ardıcıl dörd il artmaqda olan rəqəmlərdə 2015-ci ildə azalmanın müşahidə olunduğunu və 2016-cı ildə onların sayının 613.129 nəfərə bərabər olduğunu göstərir. Bu cür məlumatların BMT QAK tərəfindən illər üzrə bölgüsünə əsasən rekord göstərici 1992-ci ildə qeydə alınaraq 778.000 nəfərə bərabər olmuşdur.

**CƏDVƏL 13. Dövlət orqanlarının məlumatlarına əsasən 2016-2017-ci illərdə Azərbaycanda olan məcburi köçkünlərin, qaçqınların və sığınacaq axtaranların ümumi sayı**

| | 2016[1)] | 2017[2)] |
|---|---|---|
| Məcburi köçkünlər | | |
| Cəmi | - | 789.000 |
| Qaçqınlar | | |
| İran | 42 | - |
| Əfqanıstan | 17 | - |
| Pakistan | 1 | - |
| Ermənistan | 1 | 350.000 |
| Özbəkistan | - | 70.000 |
| Cəmi | 61 | 420.000 |
| Sığınacaq axtaranlar | | |
| Cəmi | 73 | 1.500[2)] |
| Vətəndaşlığı olmayan şəxslər | | |
| Cəmi | - | - |
| Bu cür kateqoriyalardan olan bütün şəxslər | | |
| Cəmi | - | 1.210.500 |

"-" = məlumat mövcud deyil.
[1)] DMX tərəfindən təqdim olunmuş məlumatlar; 2004-2017-ci illərdə statusu tanınmış qaçqınlar; 2017-ci ilin sonunda işləri tamamlanmamış sığınacaq axtaranlar.
[2)] Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən təqdim olunmuş məlumatlar; Ermənistandan və Özbəkistandan fərqli ölkələrdən gəlmiş 1.500 nəfər sığınacaq axtaran və qaçqın.

*Mənbələr: DMX, 2017f, 2018b; Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, 2017.*

2012-ci ildən etibarən vətəndaşlığı olmayan şəxslərin sayına aid eyni rəqəmin (3.585 nəfər) göstərilməsi səbəbindən həmin kateqoriya üzrə statistik məlumatların son zamanlar yenilənmədiyini ehtimal etmək olar (Cədvəl 14-ə baxın).

BMT QAK-ın məlumatlarına əsasən məcburi köçkünlərin, sığınacaq axtaranların, statusu tanınmış qaçqınların və vətəndaşlığı olmayan şəxslərin sayına aid ən son rəqəmləri topladıqda 2016-cı ildə bu kateqoriyadan olan əhalinin ümumi sayının 618.298 nəfərə bərabər olduğunu görmək olar.

BMT QAK-ın statistik məlumatlarının dövlət orqanları tərəfindən dərc edilmiş statistik məlumatlardan fərqləndiyini qeyd etmək lazımdır, çünki dövlət orqanları bu məlumatlarla bağlı fərqli yanaşmadan istifadə edirlər. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi məcburi köçkünlərdən, qaçqınlardan və sığınacaq axtaranlardan ibarət ümumi əhalinin sayının təqribən 1,2 milyon nəfərə bərabər olduğunu qeyd edir (Cədvəl 13-ə baxın). Məcburi köçkünlərin sayı ilə bağlı tətbiq edilən fərqli yanaşma ilə yanaşı Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi 1990-cı illərdə Ermənistandan qovulmuş azərbaycanlıları və Özbəkistandan didərgin düşmüş məshəti türklərini də ölkədəki mövcud qaçqın əhalisinin bir hissəsi hesab edir.

**CƏDVƏL 14.** **BMT QAK-ın məlumatlarına əsasən 2008-2016-cı illər ərzində Azərbaycanda olan məcburi köçkünlərin, qaçqınların, sığınacaq axtaranların, vətəndaşlığı olmayan şəxslərin və bu kimi digər kateqoriyalardan olan şəxslərin vətəndaşı olduğu 5 əsas ölkə üzrə sayı**

| | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Məcburi köçkünlər** | | | | | | | | | |
| Cəmi | 603.251 | 586.013 | 592.860 | 599.192 | 600.336 | 609.029 | 622.892 | 618.220 | 613.129 |
| **Qaçqınlar** | | | | | | | | | |
| Əfqanıstan | 125 | 149 | 718 | 706 | 576 | 603 | 618 | 602 | 562 |
| Rusiya | 1.770 | 1.334 | 1.028 | 889 | 781 | 657 | 557 | 539 | 501 |
| İran | 97 | 113 | 104 | 85 | 78 | 77 | 76 | 71 | 61 |
| Pakistan | 1 | 1 | 3 | 7 | 5 | 9 | 17 | 18 | 22 |
| Suriya | - | - | - | 1 | 3 | 9 | 7 | 8 | 15 |
| Cəmi | 2.061 | 1.642 | 1.891 | 1.730 | 1.468 | 1.380 | 1.299 | 1.278 | 1.183 |
| **Sığınacaq axtaranlar** | | | | | | | | | |
| Əfqanıstan | 24 | 15 | 2 | 21 | 82 | 164 | 160 | 134 | 106 |
| Rusiya | 0 | 10 | 4 | 7 | 11 | 44 | 31 | 46 | 55 |
| Pakistan | 8 | 5 | 3 | 3 | 11 | 38 | 141 | 2 | 21 |
| İraq | 1 | 4 | 0 | 1 | 0 | 12 | 11 | 3 | 10 |
| İran | 8 | 8 | 2 | 14 | 17 | 5 | 16 | 13 | 8 |
| Cəmi | 41 | 46 | 17 | 48 | 135 | 278 | 394 | 220 | 221 |
| **Vətəndaşlığı olmayan şəxslər** | | | | | | | | | |
| Cəmi | 2.078 | 2.078 | 2.078 | 1.741 | 3.585 | 3.585 | 3.585 | 3.585 | 3.585 |
| **Bu cür kateqoriyalardan olan bütün əhali** | | | | | | | | | |
| Cəmi | 607.934 | 590.298 | 596.877 | 602.734 | 605.526 | 614.290 | 628.190 | 623.373 | 618.298 |

"-" = məlumat mövcud deyil.

*Mənbə: BMT QAK, 2018.*

Sığınacaq üçün müraciət edənlərin sayının əhəmiyyətli dərəcədə yüksək olduğu 2014 və 2015-ci illəri çıxmaq şərtilə (müvafiq olaraq 399 və 255 nəfər), Azərbaycanda sığınacaq axtaranların (ailə üzvləri ilə birlikdə) sayı 70-200 nəfər arasında dəyişir (Cədvəl 15-ə baxın). 2017-ci ildə Türkiyədən olan sığınacaq axtaranların sayında müşahidə edilən artım səbəbindən ailə üzvləri ilə birlikdə 262 nəfərdən ibarət ən yüksək rəqəm qeydə alınmışdır. Demək olar ki, hər il ən çoxsaylı qrup əfqanıstanlılardan ibarət olur, növbəti yerlərdə isə pakistanlılar və iranlılar qərarlaşır. Yalnız 2014 və 2015-ci illərdə çoxlu sayda ukraynalı sığınacaq üçün müraciət etsə də, 2017-ci idə onların sayı sıfıra bərabər idi. Son illərdə sığınacaq üçün müraciət etmiş suriyalıların və rusiyalıların sayı çox az idi.

Hökumət tərəfindən müəyyən edilmiş prosedurlar əsasında statusun tanınmasına dair göstəricilər çox aşağı səviyyədə qalmaqdadır. 2015-ci il ərzində sığınacaq axtaranlar tərəfindən DMX-ya 255 vəsatət təqdim olunmuşdur (Cədvəl 15-ə baxın) və ən azı 257 qərar qəbul olunmuşdur (Cədvəl 17-yə baxın). BMT QAK və DMX-ya əsasən qəbul edilmiş müsbət qərarların sayı sıfıra bərabər idi (Cədvəl 17-yə baxın). Bu mənbələrdən hansının istifadə edilməsindən asılı olmayaraq 2008-ci ildən etibarən dövlət orqanları tərəfindən qaçqın statusu ilə təmin edilmiş şəxslərin sayının 16 nəfərdən çox olmadığını qeyd etmək lazımdır.

**CƏDVƏL 15. 2010-2017-ci illərdə Azərbaycanda sığınacaq üçün müraciət etmiş şəxslərin 10 əsas mənşə ölkəsi üzrə bölgüsü və ümumi sayı**

| Sığınacaq axtaranlar | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|---|---|
| Əfqanıstan | 14 (20) | 15 (35) | 22 (63) | 41 (114) | 56 (174) | 31 (108) | 50 (141) | 63 (134) |
| Pakistan | 19 (29) | 14 (15) | 21 (24) | 24 (32) | 107 (123) | 75 (78) | 20 (25) | 17 (23) |
| Türkiyə | - | - | - | - | - | 2 (2) | 1 (2) | 15 (51) |
| İran | 12 (19) | 8 (16) | 1 (5) | 3 (7) | 5 (9) | 12 (18) | 7 (9) | 9 (10) |
| İraq | 4 (14) | - | - | - | 3 (14) | 1 (1) | 9 (18) | 5 (14) |
| Suriya | - | 1 (4) | 1 (5) | 3 (6) | 1 (1) | 5 (5) | 1 (1) | 4 (7) |
| Rusiya | - | 1 (1) | - | - | 1 (1) | 1 (1) | 1 (4) | 3 (5) |
| Tacikistan | - | - | - | - | - | - | - | 2 (6) |
| Yəmən | - | - | - | 1 (2) | - | 1 (1) | 1 (5) | 2 (4) |
| Şri Lanka | - | - | - | - | - | - | - | 2 (3) |
| Cəmi | 50 (83) | 41 (73) | 52 (108) | 75 (166) | 202 (399) | 146 (255) | 95 (209) | 122 (262) |

"-" = məlumat mövcud deyil.
() – vəsatət təqdim etmiş şəxslərin ailə üzvlərinin sayı.

*Mənbə: DMX, 2017f, 2018b.*

**CƏDVƏL 16. 2008-2017-ci illərdə Azərbaycanda qaçqın statusu tanınmış şəxslərin mənşə ölkələri üzrə bölgüsü**

| Mənşə ölkəsi | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Əfqanıstan | - | - | - | - | 1 (2) | 3 (7) | 1 (1) | 0) | 4 (16) | 1 (3) |
| İran | 1 (1) | 1 (4) | - | - | - | 1 (1) | - | - | - | 1 (4) |
| İraq | - | - | - | - | - | - | 1 (4) | - | - | |
| Ermənistan | - | - | - | - | - | - | - | - | - | 1 (1) |
| Cəmi | 1 (1) | 1 (4) | - | - | 1 (2) | 4 (8) | 2 (5) | 0 | 4 (16) | 3 (8) |

"-" = məlumat mövcud deyil.
() – vəsatət təqdim etmiş şəxslərin ailə üzvlərinin sayı.

*Mənbə: DMX, 2017f, 2018b.*

Digər tərəfdən BMT QAK-ın baxdığı vəsatətlərlə bağlı statusun tanınmasına dair göstəricilər xeyli yüksəkdir (BMT QAK-ın prosedurlarına əsasən qaçqın statusunun və əlavə himayənin verilməsi məsələlərinə baxılır). Əfqanıstan vətəndaşları tərəfindən təqdim olunmuş vəsatətlərin təmin olunma göstəricisi 56%-ə çatmışdırsa, digər ölkə vətəndaşları ilə bağlı həmin göstəricilər belədir: Rusiya - 79%, Ukrayna - 76%, Suriya isə - 100%. Yalnız Pakistandan və İrandan olan sığınacaq axtaranların təmin olunmuş vəsatətlərinə dair rəqəmlər eynidir və qeyd olunmuş göstəricilərdən çox aşağıdır. Azərbaycanda suriyalıların və əfqanıstanlıların statusunun BMT QAK tərəfindən tanınmasına dair göstəricilər 2015-ci ildə Aİ-28-də qeydə alınmış müvafiq göstərici ilə eyni olsa da, pakistanlılara və iranlılara aid göstərici Aİ-28-də, rusiyalı və ukraynalılarla əlaqədar göstərici isə Azərbaycanda nisbətən yüksəkdir (Cədvəl 17-yə baxın).

**CƏDVƏL 17. 2015-ci ildə Azərbaycan Respublikasında 7 əsas mənşə ölkəsindən olan sığınacaq axtaranların təqdim etdiyi vəsatətlərə əsasən qaçqın statusunun müəyyənləşdirilməsi hallarına dair göstəricilər**

| Mənşə ölkəsi | Qaçqın statusunun müəyyələşdirilməsi prosedurunun səviyyəsi/ mərhələsi[1)] | İlin əvvəlində vəsatətlərinə baxılmamış şəxslərin ümumi sayı | Onlardan BMT QAK-ın köməyi ilə baxılan vəsatətlər | İl ərzində təqdim olunmuş vəsatətlər | 2015-ci il ərzində qəbul edilmiş qərarlar: Statusu tanınmış şəxslərin sayı | İmtina haq-qında qərarların sayı | Bağlamış işlərin sayı | Qəbul edilmiş qərarların ümumi sayı | İlin sonunda vəsatətlərinə baxılmamış şəxslərin ümumi sayı | Onlardan BMT QAK-ın köməyi ilə baxılan vəsatətlər | Statusun tanınması üzrə ümumi göstərici[2] | Bağlanmış işlər üzrə göstərici[2] | Aİ-28-də qaçqın statusunun tanınması üzrə göstərici[2)3)] | Aİ-28-də statusun tanınması üzrə ümumi göstərici[2)3)] |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Əfqanıstan | H/Bİ | 22 | 22 | 108 | 0 | 114 | 5 | 119 | 11 | 11 | 0,0% | 4,2% | 28,7% | 66,9% |
| Əfqanıstan | B/Bİ | 160 | 160 | 129 | 76 | 60 | 30 | 166 | 123 | 123 | 55,9% | 18,1% | | |
| Pakistan | H/Bİ | 0 | 0 | 78 | 0 | 68 | 10 | 78 | 0 | 0 | 0,0% | 12,8% | 9,1% | 26,4% |
| Pakistan | B/Bİ | 119 | 119 | 84 | 1 | 159 | 41 | 201 | 2 | 2 | 0,6% | 20,4% | | |
| Rusiya | H/Bİ | 0 | 0 | 1 | 0 | 1 | 0 | 1 | 0 | 0 | 0,0% | 0,0% | 18,6% | 24,9% |
| Rusiya | B/Bİ | 31 | 31 | 50 | 15 | 4 | 16 | 35 | 46 | 46 | 78,9% | 45,7% | | |
| Ukrayna | H/Bİ | 0 | 0 | 33 | 0 | 24 | 9 | 33 | 0 | 0 | 0,0% | 27,3% | 4,4% | 29,8% |
| Ukrayna | B/Bİ | 12 | 12 | 10 | 16 | 5 | 1 | 22 | 0 | 0 | 76,2% | 4,5% | | |
| İran | H/Bİ | 0 | 0 | 18 | 0 | 17 | 1 | 18 | 0 | 0 | 0,0% | 5,6% | 61,1% | 65,0% |
| İran | B/Bİ | 16 | 16 | 11 | 1 | 11 | 2 | 14 | 13 | 13 | 8,3% | 14,3% | | |
| Yəmən | H/Bİ | 0 | 0 | 5 | 0 | 5 | - | 5 | 0 | 0 | 0,0% | 0,0% | 37,5% | 73,9% |
| Yəmən | B/Bİ | 0 | 0 | 8 | 3 | 0 | 0 | 3 | 5 | 5 | 100,0% | 0,0% | | |
| Suriya | H/Bİ | 0 | 0 | 5 | 0 | 4 | 0 | 4 | 1 | 1 | 0,0% | 0,0% | 80,7% | 97,3% |
| Suriya | B/Bİ | 7 | 7 | 6 | 6 | 0 | 0 | 6 | 7 | 7 | 100,0% | 0,0% | | |

1) H – hökumət; B – BMT QAK; Bİ – birinci instansiya.
2) Himayə göstəriciləri (BMT QAK-ın metodologiyası əsasında ekspertin hesablamaları):
Qaçqın statusunun tanınması göstəricisi: statusu tanınmış şəxslərin ümumi sayı bölünsün statusu tanınmış şəxslərin, barələrində müsbət qərar qəbul edilmiş digər şəxslərin və barələrində imtina haqqında qərar qəbul edilmiş şəxslərin sayına;
Statusun tanınması üzrə ümumi göstərici: statusu tanınmış şəxslərin sayı üstəgəl barələrində müsbət qərar qəbul edilmiş digər şəxslərin sayı bölünsün statusu tanınmış şəxslərin, barələrində müsbət qərar qəbul edilmiş və barələrində imtina haqqında qərar qəbul edilmiş şəxslərin ümumi sayına;
Bağlanmış işlər üzrə göstərici: qəbul edilmiş qərarların ümumi sayı bölünsün bağlanmış işlərin sayına.
3) Yalnız birinci instansiyada qəbul edilmiş qərarlar.
"-" = məlumat mövcud deyil.

*Mənbələr: BMT QAK, 2018; AVROSTAT, 2016; ekspertin hesablamaları.*

## 5.5 Qanunsuz miqrasiya

Son illər ərzində Azərbaycan Respublikası ərazisində çoxlu sayda qanunsuz qalma halları aidiyyəti dövlət orqanları tərəfindən müəyyən olunmuşdur. Bu hallar əsasən Rusiya, Türkiyə və Gürcüstan vətəndaşları ilə əlaqədar olsa da, bunu Ukrayna, İran, İraq və digər ölkələrin vətəndaşlarına da aid etmək olar. 2016-cı ildə ölkə ərazisində 26.000-dən bir qədər çox qanunsuz qalma halı qeydə alınmışdır (Cədvəl 18-ə baxın). Bu şəxslərin 70%-i barədə ölkə ərazisini 48 saat ərzində tərk etmək qərarı qəbul edilmişdir. Onların 21%-i məcburi qaydada geri qaytarılmışdır (onların əksəriyyəti Rusiya vətəndaşı idi), qalan 9%-nin isə ölkədə yaşaması leqallaşdırılmışdır (həmin şəxslərin çoxu Türkiyə vətəndaşı idi).

2016-cı ildə ölkədə qanunsuz qalma hallarının ümumi sayı 2015-ci ildə qeydə alınmış halların sayı ilə təxminən eyni olsa da (26.369 hal), 2014-cü (37.420 hal) və 2013-cü il ilə (33.617 hal) müqayisədə az idi. 2008 və 2009-cu illərə aid hesabatlarda əhəmiyyətli dərəcədə az sayda hallar barədə məlumat verilir (həmin illərdə müvafiq olaraq 409 və 2.158 şəxsin “ölkədə qalmasına rədd cavabı verilmişdir”) (MSİBM, 2011).

**CƏDVƏL 18. 2016-cı ildə Azərbaycan Respublikası ərazisində qeyri-qanuni qalma və bu ölkədən geri qaytarılma hallarının sayı**

| Ölkələr | Müəyyən edilmiş qanunsuz hallar | Məcburi geri qaytarılma halları (ölkə hüdudlarından kənara inzibati qaydada çıxarılma) | (48 saat ərzində) ölkəni tərk etmək barədə qərar | Ölkədə yaşamanın leqallaşdırılması |
|---|---|---|---|---|
| Rusiya | 11.531 | 1.831 | 9.149 | 551 |
| Türkiyə | 3.820 | 809 | 2.519 | 492 |
| Gürcüstan | 3.086 | 586 | 2.362 | 138 |
| Ukrayna | 944 | 258 | 578 | 108 |
| İran | 939 | 305 | 521 | 113 |
| İraq | 610 | 230 | 224 | 156 |
| Qazaxıstan | 458 | 134 | 272 | 52 |
| Böyük Britaniya | 423 | 26 | 330 | 67 |
| Özbəkistan | 419 | 161 | 204 | 54 |
| Banqladeş | 338 | 209 | 58 | 71 |
| Digər ölkələr | 3.867 | 974 | 2.323 | 570 |
| Cəmi | 26.435 | 5.523 | 18.540 | 2.372 |

*Mənbə: DMX, 2017g.*

# 6. EMİQRASİYA

## 6.1 Giriş

Post-sovet respublikaları arasında ən yüksək emiqrasiya göstəricilərindən biri Azərbaycanda qeydə alınmışdır. 2000-ci ildə təxmini emiqrasiya göstəricisi, başqa sözlə, bu ölkədən emiqrasiya edən şəxslərin sayının əhalinin ümumi sayına nisbəti 15,6% təşkil edirdi (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı/İƏİT, 2010). Bu keçmiş sovet respublikalarından Belarus (15,5%) və ya Moldova ilə (14,3%) müqayisədə ən yüksək göstəricilərdən biri olsa da, Gürcüstan (18,2%), Ermənistan (18,5%) və ya Qazaxıstanla (22,2%) müqayisədə nisbətən aşağıdır.

Lakin müstəqillik dövrünün sonrakı illərində Azərbaycan üzrə emiqrasiya göstəricisi daima azalmaqdadır. Biz əhalinin sayı ilə əlaqədar Dövlət Statistika Komitəsi tərəfindən dərc edilmiş statistik məlumatları, habelə emiqrant və immiqrantların sayı ilə bağlı BMTİSMD-nin Əhali Şöbəsi tərəfindən aparılmış hesablamaları əsas götürərək 1990-cı ildən 2015-ci iladək emiqrasiya göstəricilərini müəyyən etmişik (Cədvəl 19-a baxın).

Müstəqillik bərpa edilməzdən əvvəl, 1990-cı ildə qeydə alınmış emiqrasiya göstəricisi 19,4%-dən 2000-ci ildə 17,4% səviyyəsinə enmişdir.[9] 2010 və 2015-ci illərdə qeydə alınmış göstəricilər isə (müvafiq olaraq 11,9% və 10,9%) azalma tendensiyasının daima davam etdiyini nümayiş etdirir. Bu, Azərbaycanda (yerli) əhalinin sayının artması ilə və ölkədən gedən emiqrantların sayının azalması ilə əlaqədar olsa da, ilk növbədə 2010-cu ildən etibarən əhalinin sayında baş verən sürətli artımdan, ölkədə doğulanların ölənlərlə müqayisədə böyük say çoxluğundan irəli gəlir (Cədvəl 1-ə baxın).

**Emiqrasiya göstəricisi mənşə ölkəsindəki emiqrantların sayının yerli əhalinin sayına nisbəti əsasında müəyyən edilir.**

**İlk növbədə əhalinin sayının artması səbəbindən Azərbaycan üzrə emiqrasiya göstəricisi daima azalaraq 1990-cı ildə qeydə alınmış 19,4%-dən 2015-ci ildə 10,9% səviyyəsinə enmişdir.**

**CƏDVƏL 19. 1990-2015-ci illərdə Azərbaycan Respublikası üzrə emiqrasiya göstəriciləri**

| Əhali qrupları | 1990 | 1995 | 2000 | 2005 | 2010 | 2015 |
|---|---|---|---|---|---|---|
| Əhalinin ümumi sayı (ilin əvvəlinə) | 7.131.900 | 7.643.500 | 8.032.800 | 8.447.400 | 8.997.600 | 9.593.000 |
| İmmiqrantlar (xaricdə doğulmuşlar) | 360.600 | 344.070 | 327.540 | 302.220 | 276.901 | 264.241 |
| Yerli əhali | 6.771.300 | 7.299.430 | 7.705.260 | 8.145.180 | 8.720.699 | 9.328.759 |
| Emiqrantlar | 1.634.021 | 1.712.735 | 1.628.105 | 1.447.042 | 1.178.793 | 1.146.769 |
| Emiqrasiya göstəricisi | 19,4% | 19,0% | 17,4% | 15,1% | 11,9% | 10,9% |

*Mənbələr: AZSTAT, 2016; BMTİSMD, 2015b; ekspertin hesablamaları.*

[9] İƏİT tərəfindən verilmiş bu göstərici təxmini hesab olunmalıdır, çünki hesablamalar zamanı Azərbaycan Respublikasının yalnız yerli əhalisinin sayı nəzərə alınmışdır.

## 6.2 Azərbaycanlı emiqrantlar

Müvafiq təyinat ölkələrində siyahıyaalma nəticəsində əldə olunmuş məlumatlar əsasında BMT-nin beynəlxalq miqrantlara dair hesablamaları bu bölmədə təhlil olunur.

Rusiya Azərbaycandan gedən miqrantların böyük əksəriyyəti üçün əsas təyinat ölkəsi olaraq qalmaqdadır. 1990-cı illərin əvvəlləri ilə müqayisədə bu cür miqrantların sayında azalma müşahidə olunsa da, 2015-ci ilə aid ən son hesablamalar təxminən 767.000 nəfər azərbaycanlı (Azərbaycanda doğulmuş) miqrantın Rusiyada yaşadığını göstərir (Cədvəl 20-yə baxın). 2010-cu ildə Rusiyada keçirilmiş əhalinin siyahıya alınmasına əsasən bu ölkədə 743.854 azərbaycanlı (Azərbaycanda doğulmuş şəxs) yaşayır (BMTİSMD, 2017). Başqa sözlə, azərbaycanlı emiqrantların üçdə ikisi Rusiyada yaşayır. Rusiyada qeyri-qanuni əməkçi miqrantlar arasında da azərbaycanlı miqrantların sayı çoxdur (Yunusov, 2012). 2015-ci ildə Rusiyada qanuni iş icazəsi əsasında əmək fəaliyyəti ilə məşğul olanlar arasında Azərbaycan Respublikası vətəndaşları yalnız 48.846 nəfər təşkil edirdi (ROSSTAT, 2016a). Bu ölkədə yaşayan azərbaycanlı miqrantların ümumi sayı ilə müqayisədə qeyd olunmuş rəqəmin elə də böyük olmamasını onunla izah etmək olar ki, həmin miqrantların çoxu qanuni əsaslarla daimi yaşadığından onlar üçün iş icazəsi tələb olunmur.

Azərbaycandan olan emiqrantların sayının təyinat ölkələri üzrə təhlilinə əsasən Azərbaycandan xaricə miqrasiya proseslərinin regional xarakter daşıdığını və əksər hallarda keçmiş SSRİ respublikalarına istiqamətləndiyini hesab etmək mümkündür. Bu emiqrantların beş əsas təyinat ölkəsini keçmiş SSRİ respublikaları təşkil edir. Bu ölkələrdə (Baltikyanı ölkələri çıxmaq şərtilə) Azərbaycandan olan emiqrantların sayına aid rəqəmləri topladıqda görmək olar ki, 2015-ci ildə həmin emiqrantların 90%-dən çoxu məhz sözügedən ölkələrdə cəmləşmişdir.

Azərbaycanda doğulmuş miqrantların ikinci əsas təyinat ölkəsi Ermənistan hesab olunur ki, burada təxminən 88.000 nəfər Azərbaycandan olan emiqrant (böyük ehtimalla etnik ermənilər) yaşayır: həmin miqrantların sayının azalması və tərkibində əsasən 50-59 yaşlı və yaşı 70-dən yuxarı olan insanların olması bu cür miqrasiya prosesinin çoxdan və əsasən çoxsaylı qrup şəklində baş verdiyinə işarə edir (ARMSTAT, 2011). Ermənistanda aparılan statistikaya əsasən bu miqrantlar Dağlıq Qarabağda (22%) və Azərbaycanın rayonlarında (78%) doğulmuşlar kimi təsnif olunur. Əhalinin bu qrupu, xüsusən də onun hüquqi statusu və vətəndaşlıq mənsubiyyəti haqqında əlavə informasiya mövcud deyil.

Son on il ərzində Ukraynada yaşayan azərbaycanlı emiqrantların sayı sabit olaraq qalmaqdadır: 2015-ci ildə bu ölkədə təxminən 82.000 nəfər Azərbaycanda doğulmuş miqrant yaşayırdı. Sözügedən təyinat ölkələri arasında Qazaxıstan dördüncü yerdədir və burada 48.000 azərbaycanlı emiqrant yaşasa da, 2005-ci ildən etibarən onların sayında azalma tendensiyası müşahidə olunur. Hesablamalara əsasən ümumilikdə təxminən 60.000 nəfər azərbaycanlı emiqrant (hər ölkədə təqribən 20.000 emiqrant olmaqla) Özbəkistanda, ABŞ-da və Almaniyada məskunlaşıb. Son zamanlar ABŞ və xüsusilə Almaniya azərbaycanlı emiqrantlar üçün cəlbedici təyinat ölkələrinə çevrilməkdədir, çünki 1990-cı ildən etibarən onların həmin ölkələrdə sayı (ABŞ-da) iki dəfə artmışdır və "amil 32" əsasında (Almaniyada) çoxalmışdır (Cədvəl 20-yə baxın). 2015-ci ildə təxminən 13.500 azərbaycanlı emiqrantın İsraildə və eyni sayda emiqrantın Belarusda yaşaması onların sayının bu ölkələrdə bir qədər azalmasını göstərir.

Bütövlükdə götürəndə, Aİ-28, ilk növbədə Almaniya, Fransa, Böyük Britaniya və İsveç azərbaycanlı emiqrantlar üçün vacib təyinat məkanına çevrilməkdədir. BMT-nin hesablamalarına əsasən 2015-ci ildə Aİ-28-də Azərbaycandan olan emiqrantların sayı 42.000 nəfərdən çox idi. (Aİ-yə üzv olmayan) 12 post-sovet respublikasında bu cür emiqrantların sayında azalma müşahidə olunsa da, hələlik onların sayı bir milyondan çoxdur.

Rusiyadakı azərbaycanlı emiqrantların çoxu topdan və pərakəndə ticarət, inşaat, emal sənayesi və nəqliyyat sahələrində əsasən qanunsuz şəkildə işləyir. ABŞ-dakı azərbaycanlı miqrantlar əsasən inşaat sektorunda ixtisas tələb etməyən işlərdə (kişilər), ev təsərrüfatlarında, dayə kimi (qadınlar) və yanacaq doldurma məntəqələrində (kişilər və qadınlar) çalışırlar (Yunusov, 2012: 3f).

**CƏDVƏL 20. 1990-2015-ci illərdə Azərbaycandan olan beynəlxalq miqrantların (xaricdə doğulmuşların (X) və qaçqınların (Q)) 10 əsas təyinat ölkəsi üzrə sayı**

| Təyinat ölkəsi/ regionu | Miqrantların növü | 1990 | 1995 | 2000 | 2005 | 2010 | 2015 |
|---|---|---|---|---|---|---|---|
| Rusiya | X | 936.852 | 905.728 | 841.759 | 805.658 | 752.975 | 767.339 |
| Ermənistan | X Q | 464.459 | 560.521 | 525.188 | 376.174 | 142.156 | 87.675 |
| Ukrayna | X | 81.482 | 87.250 | 94.083 | 85.967 | 82.025 | 82.299 |
| Qazaxıstan | X | 35.789 | 35.661 | 35.532 | 40.508 | 45.483 | 48.377 |
| Özbəkistan | X | 23.261 | 22.987 | 22.744 | 22.504 | 21.360 | 20.357 |
| ABŞ | X | 9.026 | 11.382 | 14.205 | 15.311 | 16.605 | 19.799 |
| Almaniya | X | 600 | 6.621 | 12.642 | 15.592 | 18.541 | 19.180 |
| Türkiyə | X Q | 4.062 | 9.832 | 15.638 | 16.114 | 16.605 | 16.856 |
| İsrail | X Q | 14.696 | 15.271 | 14.990 | 13.969 | 13.118 | 13.529 |
| Belarus | X | 15.651 | 14.826 | 14.000 | 13.806 | 13.611 | 13.493 |
| Digər ölkələr | | 48.143 | 42.656 | 37.324 | 41.439 | 56.314 | 57.865 |
| Aİ-28 | | 8.569 | 15.560 | 23.269 | 31.705 | 39.920 | 42.677 |
| Cəmi (dünya üzrə) | | 1.634.021 | 1.712.735 | 1.628.105 | 1.447.042 | 1.178.793 | 1.146.769 |

*Mənbə: BMTİSMD, 2015b.*

2016-cı ilin sonunda sayı 26.000 nəfərdən çox olan Azərbaycan Respublikası vətəndaşı Aİ-yə üzv olan 28 dövlətdən birində qanuni yaşamaq üçün icazə əsasında məskunlaşmışdır. Bu cür icazələrə daha çox Almaniyada (11.463 nəfər), Fransada (3.297 nəfər), Böyük Britaniyada (1.941 nəfər), Hollandiyada (1.935 nəfər) və İsveçdə (1.621 nəfər) yaşayan Azərbaycan Respublikası vətəndaşları malik idi (Cədvəl 21-ə baxın).

Ümumilikdə götürəndə, bu icazələrin dörddə biri (26%-i) ailə səbəblərindən, yeddidə biri (13%-i) təhsil məqsədilə və yalnız 9%-i əmək fəaliyyəti ilə məşğul olmaq üçün verilmişdir. Qaçqın statusunun və ya əlavə himayənin verilməsi səbəbindən rəsmiləşdirilmiş icazələr bütün icazələrin 18%-ni təşkil edirdi. İcazələrin qalan hissəsi (34%-i) başqa səbəblərə görə verilmişdir. Böyük Britaniya daha çox tələbələr üçün cəlbedici ölkə hesab olunur – bu ölkədə yaşamaq üçün verilmiş icazələrin 56%-i təhsil məqsədilə rəsmiləşdirilmişdir. Eyni zamanda, İtaliyada da yaşamaq üçün verilmiş icazələrin 47%-i təhsil məqsədi daşıyır. Ailə səbəbləri daha çox İsveçdə üstünlük təşkil edir ki, bu ölkədə yaşamaq üçün icazələrin təxminən yarısı (48%-i) qeyd olunan səbəbə görə verilmişdir. Polşada yaşayan Azərbaycan Respublikası vətəndaşlarının 43%-i arasında əmək fəaliyyəti ilə məşğul olma səbəbləri daha böyük əhəmiyyət kəsb edir. Beynəlxalq müdafiə (qaçqın statusunun verilməsi və əlavə himayə) daha çox Fransada yaşamaq üçün, ümumilikdə 65% icazələrin verilməsində əsas kimi istifadə olunmuşdur.

**CƏDVƏL 21. Aİ-yə üzv olan 10 əsas təyinat ölkəsində müvafiq səbəblərə görə yaşamaq üçün verilmiş icazələrin sayı (2016-cı il dekabrın 31-i üçün olan məlumatlar)**

| İcazənin verilmə səbəbi / Yaşayış yeri | Cəmi | Ailə səbəbləri | Təhsil məqsədləri | Haqqı ödənilən əmək fəaliyyəti | Qaçqın statusu alma | Əlavə himayə ilə təmin olunma | Başqa səbəblər |
|---|---|---|---|---|---|---|---|
| Almaniya | 11.463 | 3.210 | 703 | 628 | 1.289 | 572 | 5.061 |
| Fransa | 3.297 | 666 | 152 | 69 | 2.075 | 58 | 277 |
| Böyük Britaniya | 1.941 | 487 | 1.078 | 301 | 16 | 2 | 57 |
| Hollandiya | 1.935 | 202 | 127 | 68 | 33 | 24 | 1.481 |
| İsveç | 1.621 | 770 | 18 | 108 | 234 | 64 | 427 |
| Çexiya | 1.093 | 249 | 258 | 255 | 23 | 2 | 306 |
| Polşa | 994 | 116 | 322 | 427 | 3 | 5 | 121 |
| İtaliya | 693 | 193 | 329 | 87 | 35 | 23 | 26 |
| İspaniya | 581 | 170 | 101 | 49 | 33 | 0 | 228 |
| Avstriya | 557 | 77 | 113 | 10 | 0 | 0 | 357 |
| **Aİ-28** | 26.485 | 6.955 | 3.543 | 2.315 | 3.842 | 754 | 9.076 |
| Ölkədə yaşamaq üçün verilmiş icazələrin % nisbəti | 100% | 26% | 13% | 9% | 15% | 3% | 34% |

*Mənbə: AVROSTAT, 2017b.*

## 6.3 Yeni emiqrasiya axınları və metodoloji çətinliklər

Emiqrasiya axınlarını yalnız mənşə ölkələrinin müvafiq informasiya mənbələri əsasında hərtərəfli qiymətləndirmək çox çətindir. Emiqrantlardan müvafiq dövlət orqanlarına məlumat verməlri tələb olunsa da, qeydiyyatdan çıxma proseduru heç də həmişə yerinə yetirilmir (Jensen, 2013). Lakin buna baxmayaraq, empirik məlumatların toplanması sahəsində tətbiq olunan yanaşmalardan biri təyinat ölkələrində mövcud olan mənbələrə istinad etməyi nəzərdə tutur. Avropa İttifaqının Statistika İdarəsi (AVROSTAT) Aİ-yə üzv olan bütün ölkələrlə yanaşı Avropanın, Şərqi və Mərkəzi Asiyanın 18 ölkəsi üzrə illik immiqrasiya statistikasını təqdim edir. Bundan başqa, aşağıda təqdim olunmuş statistik məlumatlar Almaniyanın, Rusiyanın və Gürcüstanın dövlət statistika təşkilatlarından götürülmüşdür.

İstənilən iki ölkə arasında emiqrasiya və immiqrasiya axınları ilə əlaqədar istifadə olunan yanaşmalar miqrantları hərtərəfli əhatə etmək məqsədi daşıdığından bu yanaşmaların oxşar anlayışlar üzərində qurulduğunu ehtimal etmək mümkündür. Biz immiqrasiya statistikasını yalnız mənşə ölkəsi meyarlarından istifadə etməklə nəzərdən keçirsək, görərik ki, 2015-ci ildə Azərbaycandan xarici ölkələrə ən azı 28.600 nəfər emiqrasiya etmişdir və bu rəqəm Azərbaycan üzrə rəsmi miqrasiya statistikasından qat-qat yüksəkdir. Bu emiqrantların 84%-i (24.109 nəfər) Rusiyada qeydiyyata alınmışdır (Cədvəl 22-yə baxın). Birbaşa Azərbaycandan gəlmiş 3.703 immiqrantı qəbul edən Almaniya ikinci yerdədir. Avropanın digər ölkələrinə gəldikdə, son illər ərzində bu ölkələr Azərbaycandan çox az sayda illik miqrasiya axınlarını qəbul etmişdir.

Qeyd etmək lazımdır ki, Azərbaycandan emiqrasiya axınlarını qəbul edən Ukrayna, Qazaxıstan, Özbəkistan, ABŞ, Türkiyə və Gürcüstan kimi əsas təyinat ölkələri bu cür statistikaya daxil edilməyib. Belə olan halda emiqrantların sayı daha da çox ola bilərdi.

**CƏDVƏL 22. 2007-2016-cı illər ərzində Azərbaycandan Aİ-nin seçmə əsas ölkələrinə + Rusiyaya emiqrasiya etmiş insanların sayı**

| Təyinat ölkəsi | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Rusiya | 20.968 | - | - | 14.500 | 22.316 | 22.287 | 23.453 | 26.367 | 24.326 | 24.109 |
| Almaniya | 768 | 818 | - | - | - | 1.359 | 1.665 | 2.178 | 3.419 | 3.703 |
| İsveç | 153 | 132 | 178 | 202 | 232 | 233 | 183 | 187 | 173 | 233 |
| Hollandiya | 66 | 82 | 82 | 114 | 123 | 89 | 98 | 121 | 97 | 117 |
| Avstriya | 87 | 95 | - | - | 73 | 124 | - | 117 | 99 | 93 |
| İsveçrə | - | - | - | - | 91 | 96 | 123 | 113 | 81 | 68 |
| Litva | 19 | 8 | 11 | 13 | 27 | 41 | 37 | 85 | 39 | 87 |
| Norveç | 47 | 70 | 43 | 64 | 66 | 65 | 46 | 41 | 40 | 20 |
| Belçika | - | - | - | 92 | 109 | 87 | 46 | 40 | 72 | 47 |
| İtaliya | - | 37 | 35 | 51 | 39 | 35 | 43 | 29 | 52 | 61 |

“-“ = məlumat mövcud deyil.
Cədvəlin tam versiyası ilə tanış olmaq üçün Əlavədə verilmiş Cədvəl 31-ə baxın.

*Mənbələr: AVROSTAT, 2018a; Statistisches Bundesamt, 2014, 2015, 2017, 2018; ROSSTAT, 2016a, b, 2017.*

Bundan başqa, immiqrasiya statistikasını immiqrantların vətəndaşlıq mənsubiyyəti əsasında təhlil etmək olar. 2016-cı ildə Rusiyanın müvafiq orqanları bu ölkəyə immiqrasiya etmiş 18.274 nəfər Azərbaycan Respublikası vətəndaşını qeydiyyata almışdır (Cədvəl 23-ə baxın). Bu istənilən bir ölkəyə ən çoxsaylı miqrasiya axınlarından biri hesab olunur. 2016-cı ildə Azərbaycandan 3.985 emiqrantı qəbul etmiş Almaniya təyinat ölkəsi kimi ikinci yerdədir, Azərbaycandan 3.420 emiqrantın təyinat ölkəsi olmuş Gürcüstan üçüncüdür. Avropanın digər təyinat ölkələri Azərbaycandan nisbətən azsaylı immiqrasiya axınları barədə məlumat verirlər, məsələn İsveç (238 nəfər), Macarıstan (200 nəfər), Çexiya (136), Hollandiya (118 nəfər) və Avstriya (95 nəfər). 2005-2012-ci illərdə ABŞ-da yaşamaq üçün verilmiş icazələrə aid statistik məlumatlar da bu ölkəyə Azərbaycandan davamlı axınlar barədə məlumat verir – Azərbaycanda anadan olmuş immiqrantlara bu ölkədə yaşamaq üçün hər il verilən icazələrin sayı 600 - 2.400 vəsiqə arasında dəyişirdi (ABŞ Daxili Təhlükəsizlik Nazirliyi, 2013).

**CƏDVƏL 23. 2007-2016-cı illərdə Aİ-nin əsas seçmə ölkələrinə, Rusiyaya və Gürcüstana immiqrasiya etmiş Azərbaycan Respublikası vətəndaşlarının sayı**

| Təyinat ölkəsi | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Rusiya | 7.448 | 6.657 | 6.225 | 4.929 | 16.572 | 17.126 | 18.027 | 21.507 | 19.432 | 18.274 |
| Almaniya | 747 | 831 | - | - | - | 1.306 | 1.705 | 2.196 | 3.154 | 3.985 |
| Gürcüstan | - | - | - | - | - | 1.883 | 3.211 | 2.163 | 2.839 | 3.420 |
| İsveç | 155 | 114 | 176 | 228 | 250 | 247 | 196 | 193 | 179 | 238 |
| Avstriya | 85 | 102 | - | - | 70 | 123 | - | 117 | 100 | 95 |
| İsveçrə | 51 | 64 | 70 | 104 | 108 | 103 | 127 | 109 | 84 | 76 |
| Hollandiya | 25 | 53 | 43 | 61 | 61 | 51 | 65 | 107 | 82 | 118 |
| Macarıstan | 16 | 32 | 24 | 32 | 31 | 35 | 45 | 83 | 75 | 200 |
| Litva | 16 | 5 | 6 | 13 | 25 | 38 | 34 | 81 | 36 | 85 |
| Çexiya | 317 | 91 | 110 | 213 | 58 | 154 | 39 | 47 | 34 | 136 |

“-“ = məlumat mövcud deyil.
Cədvəlin tam versiyası ilə tanış olmaq üçün Əlavədə verilmiş Cədvəl 34-ə baxın.

*Mənbələr: AVROROSTAT, 2018b; Statistisches Bundesamt, 2016, 2017; ROSSTAT, 2015b, 2017; GEOSTAT, 2018.*

Ümumilikdə götürəndə, 2016-cı ildə ən azı 26.913 nəfər Azərbaycan Respublikası vətəndaşı başqa ölkələrə emiqrasiya etmişdir. Bu, ən minimal rəqəm hesab olunmalıdır, çünki burada 2016-cı il üzrə təhlil edilən informasiya yalnız Aİ-28-i, İsveçrəni, Norveçi, İslandiyanı, Rusiyanı və Gürcüstanı təyinat ölkələri kimi əhatə edir. Yuxarıda qeyd olunduğu kimi, Azərbaycandan emiqrasiya axınlarını qəbul edən Ukrayna, Qazaxıstan, Özbəkistan və ABŞ kimi əsas təyinat ölkələri bu cür statistikaya daxil edilməyib. Eyni zamanda, qeyri-qanuni miqrantlar da rəsmi miqrasiya statistikası ilə əhatə olunmur.

### 6.3.1 Tələbələrin yerdəyişmələri

YUNESKO ali təhsil almaq məqsədilə əcnəbi tələbələrin yerdəyişmələri barədə məlumatlar təqdim edir. Nisbətən dolğun məlumatların mövcud olduğu 2015-ci ildə (məlumatların mövcud olmadığı Böyük Britaniyanı, Fransanı və bir neçə başqa ölkəni çıxmaq şərtilə) xarici ölkələrin ali təhsil müəssisələrində təhsil alan rekord sayda, 38.000-dən çox azərbaycanlı tələbə qeydə alınmışdır. Bu sahəyə aid olan rəqəmlər natamam olsa da belə, 2012-ci ildən etibarən xaricdə qeydə alınmış azərbaycanlı tələbələrin sayının, ABŞ-ı, Belarusu və Fransanı çıxmaq şərtilə, bütün təyinat ölkələrində artdığını müşahidə etmək olar (Cədvəl 24-ə baxın).

2015-ci ildə Azərbaycandan olan tələbələr üçün əsas təyinat ölkələri Rusiya (14.083 tələbə qeydə alınmışdır), Türkiyə (10.638 tələbə) və Ukrayna (9.257 tələbə) idi. Təyinat ölkəsinin dövlət dilində danışma bacarığı tələbələrin seçiminə təsir edən həlledici amil hesab olunur və bu yerdəyişmələrin əsasən regional xarakter daşıması səbəbini izah edir.

**CƏDVƏL 24. 2010-2016-cı illərdə ali təhsil məqsədilə Azərbaycandan getmiş tələbələrin 15 əsas təyinat ölkəsi üzrə sayı**

| Təyinat ölkəsi | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|
| Rusiya | - | 12.161 | 8.744 | - | 12.680 | 14.083w | - |
| Türkiyə | 2.819 | 3.668 | 4.412 | 6.989 | 6.901 | 10.638 | - |
| Ukrayna | (n) | (n) | (n) | (n) | 7.599 | 9.257 | - |
| Gürcüstan | 229 | 336 | 280 | 860 | - | 1.372 | - |
| Böyük Britaniya | 302 | 445 | 574 | 638 | 783 | - | - |
| Almaniya | 384e | - | - | 580 | 642 | 667 | - |
| Qazaxıstan | 116 | 170 | 91 | 102 | 124 | 163 | 665 |
| ABŞ | 405 | 432 | 446 | 371 | 364 | 387 | - |
| Belarus | 184 | 279 | 307 | 291 | 293 | 362 | - |
| Çexiya | 58 | 86 | 133 | 185 | 209 | 209 | - |
| Fransa | 210 | 232 | 252 | 216 | 201 | - | - |
| İtaliya | 31 | 48 | 47 | 55 | 113 | 156 | - |
| Latviya | 13 | 22 | 44 | 97 | 125 | 137 | - |
| Litva | 3 | 20 | 56 | 97 | 155 | 126 | - |
| Polşa | 31 | 29 | 53 | 84 | 117 | - | - |

e - YUNESKO-nun hesablamaları.
w - Başqa kateqoriyadan rəqəmləri özündə əks etdirir.
(n) - tələbələrin sayı sıfıra bərabərdir və ya həddindən artıq azdır.
“-“ = məlumat mövcud deyil.

*Mənbə: YUNESKO, 2017.*

## 6.4 Azərbaycandan olan sığınacaq axtaranlar və qaçqınlar

Dağlıq Qarabağda davam edən müharibə səbəbindən ölkə daxilində olduğu kimi beynəlxalq miqyasda da çoxlu sayda yerdəyişmələr qeydə alınmaqdadır. 2015-ci ilin sonuna Azərbaycandan ümumilikdə 9.712 nəfər xaricdə qaçqın statusu və ya başqa müsbət status əldə etmişdir və həmin il ərzində statusun tanınması ilə əlaqədar 517 yeni hal qeydə alınmışdır (Cədvəl 25 və 26-ya baxın). Azərbaycandan olan qaçqınların əsasən Fransada, Almaniyada və Ermənistanda cəmləşməsi bu cür qruplar arasında etnik fərqlərin mövcud olduğunu göstərir.

Azərbaycandan olan çox az sayda qaçqın yuxarıda qeyd olunmuş müvafiq ölkələrdə 2015-ci ildə naturalizasiya edildiyindən (63 nəfər Fransada, 53 nəfər Ermənistanda), ümumi statistik təsnifatlardan kənarda qalmışdır (Cədvəl 25-ə baxın). Ümumiyyətlə, bu cür insanların sayında azalmadan çox artım müşahidə olunmaqdadır – 2015-ci ildə Azərbaycandan olan qaçqınların ümumi sayı çoxalmışdır.

Azərbaycandan olan sığınacaq axtaranların qaçqın statusunun dünya ölkələri üzrə tanınması göstəricisi 17%-ə bərabərdirsə, əlavə himayə formaları da daxil olmaqla statusla bağlı qəbul edilmiş müsbət qərarlar 22% təşkil edir (Cədvəl 26-ya baxın). Başqa sözlə, təqdim olunmuş beş vəsatətdən təxminən dördü təmin olunmur. 2015-ci ildə təqdim olunmuş yeni vəsatətlərin sayı çox (3.800 vəsatət), bu vəsatətlərlə bağlı qəbul edilmiş qərarların sayı isə nisbətən az olduğundan (2.904 qərar) həmin ilin sonunda baxılmamış vəsatətlərin ümumi sayı 5.230-a çatmışdır (bu cür vəsatətlərin çoxu Almaniyada qeydiyyata alınmışdır).

Azərbaycandan olan qaçqınların statusunun sığınacaq ölkələrindən asılı olaraq tanınmasına aid göstəricilər də dəyişir (BMT QAK, 2016; ölkələrin adı göstərilməyib). Üç əsas sığınacaq ölkəsi arasında statusun tanınması ilə (qəbul edilmiş bütün müsbət qərarlarla) bağlı ən aşağı statistik göstəricilər Fransada (birinci instansiyada/inzibati qaydada qəbul edilmiş qərarlar – 12%/22%-ə), ən yüksək göstəricilər isə Almaniyada (ilk dəfə/təkrar təqdim olunmuş vəsatətlər – 29%/50%-ə) və İsveçdə (birinci instansiyada/təkrar təqdim olunmuş vəsatətlər – 33%/45%-ə) qeydə alınmışdır.

**CƏDVƏL 25. 2015-ci ildə Azərbaycandan olan sığınacaq axtaranlar da daxil olmaqla qaçqınların sayı və onların sayının sığınacaq ölkələri üzrə dəyişməsi**

| Sığınacaq ölkəsi | 2015-ci ilin əvvəlinə olan məlumat | | 2015-ci il ərzində əsas artımlar | 2015-ci il ərzində əsas azalmalar | 2015-ci ilin sonuna olan məlumat | |
|---|---|---|---|---|---|---|
| | Cəmi | onlardan vəsatətlərinə BMT QAK-ın köməyi ilə baxılanların sayı | Fərdi statusu tanınmış şəxslərin sayı | Naturalizasiya olunmuş şəxslərin sayı | Cəmi | onlardan vəsatətlərinə BMT QAK-ın köməyi ilə baxılanların sayı |
| Ermənistan | 1.554 | 1.554 | - | 53 | 1.501 | 1.501 |
| Fransa | 2.771 | - | 201 | 63 | 2.816 | - |
| Almaniya | 2.167 | - | 102 | - | 2.171 | - |
| Digər ölkələr | - | - | 214 | - | 3.224 | 50 |
| Cəmi | - | - | 517 | - | 9.712 | 1.551 |

2015-ci ilin sonunda sayı 1.000 nəfərə bərabər və ya daha çox olan qaçqınlarla bağlı məlumatlar bu cədvələ daxil edilib. "-" işarəsi müvafiq rəqəmin sıfıra bərabər olduğunu və ya mövcud olmadığını göstərir.

*Mənbə: BMT QAK, 2016.*

**CƏDVƏL 26. 2015-ci ildə bütün sığınacaq ölkələrində Azərbaycandan olan şəxslər tərəfindən sığınacaq almaq üçün təqdim olunmuş vəsatətlərin sayı və qaçqın statusunun müəyyənləşdirilməsi üzrə göstəricilər**

| 2015-ci ilin əvvəlində baxılmamış vəsatətlər | 2015-ci il ərzində təqdim olunmuş vəsatətlər | 2015-ci il ərzində qəbul edilmiş qərarlar | | | | | 2015-ci ilin əvvəlində baxılmamış vəsatətlər | Himayə göstəriciləri[1] | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Müsbət qərarlar | | İmtina qərarları | Bağlanmış işlər | Cəmi | | Statusun tanınma göstəricisi (%) | | Bağlanmış işlər (%) | Baxılmamış işlərin sayında fərq (%) |
| | | Konvensiya statusunun verilməsi | Əlavə himayənin verilməsi | | | | | Qaçqın statusu | Cəmi | | |
| 4.561 | 3.800 | 394 | 123 | 1.801 | 586 | 2.904 | 5.230 | 17,0 | 22,3 | 20,2 | 14,7 |

[1] (BMT QAK tərəfindən hesablanmış) himayə göstəriciləri:
Qaçqın statusunun tanınması göstəricisi: qaçqın statusu tanınmış şəxslərin sayı bölünsün statusu tanınmış, barələrində müsbət qərar qəbul edilmiş və imtina qərarları almış şəxslərin ümumi sayına * 100%.
Statusun tanınması üzrə ümumi göstərici (cəmi): statusu tanınmış şəxslərin sayı üstəgəl barələrində müsbət qərar qəbul edilmiş şəxslərin sayı bölünsün statusu tanınmış, barələrində müsbət qərar qəbul edilmiş və imtina qərarları almış şəxslərin ümumi sayına * 100%.
Bağlanmış işlərin göstəricisi: bağlanmış işlərin sayı bölünsün qəbul edilmiş qərarların ümumi sayına * 100%.
Baxılmamış işlərin sayında fərq: 2015-ci il dekabrın 31-i üçün baxılmamış işlərin sayı minus 2015-ci il yanvarın 1-i üçün baxılmamış işlərin sayı bölünsün 2015-ci il yanvarın 1-i üçün baxılmamış işlərin sayına * 100%.

*Mənbə: BMT QAK, 2016.*

# 7. MİQRASİYA VƏ İNKİŞAF

## 7.1 Giriş

1990-cı illərin ortalarından başlayaraq Azərbaycanda ümumi iqtisadi inkişafın nəzərəçarpan dərəcədə müşahidə olunmasına baxmayaraq, müəyyən sahələrdə inkişaf baxımından çətinliklər hələ də mövcuddur. Neft və qaz sektorlarında əldə olunan gəlirlərdən güclü asılılıq, əmək qüvvəsinin kənd təsərrüfatı sektorunda cəmləşməsi, əhali arasında gənclərin sayının həddindən artıq çox olması və ali təhsil müəssisələrinə tələbə qəbulu səviyyəsinin aşağı olması inkişaf üçün risklər hesab olunur (Dünya Bankı, 2017a). Son zamanlar ali təhsilli vətəndaşların nisbətində (2015-ci il üçün 25%-dək) artımın qeydə alınması ümidverici olsa da, bu göstərici digər Avropa ölkələrində müşahidə olunan göstəricilərlə müqayisədə aşağı səviyyəli hesab olunur (Dünya Bankı, 2018).

İmmiqrantları Azərbaycana cəlb edən əsas amillərdən biri bu ölkənin iqtisadi inkişafi ilə əlaqədardır ki, son illər ərzində bu inkişaf ilk növbədə adambaşına düşən ümumi daxil məhsulun (ÜDM) kifayət qədər artması və yoxsulluğun əhəmiyyətli dərəcədə azalması ilə ifadə olunur. 2000-ci illərdə milli iqtisadiyyatın artım templəri dünya ölkələri arasında ən yüksək səviyyədə idi və 2006-cı ildə bütün ölkələrlə müqayisədə bu sahədə rekord göstərici qeydə alınmışdır. Həmin il bu göstərici 34,5% təşkil edirdi (AZSTAT, 2017d; Dünya Bankı, 2018b).

1990-cı illərin sonundan başlayaraq neft və qaz sektorlarında baş verən sürətli inkişaf Azərbaycan iqtisadiyyatının yüksəktempli artım göstəricilərinə böyük təsir göstərmişdir. 1998-2004-cü illər ərzində ÜDM-in artım templəri təxminən 10% civarlarında dəyişirdi. Növbəti üç il ərzində ÜDM-in artım templəri ən yüksək, rekord göstəricilərlə ifadə olunurdu: 2005-ci ildə 26,4%, 2006-cı ildə 34,5% və 2007-ci ildə 25,0%. Həmin illərdən sonra artım templərində azalma tendensiyası müşahidə edilməyə başlamışdır və 2011-ci ildə bu göstərici təxminən sıfır (0,1%) səviyyəsində olsa da, 2013-cü ildə qeyd alınmış növbəti yüksəliş 5,8% təşkil etmişdir. Lakin 2015-ci ildə baş vermiş eniş nəticəsində bu rəqəm 1,1%-ə bərabər idi (Qrafik 1-ə baxın).

1995-ci ildən etibarən ilk dəfə 2016-cı ildə Azərbaycan iqtisadiyyatında müəyyən dərəcədə eniş müşahidə olunmuşdur. Son məlumatlar artım tempinin mənfi olaraq -3.1%-ə bərabər olduğunu göstərir (AZSTAT, 2017d). Neft qiymətlərinin aşağı düşməsi və ölkənin neft və qaz ixracından güclü asılılığı iqtisadi inkişaf templərinin və dövlət investisiyalarının ümumi həcminin azalmasına gətirib çıxarmışdır (Dünya Bankı, 2017c). Bu kontekstdə müsbət bir məqam ondan ibarətdir ki, istər BFV-in, istərsə də Dünya Bankının proqnozları cari ildə və növbəti illərdə, başqa sözlə 2017-2019-cu illərdə real iqtisadi artım templərinin 1-3% arasında dəyişəcəyi barədə məlumat verir (BVF, 2017; Dünya Bankı, 2017d).

**QRAFİK 1. 1990-2016-cı illər ərzində Azərbaycanda ÜDM-in illik artımı (%-lə)**




*Mənbə: Dünya Bankı, 2018.*

1990-cı illərin ortalarından başlayaraq 2015-ci ilədək Alıcılıq Qabiliyyəti Pariteti (AQP) ilə adambaşına düşən ÜDM daima yüksəlirdi (Qrafik 2-yə baxın). 2005-2007-ci illərdə ölkə iqtisadiyyatının sürətli inkişafı AQP ilə adambaşına düşən ÜDM-in yüksələn xəttlə, sonrakı illərdə isə bir qədər aşağı templərlə artmasına gətirib çıxarmışdır. Lakin 2016-cı ildə bu göstərici də bir qədər azalmışdır. Buna baxmayaraq, həmin il Azərbaycanda AQP ilə adambaşına düşən ÜDM 17.253 ABŞ dolları təşkil edirdisə, Gürcüstanda və Ermənistanda bu rəqəm təxminən iki dəfə az idi və müvafiq olaraq 9.997 və 8.818 ABŞ dollarına bərabər idi (Dünya Bankı, 2017d).

**QRAFİK 2. 1990-2016-cı illərdə AQP ilə adambaşına düşən ÜDM (min ABŞ dolları)**




*Mənbə: Dünya Bankı, 2018.*

2001-ci ildə ölkədə yoxsulluq səviyyəsi 50% təşkil edirdisə, 2007-ci ildə 16%-ə bərabər olan bu göstərici daima azalaraq 2012-ci ildə 6%-ə enmişdir. 2000-ci ildən etibarən azalan işsizlik səviyyəsi isə hazırda 5%-ə bərabərdir (Dünya Bankı, 2017b, e).

2014-cü ildə İnsan İnkişafı İndeksinə (İİİ) görə dünya ölkələri arasında 78-ci yerdə qərarlaşan Azərbaycan Gürcüstandan (76-cı yer) geri qalsa da, Ermənistanı (85-ci yer) qabaqlayırdı (BMTİP, 2015). Qeyd etmək yerinə düşər ki, Azərbaycanda İnsan İnkişaf İndeksi tədricən və daima artaraq 2000-ci ildə 0,640-a, 2010-cu ildə 0,741-ə, 2014-cü ildə isə 0,751-ə bərabər idi. Bütün bunlarla yanaşı, 2016-cı ildə ölkədə doğulanda gözlənilən ömür uzunluğu 75,2 yaş təşkil edirdi (AZSTAT, 2018a), 2014-cü ildə gözlənilən və orta təhsil illəri müvafiq olaraq 11,9-a və 11,2-yə bərabər idi (BMTİP, 2015) və 2017-ci ildə AQP ilə adambaşına düşən ümumi milli gəlir (ÜMG) 16.130 ABŞ dolları səviyyəsində idi (Dünya Bankı, 2018). Ali təhsil almaq üçün Azərbaycana gələn əcnəbi tələbələrlə müqayisədə bu məqsədlə ölkədən xaricə gedənlər 6,6% çox idi (Azərbaycanda ali təhsil alan bütün tələbələrin faiz nisbəti əsasında hesablanıb).

Demoqrafik göstəricilər Azərbaycan əhalisinin nisbətən gənc olduğunu nümayiş etdirməklə yanaşı (orta yaş həddi 32,3-ə bərabərdir) yaşlıların asılılıq əmsalının (12,6) aşağı olmasına işarə edir (AZSTAT, 2018b). 2016-cı il üçün ümumi doğum əmsalı 2,0 təşkil etmişdir (AZSTAT, 2018c). Bu cür demoqrafik göstəriciləri hal-hazırda Avropa ölkələrinin çoxunda qeydə alınmış rəqəmlərlə müqayisə etdikdə belə bir qənaətə gəlmək olar ki, yaş üzrə asılılıq əmsalının növbəti illərdə kifayət qədər artması mümkündür (Wittgenstein/Vitqenşteyn Mərkəzinin proqnozlarına əsasən 2050-ci ildə bu əmsal 34,8-ə bərabər ola bilər, 2016).

Eyni zamanda, üç Cənubi Qafqaz ölkələri arasında yalnız Azərbaycanda növbəti illər ərzində əhalinin sürətlə artacağı və xalis miqrasiyanın müsbət səviyyədə qalacağı proqnozlaşdırılır. İlk növbədə ölkədə doğulanların ölənlərlə müqayisədə əhəmiyyətli say çoxluğu səbəbindən ölkə əhalisinin sayı 2020-ci ilədək 10 milyon nəfərə, 2050-ci ilədək isə 11 milyon nəfərə çata bilər (Vitqenşteyn Mərkəzi, 2014; BMTİSMD, 2015a).

## 7.2 Pul köçürmələri

Azərbaycana göndərilən pul köçürmələrinə aid ən yüksək göstərici 2012-ci ildə qeydə alınmışdır və ümumilikdə 1,99 milyard ABŞ dolları təşkil edirdi. 2013-cü ildə ölkəyə göndərilmiş pul köçürmələrinin həcmi 13% azaldıqdan sonra 2014-cü ildə 7% artaraq 1,85 milyard ABŞ dollarına bərabər idi (Cədvəl 28-ə baxın). 2015 və 2016-cı illərdə bu göstəricinin kifayət qədər (müvafiq olaraq 31 və 49%) aşağı düşməsini qismən manatın devalvasiyası ilə izah etmək olar.

Qlobal miqyasda götürəndə, 2014-cü ildə 2 milyard ABŞ dolları həcmində pul köçürmələri göndərmiş Azərbaycan bu cür köçürmələri göndərən əsas orta gəlirli ölkələrdən biri hesab olunaraq Qazaxıstandan (3,6 milyard ABŞ dolları) və Tailandan (3,1 milyard ABŞ dolları) aşağıda, Ukraynadan isə (1,7 milyard ABŞ dolları) yuxarıda, 8-ci yerdə qərarlaşmışdır (Dünya Bankı, 2016). Azərbaycandan xaricə göndərilən pul köçürmələrinin həcmi bu ölkəyə göndərilən və 2012-ci ildə ən yüksək göstəriciyə, 2,1 milyard ABŞ dolları səviyyəsinə çatmış pul köçürmələrinin həcmi ilə paralel şəkildə artırdı. Həmin ildən etibarən xaricolmalar daxilolmaların həcmini bir qədər üstələdiyindən mənfi balansın əmələ gəlməsi ilə nəticələnmişdir (-83 milyon ABŞ dolları 2012-ci ildə və -23 milyon ABŞ dolları 2015-ci ildə).

2016-cı ildə Azərbaycana ümumilikdə 643 milyon ABŞ dolları həcmində pul köçürmələri göndərilmişdir ki, bu da ÜDM-in 1,7%-ni təşkil etmişdir (Dünya Bankı, 2018b). Göndərilmiş pul köçürmələrinin Gürcüstanın (10,4%) və Ermənistanın (13,1%) ÜDM-indəki xüsusi çəkisi ilə müqayisədə Azərbaycandakı rolu çox cüzidir və Dünya Bankının statistik məlumatlarından göründüyü müvafiq ölkə ilə bağlı daxilolmalar və xaricolmalar arasında balans mənfi olduqda bu cür amil üstünlük hesab olunur.

2015-ci ildə Azərbaycana göndərilmiş pul köçürmələrinin mənşə ölkələri arasında Rusiya əsas ölkə hesab olunurdu (daxilolmaların 58%-ni təşkil edən 737 milyon ABŞ dolları həcmində pul köçürmələri). Ermənistandan 212 milyon ABŞ dolları həcmində pul köçürmələri bütün daxilolmaların 17%-ni təşkil edirdi. Qazaxıstandan (49 milyon ABŞ dolları, 4%) və Özbəkistandan (32 milyon ABŞ dolları, 2%) göndərilən pul köçürmələrinin həcmi nisbətən az idi (Dünya Bankı, 2017g).

**CƏDVƏL 27. Azərbaycan Respublikası Mərkəzi Bankının məlumatlarına əsasən 2008-2016-cı illərdə ölkəyə və ölkədən göndərilən pul köçürmələrinin həcmi (milyon ABŞ dolları)**

| | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Ölkəyə daxilolmaların həcmi | 1.416 | 1.182 | 1.338 | 1.772 | 1.852 | 1.579 | 1.709 | 1.183b | 564 |
| İllik dəyişikliklər | 18,8% | -16,6% | 13,2% | 32,4% | 4,6% | -14,7% | 8,2% | -30,8% | -52,3% |
| Ölkədən xaricolmaların həcmi | 399 | 522 | 840 | 1.138 | 1.892 | 1.579 | 1.523 | 943b | 490 |
| İllik dəyişikliklər | 45,9% | 30,9% | 60,8% | 35,5% | 66,2% | -16,6% | -3,5% | -38,1% | -48,1% |
| Balans | 1.017 | 659 | 498 | 633 | -40 | 0 | 186 | 240[b] | 75 |

[b] 2015-ci il üçün pul köçürmələrinin hesablanması BVF-in tədiyə balansı əsasında müəyyən edilmiş yeni BPM metodologiyasına (6-cı nəşr) uyğun aparılmışdır (BPM metodologiyasının 5-ci nəşri 2014-cü ilədək tətbiq olunurdu).

*Mənbə: Mərkəzi Bank, 2017; ekspertin hesablamaları.*

Mərkəzi Bank (Cədvəl 27-yə baxın) və Dünya Bankı (Cədvəl 28-ə baxın) tərəfindən təqdim olunmuş məlumatlar arasındakı fərqi ilk növbədə tətbiq edilən yanaşmaların müxtəlif olması ilə izah etmək olar. Belə ki, Dünya Bankının hesablamaları xaricdə işləyən (sərhədyanı, mövsümi və ya qısamüddətli) miqrantların gəlirlərini də nəzərə almaqla BVF tərəfindən 2008-ci ildə müəyyən edilmiş "fərdi pul köçürmələri" anlayışı əsasında aparıldığından daxil- və xaricolmaların daha yüksək səviyyədə olması ilə səciyyələndirilir. Mərkəzi Bankın hesablamalarının isə yalnız faktiki fərdi pul köçürmələri əsasında aparıldığını ehtimal etmək olar.

Bununla belə, bu məlumatlar əsasında müşahidə olunan tendensiyalar çox oxşardır. Azərbaycandan göndərilən fərdi pul köçürmələrin həcminin kəskin sürətdə artdığı, miqrantların ümumi gəlirlərinin isə azaldığı 2008-2010-cu illəri və bu ölkədən göndərilən pul köçürmələrinin həcminin azaldığı, miqrantların artan ümumi gəlirləri əsasında isə müəyyən dərəcədə balansın yarandığı 2013-cü ili istisna etsək mənbələrin ikisində də verilmiş illik dəyişikliklər elə də çox fərqlənmir (Dünya Bankı, 2016).

**CƏDVƏL 28. Dünya Bankının məlumatlarına əsasən 2008-2016-cı illərdə Azərbaycana və Azərbaycandan göndərilən pul köçürmələrinin həcmi (milyon ABŞ dolları)**

| | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Ölkəyə daxilolmaların həcmi | 1.518 | 1.255 | 1.410 | 1.893 | 1.990 | 1.733 | 1.846 | 1.270 | 643 |
| İllik dəyişikliklər | 19,8% | -17,4% | 12,4% | 34,2% | 5,1% | -12,9% | 6,5% | -31,2% | -49,4% |
| Ölkədən xaricolmaların həcmi | 567 | 638 | 954 | 1.280 | 2.073 | 1.903 | 2.031 | 1.293 | - |
| İllik dəyişikliklər | 40,2% | 12,5% | 49,4% | 34,2% | 62,0% | -8,2% | 6,8% | -36,3% | - |
| Balans | 951 | 617 | 457 | 613 | -83 | -169 | -185 | -23 | - |

*Mənbə: Dünya Bankı, 2017f; ekspertin hesablamaları.*

## 7.3 Davamlı investisiyalar

Gələcək inkişafın təmin olunması üçün mövcud olan variantlardan biri əmək miqrasiyası potensiallarından düzgün istifadəni nəzərdə tutur. Azərbaycanda qeyri-neft sektorunun və özəl sektorun inkişafı prosesinın gücləndirilməsi xüsusi əhəmiyyət kəsb edir (Dünya Bankı, 2017c).

Bununla yanaşı, sahibkarlığa davamlı dəstək potensialından da hərtərəfli istifadə olunmalıdır (Dünya Bankı, 2017a; Qurbanov, 2014). Əhali arasında gənclərin sayının həddindən artıq çox olduğunu, habelə doğulanların ölənlərlə müqayisədə say çoxluğunu nəzərə alaraq əmək bazarı bu cür işçi qüvvəni qəbul etmək iqtidarında olmalıdır. Biznesin, xüsusilə sahibkarlığın və potensial sahibkarların fərdi qaydada inkişaf etdirilməsi baxımından ölkə üzrə göstəricilər Avropa və Mərkəzi Asiya regionuna aid orta göstəricilərdən aşağıdır.

Təhsil sahəsinə qoyulan investisiyalar orta və uzunmüddətli məhsuldarlığın artırılması üçün ən ümidverici strategiyalardan biri hesab olunur. Azərbaycan ölkədə ali təhsil müəssisələrinə tələbə qəbulu səviyyəsinə (20%) görə digər orta gəlirli ölkələrdən geri qalır (Dünya Bankı, 2017d). Son 20 il ərzində Azərbaycanda tədqiqat və layihələndirmə sahəsinə qoyulan investisiyalar bu sahə üçün beynəlxalq təşkilatlar tərəfindən tövsiyə olunan vəsaitlərin həcmindən (ÜDM-nin 3,5%-i) qat-qat aşağı olaraq qalmaqdadır (Abaslı, 2016). Belə ki, 2009-cu ildə bu ölkədə tədqiqat və layihələndirmə sahəsi üçün nəzərdə tutulmuş xərclərin ümumi həcmi ÜDM-in 0,25%-ni təşkil edirdisə, 2015-ci ildə bu rəqəm 0,22%-ə bərabər idi (Dünya Bankı, 2018b).

Miqrasiya sistemləri çoxşaxəli tarixi, mədəni, iqtisadi və sosial əlaqələrin yetərincə inkişaf etdirilməsi ilə səciyyələndirilir. Bu nöqteyi-nəzərdən mövcud tendensiyaların dəqiqliklə müəyyənləşdirilməsi və müvafiq potensialların düzgün inkişaf etdirilməsi ən uğurlu addımlardan biri hesab olunur. Hal-hazırda Azərbaycan Respublikasında miqrasiya sisteminin şaxələndirilməsi prosesi müşahidə olunur: Aİ-dəki təyinat ölkələri (xüsusən də Almaniya, Fransa, habelə Hollandiya, Böyük Britaniya və İsveç) ilə güclü əlaqələr qurulur, həmçinin Rusiya ilə hər iki istiqamətdə yerdəyişmələrin tənzimlənməsi üçün tərəfdaşlığın səviyyəsi artırılır. Bununla yanaşı, müvəqqəti və ya dövri miqrasiya prosesləri də intensivləşir: 2012-ci ildə ölkə ərazisində müvəqqəti yaşamaq üçün təxminən 38.000 icazə verilmişdirsə, 2015-ci ildə bu cür icazələrin sayı təqribən 54.000-ə çatmışdır (DMX, 2016c). Aparılan tədqiqatlar zamanı emiqrantların və diaspor təşkilatlarının öz ölkəsinə investisiyalar qoymaq və davamlı transmilli əlaqələr qurmaq potensialı araşdırmalıdır.

Məhsuldarlığın aşağı səviyyədə, ixtisaslı kadrların isə həddindən artıq çox olması inkişaf üçün əlavə maneələr yaradır (Allahverənov və Hüseynov, 2013). Gənc kadrların sahibkarlıqla məşğul olma və özəl sektorda iştirak etmə imkanları artırılmalıdır ki, onlar öz bacarıqlarını innovasiyalar sahəsində tətbiq edə bilsinlər.

## 7.4 Diaspor təşkilatlarının iştirakı

Hal-hazırda dünyanın 50-dən çox ölkəsində 400-də çox Azərbaycan diaspor təşkilatı fəaliyyət göstərir (Diasporla İş üzrə Dövlət Komitəsi, 2018). Bundan başqa Avropa Azərbaycan Cəmiyyəti (TEAS.EU, 2017) fəal şəkildə əlaqələndirmə işlərini həyata keçirir.[10] Sözügedən diaspor təşkilatlarının fəal işlədiyi dövlətlər arasında Türkiyəni, Rusiyanı, İranı, İraqı, Gürcüstanı, Ukraynanı, habelə Almaniya, Fransa, Belçika və Hollandiya daxil olmaqla bir sıra Avropa ölkələrini, ABŞ-ı (Uslu və Kocaman, 2013), Avstraliyanı, Mərkəzi, Şərqi, Cənubi-şərqi Asiya, Yaxın Şərq, Şimali Afrika, Mərkəzi və Cənubi Amerika ölkələrini qeyd etmək olar.

[10] Ümumrusiya Azərbaycanlıları Konqresi 2017-ci il sentyabrın 19-da ləğv edilmişdir (Diasporla İş üzrə Dövlət Komitəsi, 2018).

36 ölkədə fəaliyyət göstərən 200-dən çox diaspor təşkilatını təmsil edən 400 nümayəndənin iştirakı ilə Dünya Azərbaycanlıların I Qurultayı 2001-ci ildə Bakı şəhərində keçirilmişdir (Diasporla İş üzrə Dövlət Komitəsi, 2016). Növbəti il ölkə Prezidentinin Sərəncamı ilə Diasporla İş üzrə Dövlət Komitəsi yaradılmışdır. 2006 və 2011-ci illərdə təşkil olunmuş dünya azərbaycanlılarının növbəti qurultaylarından sonra 2016-cı ilin iyun ayında Bakı şəhərində sayca dördüncü qurultay keçirilmişdir. Bu qurultayda iştirak etmiş Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev öz açılış nitqində diaspor təşkilatları, səfirliklər və hökumət orqanları arasında sıx əlaqələrin nə qədər əhəmiyyətli olduğunu xüsusilə vurğulamışdır (Dövlət Təhlükəsizlik Xidməti, 2016).

# 8. ÖLKƏDAXİLİ MİQRASİYA

## 8.1 Giriş

Son otuz il ərzində Azərbaycan Respublikası daxilində baş verən miqrasiya proseslərinin əsas səbəbləri arasında ölkədaxili münaqişələri və müharibəni, təbii fəlakətləri, iqtisadi amilləri və təhsil alma zərurətini göstərmək olar. 1990-cı illərin əvvələrində ölkə daxilində müşahidə olunan intensiv miqrasiya prosesləri Qarabağ münaqişəsi və məcburi köçkünlərin yerdəyişmələri ilə əlaqədar idi. Bundan başqa, 2009-2014-cü illər ərzində ölkə ərazisində qeydə alınmış təbii fəlakətlər səbəbindən təxminən 67.865 nəfər ölkə daxilində köçürülmüşdür (Daxili Yerdəyişmələr üzrə Monitorinq Mərkəzi/DYMM, 2014).

## 8.2 Məcburi köçkünlər

Ermənistanla müharibə nəticəsində etnik azərbaycanlılar və Azərbaycanda yaşayan digər milli azlıqların nümayəndələri (məsələn, kürdlər, ruslar və türklər) Qarabağı tərk etmək məcburiyyəti ilə üzləşdiyindən Azərbaycanın başqa bölgələrində məskunlaşaraq məcbur köçkün kimi qeydiyyata alınmışdırlar. Qeyd etmək lazımdır ki, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikası öz ərazilərinin təxminən 20%-i üzərində nəzarəti itirmişdir. Atəşkəs barədə razılığın əldə olunduğu 1994-cü ildə Azərbaycanda təxminən 700.000 nəfər məcburi köçkün həyatı yaşayırdı (DYMM, 2014; BMT QAK-ın bu sahədə statistik məlumatları ilə tanış olmaq üçün Bölmə 5.4.3-də verilmiş Cədvəl 14-ə baxın).

Azərbaycanda "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə" Dövlət Proqramı həyata keçirilir. 1990-cı illərin əvvəllərindən məcburi köçkünlərin məskunlaşdığı son çadır düşərgələri 2007-ci ildə ləğv edilmişdir. Eyni zamanda, Azərbaycan Respublikası Hökuməti 2014-cü il üçün təxminən 180.000 qaçqının və məcburi köçkünün inşa edilmiş 80-dan çox qəsəbəyə köçürülməsinə nail olmuşdur (DYMM, 2014). Bundan başqa, çoxlu sayda məcburi köçkün öz qohumlarının mənzillərində, yataqxanalarda və ictimai binalarda məskunlaşıb (Qrafik 3-ə baxın). Bununla yanaşı, məcburi köçkünlərin bəziləri tərəfindən boş evlərin və mənzillərin zəbt edilməsi mübahisəli vəziyyətlərin yaranmasına və məhkəmə çəkişmələrinə səbəb olmuşdur.

2011-ci ildə Dünya Bankı məcburi köçkünlər arasında yoxsulluq səviyyəsinin 25%-ə bərabər olduğunu və ölkə üzrə göstəricidən 5% yüksək olduğunu bildirmişdir. Bununla yanaşı, ölkə üzrə 43% işsizlik səviyyəsindən fərqli olaraq məcburi köçkünlər arasında bu göstərici 60% təşkil edirdi (DYMM, 2014). 2012-ci ildə ölkədə yoxsulluq səviyyəsi (milli yoxsulluq xətti üzrə) çox aşağı göstəriciyə, 6%-ə bərabər idi; 2017-ci ildə işsizlik səviyyəsi 5,1% təşkil edirdi (Dünya Bankı, 2018).

**QRAFİK 3. Məcburi köçkünlərin məskunlaşdığı yaşayış yerlərinin növləri**




*Mənbə: DYMM, 2014.*

## 8.2.1 Azərbaycanda məcburi köçkünlərlə bağlı normativ hüquqi sənədlər

Azərbaycan Respublikasında məcburi köçkünlərlə bağlı siyasət burada sadalanan normativ hüquqi sənədlər əsasında formalaşır:

- “Qaçqınların və məcburi köçkünlərin statusu haqqında” 1999-cu il tarixli Qanun;
- “Məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında” 1999-cu il tarixli Qanun;
- “Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə” 2004-cü il tarixli Dövlət Proqramı;

Azərbaycan Respublikasında məcburi köçkünlərin işləri ilə aşağıda göstərilən dövlət təşkilatları və qurumları məşğul olur (Salinas, 2003):

- **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi** bilavasitə məcburi köckünlərin işləri ilə məşğul olur və yerli icra hakimiyyəti orqanları ilə birlikdə məcburi köçkünlərə birbaşa yardım göstərir. Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, habelə Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsi və İnsan Hüquqları Komitəsi də bu institusional çərçivəyə aid bir sıra məsələlərlə məşğul olurlar.

- 1999-cu ildə yuxarıda göstərilən Dövlət Komitəsi nəzdində yaradılmış **Repatriasiya Departamenti** məcburi köçkünlərin sülh şəraitində repatriasiyası ilə bağlı məsələləri əlaqələndirir. Bu günədək bu departament məcburi köçkünlərin Ağdam və Füzuli rayonlarının işğaldan azad olunmuş kəndlərinə repatriasiyası ilə bağlı işlərə rəhbərlik edib.

- **Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında Qaçqınların, Məcburi Köçkünlərin Problemləri, Miqrasiya və Beynəlxalq Təşkilatlarla İş Şöbəsi** 2004-cü ildə yaradılıb (Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, 2017b).

- 1995-ci ildə yaradılmış **Beynəlxalq Humanitar və Texniki Yardım üzrə Respublika Komissiyasının** vəzifəsi beynəlxalq humanitar yardımın qəbulunu və bölüşdürülməsini təmin etməkdən ibarətdir. Komissiya üzvlərinin iki əsas vəzifəsi beynəlxalq təşkilatlarla və QHT-lərlə əlaqə saxlamağı və Azərbaycanın regionlarında müvafiq proqramların əlaqələndirilməsini nəzədə tutur. Komissiyanın İşçi Qrupu Azərbaycanın müvafiq rayonlarında məcburi köçkünlər

üçün nəzərdə tutulmuş bütün proqramların (məsələn, məcburi köçkünlər üçün gəlir gətirən layihələrin) əlaqələndirilməsini həyata keçirir. Son zamanlar bu İşçi Qrup Xəzər dənizində suyun səviyyəsinin qalxması səbəbindən köçürülmüş ailələrin də problemləri ilə məşğul olurdu.

- 1996-cı ildə yaradılmış **Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Dövlət Komissiyası** ərazilərin bərpası və yenidən qurulması sahəsində həyata keçirilən bütün milli və beynəlxalq işlərin əlaqələndirilməsinə məsuliyyət daşıyır.

Hökumət və beynəlxalq təşkilatlar tərəfindən hazırlanmış Bərpa Proqramı təxminən 36.000 məcburi köçkünün işğaldan azad olunmuş ərazilərə geri qaytarmaq məqsədi daşıyır. Bu Proqram **Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Dövlət Komissiyasının** rəhbərliyi ilə Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentlik (ARRA) tərəfindən həyata keçirilir (Salinas, 2003).

Hökumət məcburi köçkünlərlə bağlı problemlərin həlli üçün tələb olunan xərclərin böyük bir hissəsini öz üzərinə götürsə də, bir sıra beynəlxalq təşkilatlar və milli agentliklər, o cümlədən Dünya Bankı, BMT QAK, BMTİP, BMqT və USAID bu işə öz töhfələrini vermişdirlər.

## 8.3 Ekoloji miqrantlar

Azərbaycanda məcburi köçkünlərlə müqayisədə ekoloji miqrantların sayı elə də çox deyil. Bununla belə, DYMM-nin məlumatlarına əsasən 2009-2014-cü illər ərzində ölkə ərazisində qeydə alınmış təbii fəlakətlər səbəbindən ölkə daxilində 67.865 nəfər köçürülmüşdür. Qeyd etmək yerinə düşər ki, Azərbaycanda daha çox baş verən təbii fəlakətlər daşqınlardan, torpaq sürüşmələrindən, zəlzələlərdən, torpaqların şoranlaşmasından, dəniz suyunun səviyyəsinin qalxıb-enməsindən və s. ibarətdir.

2010-cu ildə Kür və Araz çaylarında baş vermiş daşqınlar nəticəsində 70.000 insan zərər çəkib və on minlərlə ev dağılıb (Səfərəliyev, 2015; həmçinin Cədvəl 29-a baxın). Bu ərazilərdən köçürülmüş insanların bəziləri Qarabağdan gəlmiş məcburi köçkünlər idi. 2012-ci ildə Zaqatala və Qax rayonlarında qeydə alınmış zəlzələ təxminən 7.000 ailənin bu ərazilərdən təxliyə edilməsinə səbəb olmuşdur (BMqT, 2016). Adətən hakimiyyət orqanları baş verən təbii fəlakətlər nəticəsində ziyan dəymiş tikililərin yenidən qurulması və ya təmir oluması işlərini öz üzərinə götürsələr də, irimiqyaslı təbii fəlakətlər zamanı bunu yalnız daxili imkanlar hesabına etmək mümkün olmur.

**CƏDVƏL 29. 1995-2012-ci illərdə Azərbaycan Respublikasında qeydə alınmış əsas təbii fəlakətlər**

| Təbii fəlakət | İl | Ölüm halları | Zərər çəkmiş əhalinin ümumi sayı |
|---|---|---|---|
| Zəlzələ | 2012 | 0 | 22.499 |
| Ekstremal temperatur | 2012 | 5 | - |
| Daşqın | 2010 | 3 | 70.000 |
| Daşqın | 2009 | 0 | 5.000 |
| Torpaq sürüşməsi | 2000 | 11 | - |
| Zəlzələ | 2000 | 31 | - |
| Zəlzələ | 1999 | 1 | 9.170 |
| Zəlzələ | 1998 | 1 | 700.010 |
| Daşqın | 1997 | 11 | 75.000 |
| Daşqın | 1995 | 0 | 1.650.000 |

“-“ = məlumat mövcud deyil.

*Mənbə: EM-DAT, 2017.*

### 8.3.1 Azərbaycanda ekoloji miqrantlarla bağlı normativ hüquqi sənədlər

Azərbaycan Respublikasında ekoloji miqrantlarla bağlı vəziyyət burada sadalanan normativ hüquqi sənədlər əsasında tənzimlənir:

- Ətraf mühit üzrə Milli Fəaliyyət Planı (1998-2003-cü illər);
- Su təchizatı infrastrukturunun və kanalizasiya sistemlərinin təkmilləşdirilməsini nəzərdə tutan ekoloji məsələlərin də yer aldığı 2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı;
- "Ətraf mühitin mühafizəsi haqqında" 1999-cu il tarixli Qanun;
- "Ekoloji təhlükəsizlik haqqında" 1999-cu il tarixli Qanun:
- Xəzər dənizi regionundan ekoloji miqrasiyanı əsas təhdidlərdən biri kimi müəyyən edən Dövlət Miqrasiya İdarəetmə Siyasəti Konsepsiyası (2004-cü il) və
- Dövlət Miqrasiya Proqramı (2006-2008-ci illər).

Beynəlxalq səviyyədə qəbul edilmiş sənədlərə gəldikdə isə, 1992-ci ilin iyun ayında Azərbaycan Respublikası BMT-nin "İqlim dəyişikliyi üzrə" Çərçivə Konvensiyasını (UNFCCC) imzalamışdır və 1997-ci ildə ölkə Prezidentinin Sərəncamı əsasında İqlim Dəyişikliyi üzrə Dövlət Komissiyası yaradılmışdır.

# 9. YEKUN VƏ TÖVSİYƏLƏR

Azərbaycanda rəsmi miqrasiya statistikası immiqrasiya və emiqrasiya proseslərinin çox cüzi bir hissəsini əhatə edir, belə ki, immiqrasiya statistikasına yalnız ölkə ərazisində daimi yaşamaq üçün icazələrə malik olan xarici vətəndaşlar daxildir. Beynəlxalq miqrasiya statistikasına aid tövsiyələr isə daimi yaşadığı ölkəni 12 aydan çox bir müddətə dəyişən vətəndaşlara və əcnəbilərə dair statistikanın aparılmasını nəzərdə tutur. Azərbaycan Respublikasına geri qayıdan və ya immiqrasiya edən ölkə vətəndaşları haqqında rəqəmlər mövcud olmadığından immiqrantlar barədə statistika ilə əhatə olunmur. Eyni zamanda, ölkədə (fasiləsiz) 12 ay və ya daha artıq müddət ərzində yaşamaq üçün müvəqqəti icazələri olan əcnəbilərin sayı da sözügedən statistik rəqəmlərdə əks olunmur.

AVROSTAT, BMTİSMD-nin Əhali Şöbəsi, dövlət statistika təşkilatları və digər mənbələr tərəfindən təqdim olunmuş məlumatlar əsasında yerdəyişmələrə dair nisbətən dolğun miqrasiya mənzərəsini təsvir etmək mümkündür: 2016-cı ildə Azərbaycana ən azı 15.100 nəfər immiqrasiya etmişdir və ən azı 28.600 nəfər bu ölkədən emiqrasiya etmişdir. Əsasən beynəlxalq mənbələrdən əldə olunmuş bu statistik məlumatlar müvafiq təyinat və mənşə ölkələri haqqında informasiyanı özündə əks etdirməsə də, belə bir qənaətə gəlmək olar ki, 2007-ci ildən etibarən həm immiqrasiya, həm də emiqrasiya prosesləri intensivləşərək uzunmüddətli mənfi miqrasiya balansının əmələ gəlməsi ilə nəticələnmişdir.

**2016-cı ildə ən azı 15.100 nəfər Azərbaycana immiqrasiya etmişdir və ən azı 28.600 nəfər bu ölkədən emiqrasiya etmişdir. Bununla əlaqədar olaraq, mənfi miqrasiya balansının ən azı 13.500 nəfərdən ibarət olduğunu ehtimal etmək olar.**

**Milli miqrasiya statistikasında istər immiqrantlar, istərsə də emiqrantlar hərtərəfli nəzərə alınmır, çünki immiqrasiya statistikasında geri qayıdan azərbaycanlı miqrantlar və ölkə ərazisində yaşamaq üçün müvəqqəti icazələrin sahibləri əhatə olunmur, emiqrasiya statistikası isə yalnız qeydiyyatdan çıxaraq ölkəni tərk etmiş şəxslər üzərində qurulur.**

(Nisbətən dolğun məlumatların mövcud olduğu) 2016-cı ildə mənfi miqrasiya balansının ən azı 13.500 nəfərdən ibarət olduğunu ehtimal etmək olar: əcnəbilər və Azərbaycan Respublikası vətəndaşları daxil olmaqla 28.600 emiqrant – 15.100 immiqrant (Əlavədə verilmiş Cədvəl 32-yə baxın). Əgər müvafiq hesablamalara Azərbaycandan Qazaxıstana, ABŞ-a və Avropa sayılmayan digər ölkələrə gedən emiqrantlar da daxil edilsə idi, əsasən Rusiyaya gedən emiqrantlar səbəbindən əmələ gəlmiş bu mənfi balans daha da böyük ola bilərdi.

Azərbaycanla bağlı miqrasiya prosesləri güclü regional əlaqələrlə səciyyələndirilir – emiqrantlar üçün əsas təyinat ölkələri, habelə immiqrantların əsas mənşə ölkələri ilk növbədə keçmiş sovet respublikalarından ibarətdir. Rusiya Azərbaycandan gedən emiqrantların birinci və əsas təyinat ölkəsi hesab olunur (hesablamalara əsasən 2015-ci ildə bu ölkədə Azərbaycandan olan təxminən 770.000 emiqrant yaşayırdı). Son zamanlar Almaniya, Fransa, Hollandiya, Böyük Britaniya və İsveç kimi Aİ dövlətlərindən təyinat ölkələri kimi istifadə etmə halları çoxalmaqdadır. 1990-2015-ci illər ərzində Aİ-28-də yaşayan azərbaycanlıların sayı "beş amili" əsasında artmışdır və 42.000 nəfərdən çox idi (Cədvəl 20-yə baxın).

Ermənistanla Azərbaycan arasında davam edən müharibə səbəbindən 1990-cı illərin əvvələrində Ermənistanı tərk etməyə məcbur olmuş etnik azərbaycanlılar Azərbaycana gəlmiş immiqrantların böyük bir hissəsini təşkil edirlər. Hesablamalara əsasən Gürcüstanda doğulmuş 50.000 nəfərin və Rusiyada doğulmuş 29.000 nəfərin 2015-ci ildə Azərbaycanda yaşaması ehtimal olunur. Qeyd etmək yerinə düşər ki, 1990-cı ildən etibarən Ermənistan, Gürcüstan və Rusiya əhalisinin sayı azalmaqdadır.

Cənubi Qafqazda müşahidə olunan etnik homogenləşmə prosesi (Gürcüstanla bağlı baxın: MSİBM, 2015) Azərbaycandan da yan keçməmişdir. Belə ki, 2009-cu ildə Azərbaycan əhalisinin 90%-dən çox bir hissəsini etnik azərbaycanlılar təşkil edirdi və dövlət müstəqilliyi bərpa olunduqdan sonra etnik azlıqların sayı (daima olmasa da) azalırdı.

Son zamanlar Azərbaycana istiqamətlənən qaçqın axınları 2014-cü ildə ən yüksək göstərici ilə ifadə olunsa da,(ailə üzvləri ilə birlikdə 399 ərizəçi), regionun və Avropanın digər ölkələri ilə müqayisədə bu ölkədə qaçqınların sayı elə də çox deyil. 2015-ci ildə dövlət orqanlarına və BMT QAK-a müraciət edən sığınacaq axtaranların statusunun tanınması halları üzrə göstəricilər əhəmiyyətli dərəcədə fərqlənir: bu göstərici dövlət orqanlarında 0%-ə, BMT QAK-da əfqanlarla bağlı 56%, suriyalılarla isə 100%-ə bərabərdir. Azərbaycanda status almaq üçün vəsatətlərin baxılması ilə bağlı məhdudiyyətlər bu ölkədə çoxlu sayda qaçqının və məcburi köçkünün çoxdan yaşaması faktı ilə əlaqədardır. Dağlıq Qarabağ münaqişəsi səbəbindən Azərbaycanda 618.000 nəfər məcburi köçkün həyatı yaşamaqdadır və ölkə ərazilərinin 20%-i işğal olunub.

Bütün bu çətinliklərlə yanaşı, 2016-ci ildə baş vermiş iqtisadi böhranı və mövcud iqtisadi vəziyyəti nəzərə alaraq dövlət siyasətinin əsas məqsədlərindən birinə nail olmaq, başqa sözlə yüksək ixtisaslı xarici əmək qüvvəsini ölkəyə cəlb etmək baxımından Azərbaycanın çətinliklərlə üzləşməsi qaçılmazdır. Bununla əlaqədar olaraq, xüsusilə iqtisadiyyatın qeyri-neft sektorunda ixtisaslı əmək qüvvəsinə olan tələbatı ödəmək məqsədilə Azərbaycan diasporunun yüksək ixtisaslı və ali təhsilli üzvlərinin Azərbaycana müvəqqəti və ya daimi qayıtması prosesi stimullaşdırılmalıdır.

## Tövsiyələr

- Tədqiqatçılar, siyasət hazırlayanlar və praktiklər arasında bilik və tərcübə mübadiləsinin inkişaf etdirilməsinə şərait yaratmaq məqsədilə miqrasiya və inteqrasiya məsələlərinə dair elmi və siyasət yönümlü tədqiqatların keçirilməsini təşkil etmək və dəstəkləmək:

  - Miqrant göndərən və qəbul edən bütün müvafiq ölkələri (məsələn, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan, Ukrayna, Türkiyə, İran, Hindistan, Banqladeş və ABŞ) əhatə etməklə Azərbaycanla digər dövlətlər arasında miqrasiya proseslərinin, habelə emiqrant qruplarının daha müfəssəl təhlil olunması işini təşkil etmək;
  - Diaspor təşkilatlarının və emiqrantların Azərbaycan iqtisadiyyatına investisiya qoymaq maraqlarının araşdırılması işini təşkil etmək;
  - Miqrasiya proseslərinin inkişafa təsirini və bunun nəticəsində sosial strukturlarda baş verən dəyişiklikləri qiymətləndirmək məqsədilə ev təsərrüfatlarının tədqiqatının həyata keçirilməsi işini stimullaşdırmaq və dəstəkləmək;
  - Faktiki məlumatlara əsaslanan siyasətin əhəmiyyətini qarşılıqlı şəkildə qəbul edən siyasət hazırlayanlar və tədqiqatçılar arasında məlumat mübadiləsini asanlaşdırmaq məqsədilə elmi dairələrin nümayəndələrindən, tədqiqatçılardan, habelə əlaqədar beynəlxalq təşkilatların və QHT-lərin ekspertlərindən ibarət əlaqələndirici orqan funksiyalarını yerinə yetirən Miqrasiya Araşdırmaları üzrə Məşvərət Şurasını DMX yanında yaratmaq.

- Burada sadalanan məqsədlər üçün rəsmi miqrasiya statistikasını BMT tövsiyələrinə uyğun yenidən işləmək:

  - Azərbaycana immiqrasiya və Azərbaycandan emiqrasiya edən xarici vətəndaşları və Azərbaycan Respublikası vətəndaşlarını əhatə etmək;
  - Ölkə ərazisində müvəqqəti yaşamaq üçün icazələri olan və ölkədə 12 aydan çox müddət ərzində qalan şəxsləri əhatə etmək;
  - Statistikası aparılan bütün şəxslərin vətəndaşı olduğu və doğulduğu ölkələr, mənşə və təyinat ölkələri, habelə cins və yaş qrupları üzrə bölgüsünü aparmaq.

- 2019-cu ildə keçiriləcək siyahıyaalma ilə əlaqədar mövcud proqnozlar və siyahıya almanın nəticələri arasında fərqləri aradan qaldırmaq üçün əhali statistikasını yenidən işləmək və vətəndaşı olduğu və doğulduğu ölkələr üzrə bölgüsü aparılmış bu cür statistikanı (hesablamaları) dərc etdirmək.

- Azərbaycanda fəaliyyət göstərən ali təhsil müəssisələrinə daha çox sayda əcnəbi tələbə cəlb etmək. Sahibkarlıqla məşğul olmaq imkanları axtaran və sahibkarlıq ideyalarını dəstəkləyən əcnəbi tələbələrin əmək bazarına çıxışını asanlaşdırmaq məqsədilə onların ölkədə ali təhsil proqramının pillələrinə uyğun dərəcələr almaq işini təkmilləşdirmək.

- "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına uyğun olaraq azərbaycanlı tələbələrin təhsil almaq məqsədilə yerdəyişmələrini dəstəkləmək.

- Tədqiqat və layihələndirmə sahəsi üçün ayrılan maliyyə vəsaitlərinin həcmini artırmaq.

- Burada misal kimi göstərilən yollarla yüksək ixtisaslı immiqrantları ölkəyə cəlb etmək:
  - Ölkədə əmək fəaliyyəti ilə məşğul olmaq məqsədilə yaşamaq üçün ikiillik müvəqqəti və ya beşillik icazələrin verilməsinin, habelə bu icazələrin alınmasına görə dövlət rüsumunun azaldılmasının təklif olunması;
  - Müvafiq mənşə ölkəsində əlaqədar yüksək ixtisaslı immiqranta şamil edilən sosial güzəştlərin Azərbaycanda da şamil edilməsinin təmin olunması;

- Geri qayıdan miqrantların xüsusilə qeyri-neft sektoruna (turizm, inşaat, təhsil sektorlarına və s. sektorlara) cəlb edilməsi, dəstəklənməsi və bu cür şəxslər arasında sahibkarlığın stimullaşdırılması.

# 10. ƏDƏBİYYAT


İlahə Abaslı  (2016) “The Twin Challenges for “Smart Public Spending” in Azerbaijan: How are the declining R&D expenditures spent?”/”Azərbaycanda düşüncəli dövlət xərcləri ilə bağlı ikili təhdidlər: tədqiqat və layihələndirmə üçün azalan xərclər nə cür istifadə olunur?”

abc.az (2016) “Azərbaycan strateji inkişaf üçün 8 prioritet sahə seçir”, 17 mart 2016-cı il, http://abc.az/eng/news/94914.html (sonuncu dəfə 2017-ci il oktyabrın 17-də baxılıb)

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 27 dekabr tarixli, 67 nömrəli Fərmanı əsasında təsdiq edilmiş “Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında əmək, sosial müdafiə və məşğulluq sahələrində əməkdaşlığa dair“ Saziş, 2013-cü il

Azərbaycan Respublikasının 2014-cü il 3 fevral tarixli, 893-IVQ tarixlli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında işçi qüvvəsinin qarşılıqlı əmək fəaliyyətinə dair” Saziş, 2014-cü il

Azər Allahverənov və Emin Hüseynov (2013) “Avropa Birliyi və Şərq Tərəfdaşlığı Ölkələri arasında əmək miqrasiyasının dəyəri və faydası: Azərbaycan üzrə Ölkə Hesabatı”

ARMSTAT (2011) “Population by place of birth. sex and age.Table 6.3.Population Census”/”Əhalinin siyahıya alınması. Cədvəl 6.3 - Əhalinin doğulduğu yer, cins və yaş üzrə bölgüsü”

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti (2017) Rəsmi veb-sayt http://www.dsx.gov.az/

AZSTAT (2016a) “Azərbaycanın demoqrafik göstəriciləri”. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

AZSTAT (2016b) “Beynəlxalq miqrasiya. Əhali statistikası. Cədvəl 007”. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

AZSTAT (2016c) “Miqrasiya.Metodoloji izahat” http://www.stat.gov.az/source/demoqraphy/en/demoqraphiy7.doc

AZSTAT (2017a) “1935-2016-cı illərdə təbii artım, doğum və ölüm göstəriciləri”

AZSTAT (2017b) “1897-2017-ci illərdə əhalinin sayının dəyişməsi”

AZSTAT (2017c) “1970-2016-cı illərdə beynəlxalq miqrasiya”

AZSTAT (2017d) “Milli hesablar sistemi və tədiyə balansı”

AZSTAT (2018a) “Doğulanda gözlənilən ömür uzunluğu”

AZSTAT (2018b) “Orta yaş və yaşlıların asılılıq əmsalı”, MSİBM-ə təqdim olunmuş məlumat

AZSTAT (2018c) “Şəhər və kənd yerlərində ümumi nəsilvermə əmsalı”

Azərbaycan Respublikası Mərkəzi Bankı (2017) “Pul köçürmələri“, MSİBM-ə təqdim olunmuş məlumat

Council Regulation 862/2007/EC on Community statistics on migration and international protection, 2007 O.J. L199/23/Aİ Şurasının "Miqrasiya və beynəlxalq müdafiə üzrə icma statistikasına dair" Əsasnaməsi

Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyi (2016) "Azərbaycan Respublikası ilə Aİ arasında bağlanmış müqavilələr" http://eeas.europa.eu/delegations/azerbaijan/eu_azerbaijan/political_relations/agreements/index_en.htm

ŞTƏƏP (2014) "Azərbaycanda Şərq Tərəfdaşlığının Ərazi Əməkdaşlığı Proqramı çərçivəsində layihələrin icrasının maliyyələşdirilməsi ilə bağlı milli tələblərə dair rəhbər sənəd"

Elif Pelit Azərbaycana qarşı "Məlumat No. 281/2005. U.N. Doc. CAT/C/38/D/281/2005 (2007)"

EM-DAT (2017) "The International Disaster Database. Centre for Research on the Epidemiology of Disasters – CRED"/"Fəlakətlərə dair beynəlxalq məlumat bazası. CRED - Fəlakətlərin Epidemiologiyasının Araşdırılması Mərkəzi", http://www.emdat.be/database

Erasmus+Azerbaijan Proqramının rəsmi veb-saytı (2017) "Azərbaycanda Erasmus Mundus proqramı", http://erasmusplus.org.az/?page_id=931 (sonuncu dəfə 2017-ci il oktyabrın 17-də baxılıb)

Aİ-nin Xarici Fəaliyyəti (2016) "Şərq Tərəfdaşlığı, http://eeas.europa.eu/eastern/index_en.htm

Aİ (2014a) "Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında icazəsiz yaşayan şəxslərin readmissiyası haqqında Saziş", L 128/17

Aİ (2014b) "Azərbaycan Respublikası və Avropa İttifaqı arasında vizaların rəsmiləşdirilməsinin sadələşdirilməsi haqqında" Saziş, L 128/49

eurasianet.org (2017a) "Fighting in Karabakh Flares as Azerbaijan Marks Memorial"/"Azərbaycan anım mərasimi keçirdiyi bir vaxtda Qarabağ döyüşləri qızışır", 27 fevral 2017-ci il, http://www.eurasianet.org/node/82606

eurasianet.org (2017b) "Killing of Azerbaijani Toddler Inflames Karabakh Tensions"/"Azərbaycanlı körpə uşağın qətli Qarabağda gərginliyin artmasına səbəb olmuşdur", 6 iyul, 2017-ci il, http://www.eurasianet.org/node/84256

Avropa Komissiyası (2013) "Cecilia Malmström welcomes the signing of a Visa Facilitation Agreement with Azerbaijan.Press Release"/"Press-reliz. Sesilia Malmström Azərbaycanla viza rejiminin sadələşdirilməsi sazişinin imzalanmasını alqışlayır", http://europa.eu/rapid/press-release_IP-13-1184_en.htm

Avropa Parlamenti "Resolution of 20 May 2010 on the need for an EU strategy for the South Caucasus, OJ C 161E"/"Aİ-nin Cənubi Qafqaz üzrə Strategiyasının zəruriliyi haqqında" 2010-cu il 20 may tarixli, OJ C 161E nömrəli Qətnamə

AVROSTAT (2016) "Asylum decisions in the EU. EU Member States granted protection to more than 330 000 asylum seekers in 2015. Press Release."/"Press-reliz. Aİ-də sığınacağın verilməsinə dair qərarlar. 2015-ci ildə Aİ üzv dövlətləri 330.000 nəfərdən çox sığınacaq axtaranı müdafiə ilə təmin etmişdirlər"

AVROSTAT (2017a) "Migration and migrant population statistics"/"Miqrasiya və miqrant əhalinin statistikası" http://ec.europa.eu/eurostat/statistics-explained/index.php/Migration_and_migrant_population_statistics

AVROSTAT (2017b) "All valid permits by reason, length of validity and citizenship on 31 December of each year"/"Verilmiş səbəblərə, etibarlılıq müddətinə və vətəndaşlıq mənsubiyyətinə görə hər il dekabrın 31-i üçün etibarlı sayılan bütün icazələrin sayı" [migr_resvalid]

AVROSTAT (2018a) "Immigration by five year age group, sex and country of previous residence"/"Beş il ərzində gəlmiş immiqrantların yaş qrupları, cinsi və əvvəl yaşadığı ölkələr üzrə sayı" [migr_imm5prv].

AVROSTAT (2018b) "Immigration by five year age group, sex and citizenship"/"Beş il ərzində gəlmiş immiqrantların yaş qrupları, cinsi və vətəndaşlıq mənsubiyyəti üzrə sayı" [migr_imm1ctz].

AVROSTAT (2018c) "Emigration by five year age group, sex and country of next usual residence"/"Beş il ərzində getmiş emiqrantların yaş qrupları, cinsi və növbəti daimi yaşayış ölkələri üzrə sayı" [migr_emi3nxt].

